RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 64 (9231) 30 MART 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Zəfərin yaratdığı yeni idarəetmə modeli

## İlham Əliyevin müasir idarəçiliyə xidmət edən siyasi islahatları ölkənin hərtərəfli tərəqqisinin təminatçısıdır

**İkinci Qarabağ müharibəsindəki şanlı Zəfər regionda yeni reallıqların formalaşması ilə yanaşı, ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən idarəetmə sistemində də mühüm dəyişikliklərin tətbiqinə real zəmin yaratmışdır.**

Qlobalmiqyaslı təşəbbüsləri, mütərəqqi siyasi-iqtisadi islahatları, sosial layihələri ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev yaranmış yeni reallıqlar fonunda müasir idarəetmə modelini dəyərləndirərək ilk növbədə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının zamanın tələblərinə uyğun hərtərəfli tərəqqisi naminə modern siyasi islahatların təməlini formalaşdırdı.

Bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində İlham Əliyev müvafiq məsələyə toxunaraq vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən yanaşma, eyni zamanda yeni idarəetmə mexanizmi bütün ölkəni əhatə edəcək: "İndi biz yeni idarəetmə modeli üzərində işləyirik. Əlbəttə, kadr potensialı çox önəmlidir. Həmçinin eyni zamanda azad edilmiş torpaqlarda daha çevik, daha operativ, bürokratiyaya, xoşagəlməz hallara qurşanmamış yeni strukturlar yaradılıb. Yəni bu təcrübəni biz sonra tədricən ölkəmizin digər hissələrinə keçirəcəyik".

Ümumiyyətlə, İlham Əliyev tərəfindən həyata keçirilən genişmiqyaslı islahatlar, o cümlədən kadr islahatları cəmiyyət həyatı üçün böyük əhəmiyyət kəsb edir. Çünki hansı sahədə kadr islahatları aparılırsa, o sahədə pozitiv dəyişikliklər baş verir və bu da vətəndaşlar tərəfindən rəğbətlə qarşılanır. Şübhəsiz ki, müasir dövrün çağırışlarına cavab verən bu islahatlar ölkəmizin ümumi inkişafına, məmur-vətəndaş münasibətlərinin sağlam ruhda qurulmasına xidmət edir. Hələ illər öncə Azərbaycanda kadr islahatlarına ehtiyacın olduğunu deyən İlham Əliyev bu prosesləri dəyərləndirərkən vurğulayırdı ki, islahatlar təkmilləşmə, yeni dövrə uyğunlaşma deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilib. Əlbəttə ki, Azərbaycanda da gedən çoxşaxəli islahatlar, o cümlədən idarəetmə sahəsində yeniliklər, həmçinin kadr islahatları dövlətin siyasətini və niyyətini göstərir.

Yeni idarəetmə modeli də Azərbaycan Prezidentinin mütərəqqi islahatlarının tərkib hissəsidir. Belə ki, İlham Əliyev işğaldan azad edilmiş rayonlara xüsusi nümayəndələrini təyin edir və həmin şəxsləri qəbul edərək tapşırıqlarını, göstərişlərini verir.

→ 2

# Prezident deputata qarşı törədilmiş terror aktı ilə bağlı hüquq-mühafizə orqanlarına göstəriş verdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tapşırığına əsasən, Prezidentin köməkçisi Anar Ələkbərov martın 28-də yaşadığı evin qarşısında terror aktına məruz qalmış Milli Məclisin deputatı Fazil Mustafanı bu gün müalicə olunduğu xəstəxanada ziyarət edib, onun ailə üzvləri ilə görüşüb.**

Millət vəkilinə dövlətimizin başçısının və birinci xanımın şəfa diləklərini çatdıran Anar Ələkbərov bildirib ki, Prezident İlham Əliyev onun tezliklə sağalması üçün tibb personalı tərəfindən bütün zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verib. Diqqətə çatdırılıb ki, xain terror aktını törətmiş şəxsin və ya şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması istiqamətində təxirəsalınmaz əməliyyat-istintaq tədbirlərinin aparılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən hüquq-mühafizə orqanlarına göstəriş verilib.

Milli Məclisin deputatı Fazil Mustafa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya göstərilən diqqət və qayğıya görə dərin minnətdarlığını bildirib, hadisənin onu sarsıtmadığını vurğulayaraq, həmişə olduğu kimi, bundan sonra da dövlətçilik ideyalarına sadiq qalacağını və heç nəyin onu bu yoldan çəkindirə bilməyəcəyini deyib.

*Prezidentin Mətbuat Xidməti*

# Artıq İsraildə də səfirliyimiz var

**Dünən İsraildə Azərbaycan səfirliyinin rəsmi açılış mərasimi keçirilib. İsraildə ölkəmizin ilk diplomatik nümayəndəliyinin açılışı tarixi hadisədir. Bu həmçinin iki ölkə arasında etibarlı dostluğun və strateji tərəfdaşlığın nəticəsi kimi dəyərləndirilir.**

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatlar bildirdilər ki, Azərbaycanla İsrail arasında dostluq və qarşılıqlı əməkdaşlıq münasibətləri bundan sonra daha da möhkəmlənəcək.

### Diplomatik münasibətlərdə yeni səhifə açılır

Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib ki, Azərbaycan-İsrail dostluğu uğurlu xarici siyasətimizin, eləcə də multikultural dəyərlərimizin və tolerantlığımızın göstəricisidir: "İsrail dünyanın inkişaf etmiş və nüfuzlu ölkələrindən biridir.

→ 5

## Heydər Əliyev İli - 2023

# Tarixin Heydər Əliyev zirvəsi

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra respublikamızın daxil olduğu inkişaf yoluna bu prizmadan nəzər saldıqda görürük ki, həyata keçirilən dövlət quruculuğunun əsas elementlərindən biri dövrün tələb və çağırışlarından irəli gələrək hüquqi sistemin tamamilə yenilənməsi olmuşdur. Ulu Öndərin bu sahədə həyata keçirdiyi islahatlar isə həm mükəmməl hüquqi bazanın formalaşdırılmasını, həm də bu sahədə müvafiq dövlət qurumlarının fəaliyyətinin yenidən qurulmasını, onların işinin təkmilləşdirilməsini əhatə etmişdir.



→ 4

# Açıq və demokratik siyasi rəqabətə çağırış

### Prezident İlham Əliyevin siyasi dialoq təşəbbüsləri müxalifət partiyaları tərəfindən təqdir edilir

"Müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu çox müsbət haldır. Ancaq eyni zamanda bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır".

→ 6

# İran Azərbaycana düşmən münasibəti göstərir

İranın Azərbaycana olan düşmən münasibəti bu günün, dünənin işi deyil. Azərbaycan müstəqilliyini elan edən gündən molla rejimi ölkəmizin varlığını özünə ən ciddi təhdid hesab etdiyindən bizə qarşı ciddi mübarizə aparmağa başlayıb.

Birinci Qarabağ savaşında İranın Hayastana hər cür hərbi dəstək verməsi, hətta SEPAH silahlılarının ermənilər tərəfindən döyüşməsi barədə məllumatlar ortalıqda idi. Torpaqlarımız işğal olunduqdan sonra azərbaycanlılara məxsus evlərin, tikililərin sökülərək İranın inşaat materialları bazarında satılmasını heç kim inkar edə bilməz. Uzun illər İranın Hayastanla dostluğunu, qardaşlığını, onların bir məqsəd uğrunda çəkici bir zindana vurduqlarını bilməyən yoxdur. Amma məsələ burasındadır ki, "ayətullah"lar düşmənçiliklərini bir qədər üstüörtülü, pərdəli şəkildə apardıqlarından indiki qədər açıq-aydın hiss olunmurdu.

→ 8

# İrəvanın şərtləri qəbul etməkdən başqa yolu yoxdur

### Sülh prosesinə qarşı direniş və təxribatçılıq Hayastanın özünə baha başa gəlir

Azərbaycan sülh gündəliyinə tam sadiqdir, Ermənistanla münasibətlərin normallaşdırılmasına və tezliklə sülh müqaviləsinin imzalanmasına hazırdır və son təklif və düzəlişlərinin olduğu sülh müqaviləsinin mətnini Hayastan tərəfinə təqdim edib. Bunu Prezident İlham Əliyev martın 21-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı bildirib.

44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Azərbaycanın yaranmış yeni reallıqlar müstəvisində prioritet məqsədi regionda sabitliyin təmin olunması və bu məqsədlə Hayastanla sülh müqaviləsinin imzalanmasıdır.



→ 7

# Ermənistanda əbədiyaşarlıq rəmzi olan tarixi-mədəni abidələrimiz dağıdılıb

### Qərbi Azərbaycan İcmasının UNESCO-nun baş direktoruna ünvanladığı məktub BMT-nin rəsmi sənədi kimi yayılıb

Prezident İlham Əliyev Novruz bayramı ərəfəsində Tərtər rayonunun Talış kəndində olarkən Azərbaycan xalqına müraciətində deyib:

"Beynəlxalq müstəvidə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfələrini verən, multikultural dəyərləri ilə seçilən, birgə yanaşı yaşamaq modelini nümayiş etdirən, müasirləşən və modernləşən Azərbaycan milli-mənəvi dəyərlərinə də böyük diqqət və həssaslıqla yanaşır. Azərbaycan abidələri, milli əxlaqi dəyərləri, mədəniyyəti ilə yüksək məfkurəyə malik olduğunu bir daha nümayiş etdirir.

→ 7

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, № 10, maddə 1125; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 622-VIQD nömrəli, 29 noyabr tarixli 656-VIQD nömrəli, 2 dekabr tarixli 666-VIQD və 671-VIQD nömrəli, 9 dekabr tarixli 681-VIQD nömrəli və 30 dekabr tarixli 789-VIQD nömrəli qanunları) 24.1.2-ci, 24.1.3-cü, 24.2-ci, 24.3-cü, 24.4-cü, 24.5-ci və 24.6-cı maddələri ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2023-cü il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

---

## Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30, № 5, maddə 814, № 8, maddə 1383; 2020, № 5, maddə 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1438; 2021, № 11, maddə 1204, № 12, maddə 1315; Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 678-VIQD nömrəli, 27 dekabr tarixli 774-VIQD nömrəli və 30 dekabr tarixli 789-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.0.22-ci maddə ləğv edilsin;

1.2. 234-cü maddə üzrə:

1.2.1. adından "və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının" sözləri çıxarılsın;

1.2.2. 234.2-ci maddə ləğv edilsin;

1.3. 244.5-ci maddədən ", icazə blankına görə dövlət rüsumu isə xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri gömrük ərazisinə daxil olan zaman gömrük sərhəd buraxılış məntəqələrində" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2023-cü il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

---

## Ağsu rayonunun Ağsu-Kürdəmir-Bəhrəmtəpə (19 km)-Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Ağsu-Kürdəmir-Bəhrəmtəpə (19 km)-Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.3-cü yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 7,8 milyon (yeddi milyon səkkiz yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2023-cü il*

---

## 2023 "Formula-1" Azərbaycan Qran-pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 2023 "Formula-1" Azərbaycan Qran-pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2023-cü il aprelin 1-dən mayın 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. "Formula-1" yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula OneManagement-Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2023 "Formula-1" Azərbaycan Qran-pri yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2023 "Formula-1" Azərbaycan Qran-pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula OneManagementLimited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2023 "Formula-1" Azərbaycan Qran-pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2023 "Formula-1" Azərbaycan Qran-pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2023-cü il*

---

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832; Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 644-VIQD, 650-VIQD, 654-VIQD və 659-VIQD nömrəli, 2 dekabr tarixli 670-VIQD nömrəli, 9 dekabr tarixli 677-VIQD nömrəli, 20 dekabr tarixli 705-VIQD nömrəli, 27 dekabr tarixli 763-VIQD nömrəli və 30 dekabr tarixli 780-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 209-cu maddədə "həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident" sözləri "Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən" sözləri ilə əvəz edilsin;

1.2. 210-cu maddəyə "daxil olan" sözlərindən sonra ", Azərbaycan Respublikasının ərazisindən tranzit keçən" sözləri əlavə edilsin;

1.3. 211-ci maddə üzrə:

1.3.1. 211.1-ci maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"211.1. Avtonəqliyyat vasitələrinin növündən, mühərriklərinin həcmindən, Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən, oturacaqlarının sayından, oxlarının sayından və avtonəqliyyat vasitəsinin yüklə birlikdə ümumi çəkisindən, Azərbaycan Respublikası ərazisində qət edilən məsafədən asılı olaraq Azərbaycan Respublikasının ərazisinə daxil olan, Azərbaycan Respublikasının ərazisindən tranzit keçən və Azərbaycan Respublikasının ərazisini tərk edən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrindən, habelə Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi aşağıdakı dərəcələrlə hesablanır:";

1.3.2. 211.1.1-ci maddəyə "daxil olan" sözlərindən sonra ", Azərbaycan Respublikasının ərazisindən tranzit keçən" sözləri əlavə edilsin və həmin maddədən "bu Məcəllənin 211.1.1-ci maddəsinə uyğun olaraq" sözləri çıxarılsın;

1.4. 211.2-ci maddədən "38 tondan 41 tonadək olduqda - 0,15 ABŞ dolları;" sözləri çıxarılsın;

1.5. 211.3-cü maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2023-cü il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

---

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 2008-ci il 11 noyabr tarixli 12 nömrəli, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və Komitənin strukturunun təsdiq edilməsi barədə" 2012-ci il 4 iyun tarixli 646 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli və "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 828-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 968; 2009, № 2, maddə 68; 2017, № 8, maddə 1521; 2018, № 5, maddə 905; 2019, № 6, maddə 1031; 2022, № 5, maddə 470; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 fevral tarixli 2037 nömrəli Fərmanı) 4.3-cü bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540; 2013, № 12, maddə 1552; 2014, № 1, maddə 14; 2015, № 6, maddə 699; 2016, № 9, maddə 1487, № 10, maddə 1626; 2017, № 12 (I kitab), maddə 2333; 2018, № 7 (I kitab), maddə 1487; 2019, № 6, maddə 1031; 2020, № 2, maddə 97, № 6, maddə 702; 2022, № 7, maddə 742, № 8, maddə 871, № 11, maddə 1268; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 fevral tarixli 2037 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 3.1.28-ci yarımbəndi ləğv edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027, № 11, maddə 1702, № 12, maddə 1929; 2020, № 3, maddə 231, № 4, maddə 407, № 8, maddə 1044; 2021, № 6 (I kitab), maddə 593, № 12, maddələr 1356, 1430; 2022, № 5, maddə 459, № 11, maddə 1264) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.14-cü yarımbəndindən "(xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə "İcazə" blanklarının dövlət sərhədinin buraxılış məntəqələrində verildiyi hallar istisna olmaqla)" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin 5.1.9-cu yarımbəndindən "(xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə "İcazə" blanklarının dövlət sərhədinin buraxılış məntəqələrində verildiyi hallar istisna olmaqla)" sözləri çıxarılsın.

5. Bu Fərman 2023-cü il martın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2023-cü il*

---

# Zəfərin yaratdığı yeni idarəetmə modeli

## İlham Əliyevin müasir idarəçiliyə xidmət edən siyasi islahatları ölkənin hərtərəfli tərəqqisinin təminatçısıdır

*Əvvəli 1-ci səh.*

Bir müddət sonra isə verdiyi tapşırıqların icrası ilə maraqlanmaq üçün həmin rayonlara səfər edib mövcud vəziyyətlə yerində tanış olur. Ona görə də deyə bilərik ki, Prezidentin rayonlara təyin etdiyi xüsusi nümayəndələrlə görüşlər keçirməsi və onlara tapşırıqlarını verməsi ölkənin hərtərəfli inkişafında əsas rol oynayan bölgələrin tərəqqisi ilə yanaşı, vətəndaş amilinə verilən yüksək dəyəri nümayiş etdirir.

Martın 28-də İlham Əliyevin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonuna təyin etdiyi xüsusi nümayəndəsi Məsim Məmmədova tapşırıq və göstərişlərini verməsi və eyni zamanda yeni idarəetmə modelinin tətbiqini dəyərləndirməsi də deyilənlərin əyani təzahürüdür. Prezident bildirdi ki, dövlət öz üzərinə düşən vəzifəni icra edir. Demək olar ki, indi işğaldan azad edilmiş əksər rayonlarda (hələlik Kəlbəcər rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndələri fəaliyyət göstərirlər.

Prezident həmçinin yeni idarəetmə modelinin tətbiqi məsələsinə də toxunaraq vurğuladı ki, artıq hər bir sahədə yeni idarəetmə üsulu tətbiq edilməlidir və edilir. Gələcəkdə bu, yeni idarəetmə modeli kimi ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir: "Yəni bu həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur. Əminəm ki, bu təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir".

Prezidentin verdiyi tapşırıqarın uğurlu icrası, işğladan azad edilən ərazilərdə aparılan yenidənqurma işləri də göstərir ki, xüsusi nümayəndəlik modeli indiki gerçəklikdə uğurlu üsuldur. Bütün bunlar isə İlham Əliyevin islahatlarının mükəmməlliyinin göstəricisidir desək, yanılmarıq. Çünki idarəçilik sisteminin zamanın tələblərinə uyğun təkmilləşdirilməsi gələcəyə daha böyük inamla addımlamağa, yeni-yeni hədəflərin müəyyənləşdirilməsinə əsas verir. Azərbaycan Prezidentinin mütərəqqi islahatları ölkəmizin dinamik inkişafının gətirdiyi yeni keyfiyyət mərhələsində baş tutur və kompleks xarakter daşıyır.

Hazırda azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. İşğaldan azad edilmiş ərazilərimizdə yeni idarəetmə üsulunun tətbiqi isə işin səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynayır. Prezidentin söylədiyi kimi, yeni model gələcəkdə təkcə azad edilmiş ərazilərin yox, ölkəmizin hərtərəfli inkişafına mühüm töhfəsini verəcək.

Dövlət idarəçiliyi sistemini daim təkmilləşdirən və bu istiqamətdə düşünülmüş addımlar atan İlham Əliyev, əlbəttə ki, bu qərarları verərkən ilk növbədə xalqın və dövlətin maraqlarını, milli mənafeləri nəzərə alır. Bütün islahatlar, yeniliklər Azərbaycanın daha da qüdrətlənməsini şərtləndirir.

Bütün bunları həm ölkə ictimaiyyəti, həm də beynəlxalq təşkilatlar görürlər. Ona görə də hazırlanan hesabatlarda Azərbaycanda sosial-iqtisadi islahatların uğurla aparıldığı qeyd olunur. Dünya Bankının "Doing Business" hesabatında da Azərbaycanın dünyanın ən çox islahat aparan 20 ölkəsindən biri kimi qeyd edilməsi, aparılan rəy sorğularında əhalinin mütləq əksəriyyətinin Prezident İlham Əliyevi - islahatların rəhbərini dəstəkləməsi söylənilənlərin real təsdiqidir.

Bir sözlə, ən islahatçı Prezidentin verdiyi qərarlar Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verir. İslahatlara şahidlik edən ölkə ictimaiyyəti də dövlət idarəetmə sistemində həyata keçirilən yenilikləri təqdirəlayiq hal kimi qiymətləndirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov ilə Türkiyənin Vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub

Martın 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı iki ölkə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib.

Dövlət başçılarının tapşırıqlarının icrası məqsədilə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya çərçivəsində həyata keçirilən işlərin gedişi barədə fikir mübadiləsi aparılıb.



Eyni zamanda Azərbaycan-Türkiyə qarşılıqlı faydalı əməkdaşlığının müxtəlif sahələrdə perspektivləri müzakirə olunub.

F.Oktay Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində görülən işlər və bərpa-quruculuq tədbirləri barədə məlumat verib.

# Baş nazir Əli Əsədov Rusiya Prezidenti yanında sahibkarların hüquqlarının müdafiəsi üzrə müvəkkil ilə görüşüb

Martın 29-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Prezidenti yanında sahibkarların hüquqlarının müdafiəsi üzrə müvəkkil Boris Titov ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Rusiya qarşılıqlı münasibətlərinin hərtərəfli inkişaf etməsi qeyd olunub.

Azərbaycanda əlverişli investisiya mühitinin mövcudluğu müsbət qiymətləndirilib, Rusiya biznesinin ölkəmizdə geniş təmsil olunmasından məmnunluq bildirilib.



Tərəflər iki ölkənin işgüzar dairələri arasında əlaqələrin genişləndirilməsinin və qarşılıqlı işgüzar missiyaların davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə həmçinin ticari-iqtisadi, investisiya və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri də müzakirə olunub.

# Dərman vasitələrinin qeydiyyata alınması ilə bağlı qanun layihəsi plenar iclasa tövsiyə olunub

Martın 29-da Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib.

İclası açan Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov gündəliyə iki məsələ daxil edildiyini bildirib. Qeyd edib ki, bunlar "Dərman vasitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) və cari məsələlərin müzakirəsidir.



Sonra çıxış edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsində 3 istiqamətdə dəyişikliklərin təklif edildiyini bildirib. 1-ci istiqamət üzrə (1.0.25-ci, 6-1.2-ci və 9.5-ci maddələr) təklif olunan dəyişikliyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dərman vasitələrinin ekspertizasının hansı hallarda aparılmasını müəyyən etdikdən sonra həmin hallar nəzərə alınaraq, Azərbaycan Respublikasına dərman vasitələrinin idxalını müvafiq icra hakimiyyəti orqanı, istehsal və ya topdansatış əczaçılıq fəaliyyəti ilə məşğul olan müəssisələr həyata keçirirlər.

İkinci istiqamət üzrə dəyişiklik qanunun 6.6-cı maddəsini əhatə edir. Təklifə əsasən, "müxtəlif dərman vasitələrinin eyni əmtəə nişanı adı altında (eyni istehsalçının (və ya həmin istehsalçının lisenziyası əsasında istehsal olunmuş) eyni əmtəə nişanı adı altında, lakin təsiredici maddənin dozası, farmasevtik forması, ticarət qablaşdırması və ya qablaşdırma miqdarı fərqli olan dərman vasitələri istisna olmaqla) dövlət qeydiyyatına alınmasına yol verilmir". Layihədə 3-cü istiqamət üzrə təklif olunan dəyişiklikdə isə texniki xarakterli düzəlişlər öz əksini tapıb.

Sonra Əhliman Əmiraslanov layihə ilə bağlı fikirlərini bölüşüb. O, sənədi parlamentin Səhiyyə komitəsini də həmişə narahat edən bir məsələnin həlli - ölkəyə gətirilən dərman vasitələrinin qeydiyyatının sadələşdirilməsi və asanlaşdırılması istiqamətində irəliyə atılan mühüm addım kimi dəyərləndirib. Diqqətə çatdırılıb ki, dəyişikliyə əsasən, ölkədə dərman preparatının hər hansı bir forması qeydiyyatdan keçibsə, həmin preparatın digər həb, suspenziya, məhlul kimi digər formaları da qeydiyyatdan keçmiş sayılır və onları da əlavə icazə almadan idxal etmək olar. Dərmanların keyfiyyəti, təminatı və qiyməti kimi aktual məsələlərə toxunan Əhliman Əmiraslanov dərman vasitələri ilə bağlı hökumət tərəfindən müvafiq layihə hazırlandığını diqqətə çatdırıb. O, qazilərin, şəhid ailəsi üzvlərinin və aztəminatlı vətəndaşların ambulator müalicəsində dərmanlarla təminatı ilə bağlı fikirlərini səsləndirib.

Qanun layihəsinin müzakirəsində Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitə üzvləri Müşfiq Məmmədli, Kamilə Əliyeva, Kəmaləddin Qafarov, Soltan Məmmədov, İlham Məmmədov və Sədaqət Vəliyeva təklif olunan dəyişikliklərlə bağlı fikirlərini bildirib, suallarını səsləndiriblər.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda cari məsələlərin müzakirəsi keçirilib. Deputatlar komitədə dinləmələrin keçirilməsi vaxtı və hazırlığı, həmçinin səhiyyənin bəzi aktual məsələləri ilə bağlı fikir mübadiləsi aparıblar.

*"Azərbaycan"*

# İcazəsiz tikililərin enerji şəbəkəsinə qoşulmasının qarşısı alınır

Martın 29-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin videokonfrans formatında iclası keçirilib. Komitə sədri Sadiq Qurbanov gündəliyə birinci oxunuşda üç məsələnin daxil edildiyini bildirib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata əsasən, komitə sədri müzakirəyə çıxarılan "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş), "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələri ilə bağlı məlumat verib.

Diqqətə çatdırılıb ki, adıçəkilən qanunlara eyni mahiyyətli dəyişikliklərin edilməsi nəzərdə tutulub. Həmin qanunların müvafiq maddələrinə təklif olunan əlavələrə görə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə, onların qaz qurğularının qazpaylayıcı şəbəkəsinə, habelə su təchizatı və kanalizasiya şəbəkələrinə qoşulması qadağandır.

Komitə üzvləri İltizam Yusifov, Məşhur Məmmədov, Nəsib Məhəməliyev, Əliabbas Salahzadə, Afət Həsənova, Mixail Zabelin, parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış edərək qanun layihələrinin əhəmiyyətindən danışıblar, düzəlişlərin məqsədəmüvafiq olduğunu bildiriblər. Millət vəkilləri təqdim olunan sənədlərin qanunsuz tikililərin qarşısının alınmasına xidmət edəcəyini söyləyiblər.

Müzakirələrin sonunda hər üç qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitənin sədri və üzvləri Milli Məclisin deputatı Fazil Mustafaya qarşı törədilən terror hadisəsi barədə fikirlərini açıqlayıblar. Deputatlar bu hadisəni pisləyərək, onun araşdırılacağına, terror aktını törədənlərin müəyyən ediləcəyinə və layiqli cəzalarını alacaqlarına əminliklərini ifadə ediblər.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin aprel ayında vətəndaşların qəbulu

## CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 5,19 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 6 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 7,14,20 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 25 |
| Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi **Kərimov Aydın Zöhrab oğlu** | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 28 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı mərkəzi - 1111.**

# Kahramanmaraşda fəaliyyət göstərən hərbi tibb personalımız təltif edilib

Türkiyədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərmək məqsədilə qardaş ölkəyə ezam olunmuş Azərbaycan Ordusunun hərbi tibb personalı müdafiə nazirinin müvafiq əmrinə əsasən təltif olunub. Martın 29-da Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında hərbi qulluqçuların təltif olunması mərasimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra müdafiə naziri general-polkovnik Zakir Həsənovun tibb personalının təltif olunması ilə bağlı müvafiq əmri oxunub.

Tibb İdarəsinin rəisi Firudin Nəbiyev çıxış edərək bildirib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Türkiyəyə ezam olunan tibb heyətimizin fəaliyyəti qardaş ölkədə də yüksək qiymətləndirilib. Hərbi tibb personalımız Kahramanmaraşda Türkiyə Səhiyyə Nazirliyinin və Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə, ümumilikdə 81 cərrahi əməliyyat icra edib, 517 nəfərə ambulator yardım göstərib.

Çıxışlarda hərbi həkimlərimizin Vətən müharibəsində də peşəkarlıq nümayiş etdirdikləri və Azərbaycan Prezidenti, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirildikləri xüsusi vurğulanıb.

Sonda ümumi cərrah, travmatoloq, LOR-cərrah, oftalmoloq, neyrocərrah, revmatoloq, anestezioloq, plastik-rekonstruktiv cərrah, feldşer, əməliyyat tibb bacıları və anestezistlər olmaqla, Azərbaycan Ordusunun 20 nəfərlik hərbi tibb personalına növbəti hərbi rütbə, medal və fəxri fərmanlar təqdim edilib.



# Heydər Əliyev İli 2023

# Əbədiyyət rəmzi



**Bəşər tarixinin hər bir mərhələsində özünün təsdiqini tapan faktorlardan biri siyasi lider amilinin dövlətlərin və xalqların taleyində böyük rol oynamasıdır. İnsanları milli amallar və dövlətçilik idealları ətrafında birləşdirməyi bacaran liderlər tarixin axarı ilə getməmiş, işıqlı əməlləri, yüksək siyasi dünyagörüşləri və vətən sevgiləri ilə öz ölkələrinin qürur salnamələrini yaratmış və təmsil etdikləri xalqların böyük şəxsiyyətlərinə çevrilmişlər.**

Anadan olmasının 100-cü ildönümü ərəfəsində xatirəsini böyük minnətdarlıq hissi ilə qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin də adı məhz belə cahanşümul insanlar, öz xalqının tarixini yaradan böyük liderlər, əbədiyaşarlıq qazanmış şəxsiyyətlər cərgəsində yer alır. Heydər Əliyevin timsalında Azərbaycan xalqı bəşər tarixinə öz imzasını həkk edən dahi bir şəxsiyyət yetirmişdir. Doğma xalqının önündə cəsarətlə addımlayan Heydər Əliyev dövlətçiliyimizin banisi, millətin böyük öndəri kimi ali bir zirvəyə ucalmışdır.

## Milli məfkurəyə sadiqliyin və vətən sevgisinin təcəssümü

Heydər Əliyev elə bir dühadır ki, onun fəaliyyətinə nəzər salanda Azərbaycanın böyük bir tarixi epoxası barədə fikir yürütmək olur. Başqa cür desək, Heydər Əliyev elə bir zirvədir ki, onun ucalığından müasir Azərbaycanın yüksəlişi, intibahı, müstəqilliyi, qüdrətli dövlətçiliyi, xalqımızın milli həmrəyliyi, həmçinin böhrandan inkişafa, xaosdan tərəqqiyə keçid aydın görünür. Ulu Öndərin sovet hakimiyyəti dövründə və müstəqillik illərində respublikamıza rəhbərliyi məhz cəmiyyəti narahat edən problemlərə son qoyulması, tənəzzülün, geriləmənin, nöqsanların qarşısının alınması, inkişafın təmin olunması və ən əsası sarsılmaz müstəqilliyimizin, qüdrətli dövlətçiliyimizin etibarlı təməllərinin yaradılması ilə əlamətdar olub.

Ona görə Heydər Əliyevin həm sovet illərində, həm müstəqillik dövründə Azərbaycana rəhbərliyə başlaması tariximizin dönüş nöqtəsi kimi də nəzərdən keçirilir. Birinci mərhələdə Azərbaycanın öz iqtisadi göstəricilərinə görə keçmiş ittifaqın geridə qalmış ölkələri sırasından qabaqcılları cərgəsinə çıxmasına nail olan Heydər Əliyev özünün müdrik rəhbərliyi ilə xalqımızı nəinki sovetlər birliyinə, bütün dünyaya tanıtdı. Sovet dövlətinin sərt ideoloji tələblərinin hakim olduğu bir şəraitdə Heydər Əliyevin həyata keçirdiyi tədbirlər xalqımızın milli oyanışına yol açdı, milli-mənəvi dəyərlərimizin unudularaq itirilməsinin qarşısını aldı.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövrü həm də respublikamızda qanunçuluğun möhkəmləndirilməsi, hüquqi islahatlar çərçivəsində xalqımızın milli maraqlarının təmin olunması ilə əlamətdardır. İnkişaf hədəflərini düzgün müəyyənləşdirən Ulu Öndər buna uyğun olaraq korrupsiya əməllərinin, o cümlədən rüşvətxorluğun qarşısının alınması üçün sərt tədbirlər həyata keçirdi. Təbii ki, bu tədbirlər respublikamızda inkişafa maneçilik yaradan buxovların qırılıb atılmasına, cəmiyyətimizin mənəvi sağlamlığının təmin olunmasına uğurla xidmət etdi, müsbət nəticələri oldu.

Hüquqi islahatlar çərçivəsində isə yalnız bir məqamı - 1978-ci ildə qəbul edilən Azərbaycan SSR-nin Konstitusiyasında yer alan müddəaları misal çəkməklə Ulu Öndərin nümunəsində dövlətə və xalqa layiqli xidmətin ali nümunəsini göstərə bilərik. Sovet dövlətinin xalqları öz keçmişlərindən, ənənələrindən, tarixlərindən uzaqlaşdırmağa yönəlik siyasət yürütdüyü, milli dəyərləri unutdurmağa çalışdığı bir dövrdə qəbul edilən Azərbaycan SSR-nin Konstitusiyasında yer alan məqamlar milli və mənəvi dəyərlərimizin qorunması üçün hüquqi əsasları daha da gücləndirdi. Bu sırada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması Heydər Əliyevin sovet illərində xalqımız qarşısındakı xidmətlərinin ən möhtəşəm nümunələrindən biridir.

Xalqımızın dahi övladının 1982-ci ilin noyabr ayında Sovet İttifaqının siyasi kursunu müəyyənləşdirən ən ali orqana - Siyasi Büroya üzv seçilməsi, həmçinin həmin ərəfədə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması onun Azərbaycana uğurlu rəhbərliyinin nəticəsi idi. Eyni zamanda Ulu Öndərin SSRİ kimi fövqəldövlətin rəhbərləri sırasında yer alması onun dövlət xadimi kimi səriştəsinin, təcrübəsinin, ən əsası, nüfuzunun ittifaq miqyasında etiraf olunması idi. Ümummilli Liderin siyasi karyerasının bu yüksəlişi həm də xalqımızın möhtəşəm nailiyyəti idi. Çünki bu vəzifədə Heydər Əliyev bir azərbaycanlı kimi öz xalqını ali zirvədə təmsil edirdi. Bu dövrdə SSRİ kimi böyük bir dövlətin mühüm iqtisadi və sosial sferalarını kurasiya edən Heydər Əliyev doğma vətəninə də yetərincə diqqət ayırırdı.

## Xilaskar lider

Sovet illərində özünün müdrik rəhbərliyi sayəsində Azərbaycanın iqtisadi inkişafına və milli intibahına nail olan,

# Tarixin Heydər Əliyev zirvəsi

həyata keçirdiyi tədbirlərlə respublikamızın etibarlı gələcəyinin möhkəm təməllərini yaradan Heydər Əliyev sonrakı dövrdə də xalqımızı çətin sınaqlardan, böhranlardan layiqincə çıxarmış, öz əməlləri ilə tariximizin növbəti şərəfli səhifələrini yazmışdır. Bu baxımdan, ilk növbədə, onu qeyd etmək yerinə düşər ki, 1987-ci ilin sonlarına yaxın M.Qorbaçovun yürütdüyü siyasətə etiraz edərək bütün vəzifələrindən istefa verən Heydər Əliyev həmin dövrdə də öz xalqının yanında olmuş, xüsusən Naxçıvanda həyata keçirdiyi siyasi fəaliyyətlə milli-azadlıq hərəkatının daha da güclənməsinə layiqli töhfələrini vermişdir. Bu illərdə Heydər Əliyevin liderliyi və təşəbbüsü ilə Naxçıvanda üçrəngli bayrağımızın dövlət bayrağı elan olunması, ilk dəfə 20 Yanvar hadisələrinə dəqiq siyasi-hüquqi qiymətin verilməsi, SSRİ-nin saxlanılması ilə bağlı referendumun muxtar respublikada boykot edilməsi Ulu Öndərin qətiyyətinin və vətənpərvərliyinin göstəriciləri kimi tariximizin böyük siyasi hadisələridir. Məhz Heydər Əliyevin bu kimi cəsarətli addımları xalqımızın milli-azadlıq mücadiləsini yeni mərhələyə yüksəltmiş, müstəqilliyimizə gedən yolumuza işıq salmışdır.

Ağır və gərgin təbəddülatlarla dolu 1993-cü ildə müstəqilliyimizin və dövlətçiliyimizin xilas edilməsi isə Heydər Əliyevin uzaqgörən və parlaq siyasi zəkasının, vətən sevgisinin növbəti və tarixi təcəssümü oldu. Həmin günləri yaxşı xatırlayırıq: bir tərəfdən torpaqlarımızı işğal edən Ermənistanın genişlənən hücumları, bir tərəfdən də antiazərbaycançı qüvvələrin təhriki ilə separatçılığın baş qaldırması respublikamızı uçuruma, məhvə doğru aparırdı. Ən acınacaqlısı o idi ki, həmin dövrdə hakimiyyətdə olan və yaranmış böhrana görə məsuliyyət daşıyan siyasi qruplar ölkəni xilas etməkdə aciz idilər.

Amma bütün cəmiyyətə həm birləşdirici, həm də ümidləri itməyə qoymayan güclü bir hiss də hakim idi. Bu hiss Ulu Öndər Heydər Əliyevə olan inamdan irəli gəlirdi. Bütün xalq, hətta hakimiyyətdə olan siyasi qruplar da bilirdilər ki, respublikamızı düşdüyü dərin böhrandan, üzləşdiyi təhlükələrdən yalnız görkəmli dövlət xadimi Heydər Əliyev xilas edə bilər. Bu mənada həmin gərgin günlərdə Heydər Əliyevə ünvanlanan müraciətlər Ulu Öndərə olan ümumxalq inamının göstəricisi idi. Xalqımızın dahi oğlu o ağır günlərdə öz siyasi təcrübəsinə, uzaqgörənliyinə söykənərək böyük qətiyyətlə özünün xilaskarlıq missiyasını yerinə yetirdi. Ulu Öndərin sayəsində Azərbaycanın dövlət müstəqilliyinin əbədi olması layiqincə təmin edildi, dövlətçiliyimiz qorundu.

Beləliklə, sovetlər dövründə Azərbaycanın intibahını təmin edən Ulu Öndər Heydər Əliyev müstəqillik illərində müasir Azərbaycan dövlətinin banisinə çevrildi. Öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrilən Heydər Əliyevin müəllifliyi ilə ötən əsrin 90-cı illərinin ortalarından etibarən müstəqillik salnaməmizin şərəfli səhifələrinin yazılmasına başlanıldı. Ulu Öndər özünün zəngin siyasi təcrübəsi ilə müasir dövlətçiliyimizin etibarlı təməllərini yaratdı, respublikamızı beynəlxalq hüququn tamhüquqlu üzvünə çevirdi. Həyata keçirilən məqsədyönlü islahatlarla cəmiyyət həyatının bütün sahələrində inkişafın, hüquqi dövlət quruculuğunun əsası qoyuldu. Qısa zaman ərzində Ulu Öndərin həll etdiyi problemlər həm də Azərbaycana beynəlxalq miqyasda olan etimadı gücləndirdi və bunun məntiqi nəticəsi kimi Heydər Əliyevin milli inkişaf strategiyasının əsas sütunlarından olan "Əsrin müqaviləsi" imzalandı.

Hər bir dövlətin uğurlarının təməlində mütərəqqi siyasi kurs və təkmil idarəçiliklə yanaşı, bir sıra müxtəlif amillər, o cümlədən mükəmməl hüquq sisteminin mövcudluğu dayanır. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra respublikamızın daxil olduğu inkişaf yoluna bu prizmadan nəzər saldıqda görürük ki, həyata keçirilən dövlət quruculuğunun əsas elementlərindən biri dövrün tələb və çağırışlarından irəli gələrək hüquqi sistemin tamamilə yenilənməsi olmuşdur. Ulu Öndərin bu sahədə həyata keçirdiyi islahatlar isə həm mükəmməl hüquqi bazanın formalaşdırılmasını, həm də bu sahədə müvafiq dövlət qurumlarının fəaliyyətinin yenidən qurulmasını, onların işinin təkmilləşdirilməsini əhatə etmişdir.

Bütövlükdə, Heydər Əliyev hansı siyasi-ictimai və iqtisadi dövrdə respublikamıza rəhbərlik etməsindən asılı olmayaraq hər zaman öz vətəninin və xalqının yüksək rifahı üçün çalışıb. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli sərəncamında Ulu Öndərin respublikamız və xalqımız qarşısındakı tarixi xidmətləri ətraflı təhlil olunur. Sərəncamda qeyd olunduğu kimi, Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur: "Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir".

## Ulu Öndərin siyasi kursu davam edir, ideyaları həyata vəsiqə alır

Sərəncamda qeyd olunduğu kimi, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Heydər Əliyev elə bir siyasi kurs, elə bir bir inkişaf strategiyası müəyyənləşdirib ki, onların həyata keçirilməsi Azərbaycana yalnız yüksəliş və güclü dövlətçilik vəd edir. Bununla yanaşı, Heydər Əliyev həm də möhtərəm Prezident İlham Əliyevin timsalında özünün layiqli varisini, müəyyən etdiyi siyasi kursu davam etdirməyə qadir, qətiyyətli və milli dəyərlərə bağlı lider yetişdirmişdir. Təsadüfi deyil ki, 2003-cü ildə xalqımızı qarşıdan gələn prezident seçkilərində siyasi varisi İlham Əliyevi dəstəkləməyə çağıran Ulu Öndər inam hissi ilə bildirirdi ki, yekunlaşdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək.

Ötən 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir nailiyyət, Azərbaycanın keçdiyi dinamik inkişaf yolu, qlobal miqyasda söz sahibinə çevrilməsi bir daha Ulu Öndərin nə qədər müdrik və uzaqgörən olduğunu aydın şəkildə təsdiq edir. Bu illər ərzində cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycan öz inkişaf göstəriciləri ilə tarixinin ən qüdrətli dövrünə qədəm qoyub. Qürur hissi ilə qeyd etməliyik ki, bu gün respublikamız dünya birliyinin nüfuzlu, etimad göstərilən üzvü, regionun aparıcı dövlətidir. Bütün bunları təmin edən Prezident İlham Əliyevin adı isə dünyanın ən nüfuzlu siyasi liderləri ilə bir cərgədə çəkilir.

Heydər Əliyev yolunu qətiyyətlə, layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı inkişaf göstəricilərinə və hərbi gücünə əsasən tarixinin ən qüdrəti dövləti etməklə, Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad olunması üçün də münbit tarixi zəmin yaratdı. Beləliklə, 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfər, torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanın yüksəlişinin, qüdrətinin və Prezident İlham Əliyevin qətiyyətli siyasətinin təntənəsi oldu. Bu zəfərlə Prezident İlham Əliyev, həm də ata vəsiyyətini layiqincə yerinə yetirdi, Heydər Əliyevin ən böyük arzusunu həyata keçirdi. Ona görə Ulu Öndərin ruhu da rahatdır. Çünki onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri layiqli siyasi davamçısı kimi möhtərəm İlham Əliyev qətiyyətlə həll edir.

Vətən müharibəsindən sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Həm işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, həm də respublikamızda yeni iqtisadi və sosial inkişaf nümunələri yaradılır. Bütün bunlar bir daha təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin ideyaları həyata vəsiqə alır və ölkəmiz Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə daha böyük uğurlara doğru qətiyyətlə addımlayır.

*Zahid CƏFƏROV,*
*BDU-nun Hüquq fakültəsinin*
*Əmək və ekologiya hüququ*
*kafedrasının professoru,*
*hüquq elmləri doktoru,*
*YAP ərazi təşkilatının sədri*

**Müasir Azərbaycanın qurucusu olan Ulu Öndərimizin müəllifi olduğu azərbaycançılıq məfkurəsi dərin zəkaya, fenomenal istedada, unikal şəxsi keyfiyyətlərə və zəngin dövlətçilik təcrübəsinə malik olan dahi şəxsiyyətin xalqımız üçün yaratmış olduğu ən mühüm dəyərlərdən biridir.**

Çox böyük məharətlə hazırlanmış azərbaycançılıq məfkurəsi konsepsiyası xalqımızın zəngin tarixi keçmişinə, müasir dövrün reallıqlarına və strateji inkişaf hədəflərinə əsaslanır.

Ümummilli Liderimiz dünya azərbaycanlılarının mənəvi-ideoloji həmrəyliyinin təmin olunmasını azərbaycançılıq məfkurəsinin ən mühüm komponentlərindən və həlledici amillərindən biri hesab etmişdir. Zəngin tarixi keçmişə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı tarixin müxtəlif dönəmlərində baş vermiş ərazi parçalanmaları səbəbindən coğrafi baxımdan pərakəndə yaşamaq məcburiyyətində olmuşdur. Məhz bu faktı dahiyanə peşəkarlıqla nəzərə alan Heydər Əliyevin sayəsində dünya azərbaycanlılarının mənəvi-ideoloji həmrəyliyi məsələsi tarixin heç bir dönəmində olmadığı qədər yüksək aktuallıq kəsb etdi.

Eyni zamanda müstəqil Azərbaycanın hərtərəfli və davamlı inkişafının təmin olunması və respublikamızın dünyanın siyasi xəritəsindəki mövqeyinin güclənməsi dünya azərbaycanlılarının mənəvi-ideoloji həmrəyliyinin təmin edilməsini tarixi zərurətə çevirdi.

Bu kontekstdə Ulu Öndərin əsas hədəfi Azərbaycanda və xarici ölkələrdə yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ətrafında sıx birliyinə və həmrəyliyinə, onların vətənimiz naminə səmərəli fəaliyyətinin təmin edilməsinə, bu istiqamətdə atılan addımların effektiv əlaqələndirilməsinə nail olmaq idi. Bu məqsədlə, Ümummilli Liderin rəhbərliyi ilə 2001-ci ilin 9-10 noyabrında Bakı şəhərində Heydər Əliyev Sarayında Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu, Azərbaycanın çoxəsrlik tarixində analoqu olmayan hadisə idi. Dünyanın harasında yaşamasından asılı olmayaraq, qəlbində Azərbaycan sevgisi olan hər kəs Ulu Öndərin tarixi çağırışına səs verərək qurultaya qatıldı. Bu hadisə bir daha sübut etdi ki, dünyada yaşayan bütün azərbaycanlıların Azərbaycan adlı Ana Vətəni var və bu Vətən hər bir azərbaycanlı üçün müqəddəsdir.

Ümummilli Liderimiz gözəl bilirdi ki, dünya azərbaycanlılarının həmrəyliyinin gücləndirilməsinin ən mühüm şərtlərindən biri yüksək intellektə, əxlaqi-mənəvi dəyərlərə və vətənpərvərlik ruhuna sahib, öz tarixi keçmişinə və milli ənənələrinə sadiq, doğma xalqına, dövlətinə və dövlətçiliyinə bağlı yeni nəslin yetişdirilməsidir. Dahi şəxsiyyət bu vəzifənin reallaşdırılması baxımından təhsili alternativi olmayan vasitə hesab edirdi.

Nəzərə almaq lazımdır ki, Ulu Öndər hələ XX əsrin 70-ci illərində Azərbaycan xalqının intellektual intibahı kimi mühüm tarixi missiyanı öz üzərinə götürmüşdü. Uzaqgörən düha çox yaxşı bilirdi ki, milli dəyərlərin və insan kapitalının öz sərhədlərini aşaraq ümumbəşəri sərvətə çevrilməsi üçün təhsil daim diqqət mərkəzində saxlanılmalıdır.

Ümummilli Liderimizin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkədə formalaşdırdığı təhsil sistemi milli insan kapitalının yüksək inkişaf templərini təmin etdi. Təhsilin inkişafına yüksək diqqət və qayğı göstərən Ulu Öndər xalqın milli və dünyəvi dəyərlərə əsaslanan yeni intellektual obrazını formalaşdırmağı, doğma xalqının taleyini və həyat tərzini pozitiv məcraya yönəltməyi bacardı.

*"Təhsil millətin gələcəyidir"* kimi dahiyanə ifadənin müəllifi olan Ümummilli Liderimizin məhz bu prinsipə əsaslanan uğurlu təhsil siyasəti nəticəsində Azərbaycan xalqının intellektual genofondu əhəmiyyətli dərəcədə inkişaf etdi. Təhsilin uzunmüddətli perspektivdə qazandıracağı strateji faydaları düzgün qiymətləndirən dahi şəxsiyyət təhsilin inkişafına böyük önəm verməklə faktiki olaraq əsrlər boyu fiziki və intellektual terrora məruz qalmış xalqın əsl simasını, tarixi yaddaşını və milli dəyərlərini özünə qaytardı.

Ulu Öndər hər zaman tariximizi bilməyin əhəmiyyətini, tarixi özkeçmişimizə bağlılığın zəruriliyini, milli dəyərlərimizə hörmətlə yanaşmağın vacibliyini, doğma dilimizdə danışmağın önəmini, mədəni sərvətlərimizi qorumağın prioritetliyini vurğulamışdır. Xüsusi vurğulamaq lazımdır ki, Heydər Əliyev qeyd olunan bütün keyfiyyətləri özündə cəmləşdirən unikal şəxsiyyət idi. Belə ki, Ümummilli Liderimiz Azərbaycan tarixini mükəmməl bilirdi. Ulu Öndər milli dəyərlərimizə yüksək hörmətlə yanaşırdı, Azərbaycan dilində səlis danışırdı və ən əsası, bütün həyatını güclənməsinə və inkişafına həsr etdiyi Azərbaycanı öz canından çox sevirdi.

Qürurverici haldır ki, Ulu Öndərimizin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni dövrün reallıqları nəzərə alınmaqla həyata keçirilən və Azərbaycan xalqının milli maraqlarının təmin olunmasını hədəfləyən uğurlu dövlət siyasətinin məzmununda dünya azərbaycanlılarının mənəvi-ideoloji həmrəyliyinin gücləndirilməsi prioritet əhəmiyyət kəsb edir.

Bu gün milli dəyərlərə və ümumbəşəri ideallara sadiq olan Azərbaycan xalqının hər bir nümayəndəsi ərazi bütövlüyü təmin olunmuş və müstəqil dövlət olaraq davamlı qüdrətlənən Azərbaycan ilə qürur duyur. Ən əsası isə, bu gün hər birimiz döyüş meydanında düşməni məğlub edən Müzəffər Ali Baş Komandanımız, 30 ilə yaxın erməni işğalına son qoyan qalib sərkərdəmiz, ölkəmizi regionun güc mərkəzinə çevirmiş güclü liderimiz, Azərbaycanı sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun aparıcı aktorlarından biri kimi tanıtmış möhtərəm Prezidentimizlə qürur duyuruq.

Tam əminliklə söyləmək olar ki, Ümummilli Liderimizin tarixi nitqlərinin birində Azərbaycan gəncləri haqqında söylədiyi aşağıdakı fikirlər artıq reallığa çevrilib: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Hər kəsin qəbul etdiyi həqiqətdir ki, Ulu Öndərin səsləndirdiyi və sonradan bütün dünya azərbaycanlılarının devizinə çevrilmiş *"Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"* ifadəsi bu gün hər birimizdə həm sonsuz fəxarət, həm də ciddi məsuliyyət hissləri yaradır.

Bu hisslər tam təbiidir. Dünyanın başqa ölkələrində yaşayan azərbaycanlılar bu gün doğma Vətənə gələrkən həm də Şuşaya gedə bilirlərsə, onlar üçün azərbaycanlı olmağın yaratdığı qüruru və fəxarəti başa düşmək çətin deyil. Digər bir konkret misal: əgər Mingəçevir Dövlət Universitetinin 2021-ci il məzunu olan gənc hazırda işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyətə başlayan ilk təhsil müəssisəsi hesab edilən Zəngilan rayonunun Ağalı kəndində müəllim kimi çalışırsa, tələbə və müəllim heyəti üçün azərbaycanlı olmağın yaratdığı qüruru sözlə ifadə etmək mümkün deyil. Eyni zamanda doğma Qarabağımızın quruculuğunda iştirak edəcək məzunların daha yaxşı mütəxəssis və layiqli vətəndaş kimi yetişdirilməsi baxımından bu fakt azərbaycanlı olmağın yaratdığı məsuliyyət hissini əhəmiyyətli dərəcədə artırır.

Əminliklə söyləmək olar ki, Müzəffər Ali Baş Komandanın və rəşadətli Azərbaycan əsgərinin sayəsində 44 günlük Vətən müharibəsində qazandığımız tarixi zəfər dünya azərbaycanlılarının mənəvi-ideoloji həmrəyliyinin gücləndirilməsi baxımından mühüm nailiyyətdir. Bu zəfəri qazanan şəhid qardaşlarımızı böyük ehtiramla anır, onlara Allahdan rəhmət diləyirik. Tarixi zəfərin əldə olunmasında pay sahibi olan qazi qardaşlarımıza şəfa arzulayır, Vətən müharibəsinin bütün iştirakçılarına təşəkkür edirik.

Xüsusi vurğulamaq lazımdır ki, bu gün azərbaycanlı olmaq, sonsuz fəxarət hissi keçirmək deməkdir. Azərbaycanlı olmaq, ərazi bütövlüyü təmin edilmiş ölkənin vətəndaşı olmaq deməkdir. Azərbaycanlı olmaq, Azərbaycan adlı Vətənin bir parçası olmaq deməkdir. Azərbaycanlı olmaq, Ümummilli Liderin ideyalarına sadiq olmaq deməkdir. Azərbaycanlı olmaq, möhtərəm Prezidentin ətrafında sıx birləşmək deməkdir.

*Şahin BAYRAMOV,*
*Mingəçevir Dövlət*
*Universitetinin rektoru*

# İsraildə Azərbaycan səfirliyinin rəsmi açılış mərasimi keçirilib










**Martın 29-da İsraildə Azərbaycan səfirliyinin rəsmi açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan və İsrailin xarici işlər nazirləri Ceyhun Bayramov və Eli Kohen, həmçinin hər iki ölkənin parlament, ictimaiyyət və incəsənət nümayəndələri iştirak ediblər.

Mərasim hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən nazir Ceyhun Bayramov səfirliyin açılışını iki ölkə münasibətlərinin inkişafına yeni təkan verəcəyini bildirib. Diplomat Azərbaycan-İsrail əməkdaşlığının müxtəlif istiqamətlərindən danışıb, perspektiv imkanları qeyd edib. O deyib ki, Azərbaycanın yəhudi icması cəmiyyətimizin inkişafına öz töhfəsini verir. Nazir səfirliyin açılışından sonra İsraildəki Azərbaycan diasporunun fəaliyyətinin də aktivləşəcəyinə əmin olduğunu söyləyib.

Mərasimi tarixi hadisə adlandıran nazir Eli Kohen 30 illik əməkdaşlıq müddətində səfirliyin açılışının strateji əlaqələrin dərinliyindən xəbər verdiyini vurğulayıb. Azərbaycanı İsrailin strateji tərəfdaşı adlandıran nazir iki ölkənin müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyini bildirib. O, münasibətlərimizin bundan sonra daha da dərinləşəcəyinə əminliyini ifadə edib.

Sonra nazirlər səfirliyin adı yazılan lövhəni təqdim ediblər. Mərasim Azərbaycan incəsənət xadimlərinin konsert proqramı ilə davam edib.

# Ceyhun Bayramov israilli həmkarını işğaldan azad olunmuş ərazilərin bərpa prosesi barədə məlumatlandırıb

Martın 29-da İsrail Dövlətinə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov bu ölkənin xarici işlər naziri Eli Kohenlə görüşüb.





AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıqdan məmnunluq ifadə olunaraq, siyasi, iqtisadi, ticarət, o cümlədən energetika, təhsil, yüksək texnologiyalar, hərbi-texniki və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri ətrafında müzakirələr aparılıb.

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında tarixi dostluğa, əməkdaşlığa söykənən əlaqələrin mövcud olduğunu qeyd edən nazir Ceyhun Bayramov iki ölkə arasında intensiv qarşılıqlı səfərlərin münasibətlərin daha da inkişafına müsbət təkan verdiyini vurğulayıb. Bu ilin yanvarında Bakıda keçirilən Xarici İşlər nazirlikləri arasında illik Strateji Dialoqla yanaşı, İsrailin Avrasiya ölkələrindəki səfirlərinin İsrail Xarici İşlər Nazirliyinin mərkəzi aparatının yüksəkvəzifəli məmurlarının iştirakı ilə Bakıda xidməti müşavirəsinin keçirilməsinin möhkəm dostluq və tərəfdaşlığımızın göstəricisi olduğunu bildirib. Azərbaycanın İsraildə səfirliyinin açılmasının strateji müttəfiqlik əlaqələrinin gücləndirilməsinə töhfə verəcəyi vurğulanıb.

Görüşdə Ceyhun Bayramov həmkarını bölgədə postmünaqişə dövründə ölkəmizin sülh, təhlükəsizlik və əməkdaşlığın qurulması istiqamətində təşəbbüsləri barədə məlumatlandırıb. Bu səylərə baxmayaraq, Ermənistanın davamlı təxribatlar törətdiyi və prosesə xələl gətirdiyini qeyd edib. Həmçinin nazir işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verib, İsrail şirkətlərinin bu prosesdə iştirakını məmnunluqla qeyd edib.

İsrail Dövlətinin xarici işlər naziri Eli Kohen ölkəsinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu qeyd edib. Tərəflər strateji xarakter daşıyan ikitərəfli münasibətlərin bütün spektrləri, habelə beynəlxalq və regional məsələlər üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun bundan sonra da fəal surətdə inkişaf etdirilməsinə hazır olduqlarını ifadə ediblər.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Daha sonra nazirlər mətbuat konfransında bəyanatla çıxış ediblər.

# İsrailin müdafiə nazirinə regionda sülh və quruculuq səyləri barədə məlumat verilib

Martın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İsrailə rəsmi səfəri çərçivəsində İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında müdafiə, hərbi-texniki və digər aidiyyəti sahələr üzrə əməkdaşlıq, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə İsrail arasında müdafiə sahəsində münasibətlərin mövcud əməkdaşlıq gündəliyində müstəsna rolunu diqqətə çatdırıb.

Bu il fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində İsrail Dövlətinin müdafiə naziri ilə keçirdiyi görüşə istinad edən nazir Ceyhun Bayramov sıx təmasların, o cümlədən qarşılıqlı səfərlərin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirib.



Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın regionda sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində sülh və quruculuq səyləri barədə qarşı tərəfi məlumatlandırıb.

Nazir Yoav Qallant iki ölkənin müdafiə, hərbi-texniki sahədə uğurlu əməkdaşlıq təcrübəsinə istinad edərək, bu xüsusda əməkdaşlığın daha da genişləndirilməsi üçün mövcud potensialdan istifadənin vacibliyini qeyd edib. Qarşılıqlı təmasların davam etdirilməsinin əhəmiyyətli olduğu bildirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici işlər naziri Holokost qurbanlarının xatirəsinə ucaldılmış memorial kompleksi ziyarət edib



Martın 29-da İsrail Dövlətinə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Holokost qurbanlarının xatirəsinə ucaldılmış Yad Vaşem memorial kompleksini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, ziyarəti zamanı nazir Ceyhun Bayramov Holokost qurbanlarına həsr olunmuş abidənin önünə əklil qoyub.

Ceyhun Bayramov 1953-cü ildən fəaliyyət göstərən memorial kompleksdə, həmçinin Holokost qurbanlarının sənədləri və fotoşəkillərinin sərgiləndiyi muzey və memorialın tədris mərkəzi ilə tanış olub, daha sonra kompleksin xatirə kitabını imzalayıb.

Ziyarət zamanı kompleksin rəhbəri Dani Dayan Azərbaycan nümayəndə heyətinin üzvlərinə memorial kompleks barədə məlumat verib.



# Artıq İsraildə də səfirliyimiz var

*Əvvəli 1-ci səh.*

Azərbaycan müstəqillik qazandıqdan sonra bu ölkə ilə sıx əməkdaşlıqda olub. İsraildə səfirliyimizin olmamasına baxmayaraq, ikitərəfli və çoxtərəfli əlaqələr, faydalı dostluq və tərəfdaşlıq münasibətləri inkişaf edib. İsrail və Azərbaycan xalqları arasında əlaqələrin qədim tarixi kökləri var. Xalqlarımız arasında mehriban dostluq münasibəti formalaşıb. Hələ bu günə qədər iki xalq və ya dövlət arasında hansısa formada problem yaşanmayıb. Ümumiyyətlə, təkcə yəhudilər deyil, ölkəmizdəki bütün xalqlar, etnik qruplar azərbaycanlılarla uyğunlaşıb bir ailə kimi yaşamağı bacarıblar".

Deputat onu da vurğulayıb ki, yəhudilərin yaşadıqları ölkələrdə onların sinaqoqlarına qarşı zaman-zaman ciddi zorakılıq halları müşahidə edilib: "Dünyanın heç bir ölkəsində sinaqoqları təhlükəsiz hesab etmək olmaz. Amma Azərbaycanla İsrail arasında dövlətlərarası və xalqlararası münasibətlər o dərəcədə inkişaf edib ki, ölkəmizdəki sinaqoqlarda hansısa təhlükədən söhbət gedə bilməz. Ölkəmizdə məscidlər necə göz bəbəyi kimi qorunursa, digər dini ibadət yerlərinə də eyni diqqət və qayğı göstərilir".

M.İbrahimqızının sözlərinə görə, İsrail 44 günlük Vətən müharibəsində Azərbaycana səmimi dostluq münasibətini nümayiş etdirdi. İkinci Qarabağ savaşında İsrailin ölkəmizə dəstəyi onun etibarlı tərəfdaş olduğunu bir daha təsdiqlədi. Xalqımız İsrailin çətin günlərimizdə, taleyüklü məsələmizin həllində göstərdiyi dəstəyi heç zaman unutmayacaq.





"İsraildə Azərbaycan səfirliyinin açılması uzun müddət idi ki, gündəmdəydi. İctimaiyyət tərəfindən də tələb var idi. Səfirliyimizin fəaliyyətinin xeyirli-uğurlu olacağına ümidlər böyükdür. Lakin unutmaq olmaz ki, İsraildə də erməni lobbisi güclü fəaliyyət göstərir, onlar daim Azərbaycanla İsrail arasındakı münasibətləri pozmağa çalışırlar. Hesab edirəm ki, bizim münasibətlərimizə kölgə sala biləcək bütün addımların qarşısı alınacaqdır. Azərbaycanla İsrailin yaxınlaşmasını istəməyən müəyyən qüvvələrin mövcudluğu hər kəsə məlumdur. Bütün bunlara baxmayaraq, möhtərəm Prezident İlham Əliyev qəti siyasi iradə ortaya qoydu və səfirliyimizin açılması ilə bağlı qərar qəbul etdi. Bu, Azərbaycan-İsrail diplomatik münasibətlərində yeni səhifənin açılması deməkdir", - deyə deputat qeyd edib.

## İsraildə səfirliyimizin açılması zamanın tələbi idi

Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, İsrail Azərbaycanın müstəqilliyini rəsmi şəkildə tanıyan ilk dövlətlərdən biridir: "Azərbaycanla İsrail arasında diplomatik əlaqələr 1992-ci ilin aprelində qurulub. İki ölkənin uzun illərə dayanan möhkəm dostluq münasibətləri bir sıra amillərlə sıx bağlıdır. Nəzərə almaq lazımdır ki, Bakıda, əsasən də Qubada təxminən 30 minə yaxın yəhudi yaşayır. 1993-cü ildən etibarən İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. Fikrimcə, həmin səfirliyin fəaliyyətini uğurlu dəyərləndirmək lazımdır. İsrail səfirliyi ölkəmiz üçün mühüm strateji əhəmiyyətə malik olan dost səfirliklərdən biridir. Yeri gəlmişkən, iki ölkə arasındakı yaxınlığın əsas təzahürlərindən biri də Azərbaycanla İsrailin strateji tərəfdaşlığıdır. Ölkələrimiz arasında həm iqtisadi, həm də təhlükəsizlik əlaqələri güclüdür. Biz mədəni və mənəvi cəhətdən daim bir-birimizə dəstək göstəririk. Bütün bunlar İsraildə səfirliyimizin açılmasını zəruri edən mühüm amillərdir".

Deputat qeyd edib ki, Tel-Əvivdə səfirliyimizin açılması iki ölkə arasındakı etibarlı dostluq münasibətlərini daha da inkişaf etdirəcək və tərəfdaşlığımızı gücləndirəcək: "Belə fikirlər dolaşırdı ki, əgər Azərbaycan İsraildə səfirlik açarsa, İran və ya bir sıra ərəb dövlətləri bu məsələyə mənfi münasibət sərgiləyəcəklər. Amma məlumdur ki, bir neçə ərəb ölkəsinin, məsələn Misir, İordaniyanın İsraildə səfirliyi var. İrana gəlincə isə, o, Ermənistanın yaxın tərəfdaşıdır və ölkəmizə qarşı müxtəlif təxribatlar həyata keçirir. Həmçinin nəzərə almaq lazımdır ki, elə Ermənistanın da İsraildə səfirliyi fəaliyyət göstərir. Hər dövlətin müstəqil xarici siyasəti var, hətta dostluq-qardaşlıq məhfumundan əvvəl müəyyən maraqları da bəllidir. Bu baxımdan Azərbaycanın İsraildə səfirliyinin açılması zəruri idi".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İsraildə Azərbaycan səfirliyinin açılması ölkələrimizin münasibətlərinin yeni mərhələyə yüksəldiyini göstərir

"İsraildə Azərbaycan səfirliyinin açılması ölkələrimiz arasında tərəfdaşlığın inkişaf etdiyini və münasibətlərin yeni mərhələyə yüksəldiyini göstərir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov israilli həmkarı ilə Yerusəlimdə keçirilən mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, mütəmadi təmaslar Azərbaycanla İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsinə töhfə verir. O, həmçinin parlamentlər arasındakı əlaqələrin də yaxşı səviyyədə olduğunu bildirib.

Ceyhun Bayramov eyni zamanda Azərbaycanda yəhudi icmasının, İsraildə Azərbaycan diasporunun ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadıqlarını söyləyib.

# 2023-2025-ci illər üçün Baş Kollektiv Sazişi təsdiq edildi

2023-2025-ci illər üçün Baş Kollektiv Sazişi təsdiq edilib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib. Bununla bağlı Nazirlər Kabinetinin 87 №-li Qərarına dair izahda qeyd edilir: "Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Beynəlxalq Əmək Təşkilatının konvensiyalarına, digər beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanaraq, 2023-2025-ci illər üçün sosial-iqtisadi və əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətini müəyyən edən Baş Kollektiv Saziş bağlayırlar.

Tərəflər hesab edirlər ki, Azərbaycan Respublikasında uğurla həyata keçirilən islahatlar nəticəsində sosialyönlü, dünya təsərrüfat sisteminə inteqrasiya olunan milli iqtisadiyyatın formalaşması, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafının sürətləndirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi ölkədə yoxsulluq və işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, əhalinin məşğulluğunun təmin olunmasına, yeni iş yerlərinin açılmasına, gəlirlərin artırılmasına və vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən sosial-iqtisadi siyasətdir və bu hədəflərin reallaşdırılması sazişin prioritet məqsədlərini təşkil edir.

Saziş sosial tərəfdaşlıq sisteminin tərkib hissəsidir və sahə (tarif) sazişlərinin işlənilməsi və bağlanılması üçün əsas təşkil edir.

Tərəflər qarşılıqlı əlaqələrin sosial tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdirilməsinə, sosial-əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlər vasitəsilə tənzimlənməsinə çalışacaqlarını və sazişlə müəyyən edilən öhdəlik və sövdələşmələrə riayət edəcəklərini bəyan edirlər".

# İstismar müddəti 10 ildən çox olan avtomobillərin Azərbaycana idxalı məhdudlaşdırılıb

İstismar müddəti 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan ərazisinə gətirilməsi ilə bağlı qərar qəbul edilib.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin 94 №-li Qərarına dair izahına əsasən, istismar olunan minik avtomobillərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 94 №-li Qərarının əsas məqsədi insanların həyat və sağlamlığının, ətraf mühitin qorunması, avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılması və ekoloji vəziyyətin yaxşılaşdırılmasına dəstək olmaqdır. Qərara əsasən, zavod buraxılış tarixinə görə istismar müddəti 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan Respublikası ərazisinə gətirilməsi məhdudlaşdırılacaq.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkədə 1,4 milyondan çox minik avtomobili mövcuddur. Bunun 1,3 milyondan çoxu şəxsi minik avtomobillərinin payına düşür.

Azərbaycanda minik avtomobillərinin yaş strukturu belədir:

- 2 ilə qədər olan minik avtomobilləri 2%;
- 2 ildən 5 ilə qədər olan minik avtomobilləri 3%;
- 5 ildən 10 ilə qədər olan minik avtomobilləri 11,9%.

Beləliklə, yaşı 10 ildən artıq olan minik avtomobillərinin payı 80%-dən çoxdur.

İstehsal tarixi 10 ildən çox olan avtomobil idxalının məhdudlaşdırılmasının yaradacağı imkanlar:

- Ekoloji təmiz olan hibrid və elektrik avtomobillərin ölkəyə gətirilməsini stimullaşdıracaq;
- Yararsız avtomobillərin dövriyyədən çıxarılması ilə avtomobil parkı yenilənəcək, yol-nəqliyyat hadisələrinə səbəb olan hallar azalacaq;
- Ekoloji təmiz avtomobillərin sayının artması karbon emissiyasının azalmasına və daha sağlam ətraf mühitin olmasına səbəb olmaqla, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in icrasını sürətləndirəcək;
- İnsanların həyat və sağlamlığının və ətraf mühitin qorunması, avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılması və ekoloji vəziyyətin yaxşılaşdırılmasına gətirib çıxaracaq;
- Ölkəmizdə avtomobil istehsalının stimullaşdırılmasına səbəb olacaq;
- Avtomobil istehsalı sahəsi üzrə ixtisaslı kadrların artmasına imkan yaradacaq.

Xatırladaq ki, elektrik mühərriki ilə işləyən avtomobillərin 2019-cu il yanvarın 1-dən etibarən ölkə ərazisinə idxalı əlavə dəyər vergisindən azad edilib. 2022-ci il yanvarın 1-dən elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ilə yanaşı, satışı, habelə həmin avtomobillər üçün 2-ci və 3-cü səviyyə elektrik enerji doldurucularının və istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı 3 il müddətinə ƏDV-dən azad edilmişdir.

Nazirlər Kabinetinin 94 №-li Qərarı dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

# El Laçına qayıdır

Vətən savaşında qazandığımız parlaq zəfər Azərbaycan xalqının taleyində yeni və xoşbəxt bir çağ başladıb. Arzularımızın ən uca zirvəsinə, torpaqlarımızın azadlığına çatmışıq və düz bir qərinəlik ayrılığın ardından yurdlarımızdan bir-bir yenidən doğma hənirimiz, ünümüz gəlir. Artıq Şərqi Zəngəzurda Ağalı, Qarabağda Talış kəndinin sakinlərinin timsalında keçmiş məcburi köçkünlərimizin yurda dönüş sevincini yaşamışıq.

Torpaqlarımıza qayıdışla bağlı tezliklə yaşanacaq daha bir şad xəbəri isə Prezident İlham Əliyev martın 28-də xalqımıza müjdələdi. Dövlət başçısı Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul etdiyi zaman söylədi ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar.

### Üçrəngli bayrağımız Laçında əbədi dalğalanacaq

30 illik işğal dövründə vandal ermənilər digər ərazilərimiz kimi, Laçın rayonunu da xarabazarlığa çeviriblər. Bu bölgəmizdə də Azərbaycan xalqına məxsus tarixi, dini, mədəni irsi tamamilə dağıdan erməni vəhşiləri ekoloji terror törədiblər, çayları, bulaqları qurudublar, meşələrimizi məhv ediblər. Laçın işğal olunduqdan sonrakı müddətdə ermənilər hərbi cinayət törədərək bəzi ərazilərdə - Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşdırma da aparmışlar.

44 günlük müharibədə düşməni kapitulyasiya aktına imza atmağa məcbur edən Azərbaycan həm də Hayastanı məcbur etdi ki, silahlı qüvvələrini Ağdamdan, Kəlbəcərdən və Laçından döyüşsüz çıxarsın.

Xatırladaq ki, Hayastanı Xankəndi ilə birləşdirən avtomobil yolu Laçın şəhərinin ortasından keçdiyi üçün o vaxt Laçın şəhəri nəzarətimizə götürülməmişdi, ancaq üçtərəfli Bəyanatda da nəzərdə tutulduğu kimi, Azərbaycan hətta deyildiyi vaxtdan da az bir müddətə sözügedən yola alternativ yol çəkdi və bundan sonra, 2022-ci il avqustun 26-da Azərbaycan Ordusu təntənəli şəkildə Laçın şəhərinə daxil oldu.

Ötən il sentyabrın 22-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın şəhərinə səfər edərək burada Azərbaycanın üçrəngli bayrağını qürurla dalğalandıraraq bəyan etdi: "Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır".

### Torpaq həsrəti bitir

Vətən müharibəsi Zəfərlə bitdikdən dərhal sonra Azərbaycan işğaldan azad etdiyi ərazilərdə böyük tikinti-quruculuq işlərinə start verdi. Hazırda Qarabağ və Şərqi Zəngəzurda yollar çəkilir, tunellər inşa olunur, hava limanları tikilib istifadəyə verilir, hərtərəfli infrastruktur qurulur, qədim şəhərlərimiz yenidən dirçəldilir, "ağıllı" kənd və şəhər konsepsiyası həyata keçirilir.

Eləcə də Laçın rayonunda sürətli tikinti-quruculuq işləri gedir, böyük layihələr həyata keçirilir. Şərqi Zəngəzur iqtisadi bölgəsində yerləşən çətin relyefə malik Laçında yollar çəkilir, tunellər salınır, elektrik stansiyaları quraşdırılır, beynəlxalq hava limanı tikilir.

Dövlət başçısı martın 28-də Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar Məsim Məmmədovu qəbul etdiyi zaman söylədi ki, müharibə başa çatan kimi Laçın rayonunun yenidən qurulması ilə bağlı işlərə start verilib. Laçın şəhərinin yenidən qurulması keçən ilin avqustun 26-dan bu yana icra edilir. Brinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. Prezidentin göstərişinə əsasən, bütün bu işlərin cari ilin sonuna qədər başa çatdırılması planlaşdırılıb və bu, birinci mərhələ olacaq.

Qeyd edək ki, Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur - su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri və yollar çəkilir.

Eyni zamanda dövlətimiz Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start verib. Bununla əlaqədar məlumat verən Prezident dedi ki, Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək: "Xaricdə yaşayan ermənilər Zabux kəndində, yenə də deyirəm, o cinayəti törədən Ermənistan dövləti ilə birlikdə bir kənd salmışdılar, evlər tikmişdilər. O evlərdə indi bizim hərbi birləşmələrimizin şəxsi heyəti yerləşir. Ancaq Zabux kəndinin sakinləri üçün tamamilə yeni kənd salınır".

Dövlət başçısı bildirdi ki, Güləbird və Qorçu kəndlərinin baş planı da Prezident tərəfindən təsdiqlənib. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur: "Yəni gətirdiyim bütün bu rəqəmləri nəzərə alaraq, hər kəs görə bilər ki, yaxın gələcəkdə - bu il və gələn il biz Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də, çox keçmiş köçkünü yerləşdirəcəyik".

### Cənnətməkan vətən

Düz üç onillik ərzində əziyyət, mənəvi əzab içində yaşamış keçmiş məcburi köçkünlərin ən qısa zaman çərçivəsində öz doğma torpaqlarına qaytarılması üçün Azərbaycan dövləti tərəfindən işğaldan azad edilən ərazilərdə nəhəng layihələr həyata keçirilir. Düz 30 il müddətində erməni talanı, vandallığı ilə üz-üzə qalmış torpaqlarımıza yenidən həyatın qaytarılması üçün misilsiz işlər görülür, yurdlarımız dirçəldilir, doğma sakinləri yenidən öz dədə-baba torpaqlarına qaytarılır.

Qurucu lider İlham Əliyevin vurğuladığı kimi, tezliklə cənnətməkana çevriləcək və doğma sakinlərinə qovuşdurulacaq bəxtəvər diyarlarımızdan biri də Laçın olacaq: "Laçın şəhərinin memarlıq üslubu da göz oxşayır. Yəni bu nəinki Azərbaycanın, dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək,- nəzərə alsaq ki, Laçının çox füsunkar təbiəti - meşələri, dağları, çayları var,- bu, bir cənnətməkan olacaqdır".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Açıq və demokratik siyasi rəqabətə çağırış

## Prezident İlham Əliyevin siyasi dialoq təşəbbüsləri müxalifət partiyaları tərəfindən təqdir edilir

*Əvvəli 1-ci səh.*

Bu sözləri Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirə zamanı çıxışında demişdi. Dövlət başçımızın siyasi dialoq təşəbbüsləri ölkədə demokratik ənənələrin dərinləşdirilməsinə xidmət etməklə yanaşı, yeni modelin əsasını qoydu. Müxtəlif siyasi partiya rəhbərləri də son illərdə ölkədə siyasi dialoq mühitinin inkişaf etdiyini, bu istiqamətdə ardıcıl işlər görüldüyünü təsdiq edirlər.







### Siyasi dialoq demokratiyanın tərkib hissəsidir

2018-ci ildən sonra ölkədə siyasi sistem sağlamlaşdırılıb, iqtidarla müxalifət partiyaları arasında dialoq mühiti genişlənib, "Siyasi partiyalar haqqında" yeni qanun hazırlanaraq qəbul olunub. Yeni qanunun hazırlanması prosesinə ilk dəfə olaraq siyasi münasibətlərin bütün iştirakçı tərəfləri cəlb olunub.

Yeni qanuna əsasən, üzvlərinin sayı 5 mindən az olan siyasi partiyalar ləğv olunduğu üçün bu tələbə cavab verməyən 6 siyasi partiya fəaliyyətini dayandırıb.

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında deyib ki, siyasi dialoq demokratiyanın tərkib hissəsi, əsas faktorlarından biridir. Dövlət müstəqilliyimizin bərpa edilməsindən az müddət keçməsinə baxmayaraq, bu istiqamətdə böyük işlər görülüb. İlk növbədə demokratik Konstitusiya qəbul edilib. Zaman-zaman daha da təkmilləşdirilməsi üçün ciddi addımlar atılıb. Siyasi fəaliyyət azadlığı, insanların hüquq və azadlıqlarının qorunması dövlətin əsas vəzifələrindəndir.

Deputat bildirib ki, Azərbaycan açıq cəmiyyətdir, vətəndaşlarımız sərbəst şəkildə başqa ölkələrə gedə, düşündüklərini söyləyə və müzakirə edə bilirlər: "Siyasi dialoqun ilkin şərti vətəndaşın və ya siyasi qrupun öz fikrini sərbəst deyə bilməsi, qanuni yollarla cəmiyyətin diqqətinə çatdırmasıdır. Hesab edirəm ki, bu, Azərbaycanda bərqərar olunub. Sərbəst surətdə fikir bildirmək, iqtidarla razılaşmamaq, hansısa təşəbbüslə çıxış etmək mümkündür".

İqtidarla müxalifət arasında görüşlərin artıq ənənəyə çevrildiyini qeyd edən deputat bir neçə il əvvəl Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradıldığını xatırladıb. O bildirib ki, bu şöbə vasitəsilə iqtidar Azərbaycandakı bütün siyasi partiyalarla əlaqələr qurub, onların problemləri ilə maraqlanıb, fikirlərini dinləyib, siyasiləri maraqlandıran məsələlərə dair geniş məlumat verib. Bu gün istənilən siyasi qrup açıq şəkildə öz fikirlərini bildirə bilir. Digər tərəfdən, siyasi partiyaların fəaliyyəti üçün geniş şərait yaradılıb.

Aydın Mirzəzadə həmçinin qeyd edib ki, siyasi partiyaların qeydiyyatı üçün hər hansı problem yoxdur. "Partiyalar mənzil-qərargahla təmin ediliblər, parlamentdə 10 siyasi partiya nümayəndəsi var, müxtəlif mövzuda fikirlərini bildirirlər. Mətbuat hər kəsə açıqdır, sosial şəbəkələr məhdudiyyətsiz fəaliyyət göstərir. Bu istiqamətdə daha böyük işlər görülür və görüləcək. Bu, Azərbaycanın müstəqilliyini qoruyan vacib şərtlərdən biridir. Prezidentimizin apardığı siyasət dövlətçiliyimizin maraqlarına, demokratiya tələblərinə, insan hüquq və azadlıqlarının qorunması şərtlərinə tam cavab verir", - deyə deputat əlavə edib.

### Prezidentin ortaya qoyduğu siyasi iradəni sona qədər dəstəkləyəcəyik

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə qeyd edib ki, hələ 2019-cu ilin martında Prezident İlham Əliyev Azərbaycan xalqını ənənəvi Novruz bayramı münasibətilə təbrikində ölkədə bir sıra sahələrdə olduğu kimi, siyasi mühitdə də islahatların keçirilməsinin vacibliyini bildirdi. Bundan sonra bu istiqamətdə bir sıra ardıcıl, ciddi addımlar atıldı.

Partiya sədri qeyd edib ki, həmin ilin dekabrında Azərbaycan Prezidentinin Administrasiyasının nəzdində ilk olaraq Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı: "Bundan sonra ölkədə mövcud olan, dövlət qeydiyyatından keçmiş siyasi partiya rəhbərləri ilə görüşlər keçirildi, müzakirələr aparıldı. Sonrakı dönəmdə də dövlət başçısı dəfələrlə ölkədəki siyasi qüvvələr arasında dialoqun vacibliyi ilə bağlı mövqeyini ifadə etdi, siyasi iradəsini ortaya qoydu. Biz də ilk gündən bu mövqeyi dəstəklədik. Siyasi dialoqun vacibliyini həq zaman vurğulamışıq. Bunun alternativinin olmaması səbəbilə bu prosesə aktiv qoşulmanın mühümlüyünü ifadə etmişik".

A.Əlizadə vurğulayıb ki, son illərdə ölkədəki siyasi partiyalarla, təşkilatlarla dialoq mühiti formalaşıb. Buna yeni siyasi konfiqurasiya, yeni siyasi münasibətlər sisteminin formalaşması da deyilir. Necə adlanmasından asılı olmayaraq, bunun alternativi yoxdur. Biz uzun illər bu mövqedə olmuşuq ki, ölkə daxilində, regionda baş verən hadisələrlə bağlı məsələlərin həllində mütləq mənada bir masa arxasında əyləşərək müzakirə etmək daha əlverişli variantdır. Ona görə də mövcud problemlərin həlli istiqamətində addımlar atılması ilə yanaşı, bu problemlərin həllinin birgə müzakirələrdən keçməsi qənaətindəyik. Son 3-4 il ərzində bu istiqamətdə çox ciddi addımlar atılıb. Ölkədə baş verən hadisələrlə bağlı KİV, internet televiziyaları, bir çox hallarda dövlət televiziyası vasitəsilə siyasi partiya rəhbərliyində təmsil olunan şəxslər mövqelərini ictimaiyyətə çatdırırlar.

"Xüsusilə yeni siyasi münasibətlər sisteminin formalaşması fonunda gördük ki, qalibiyyətlə başa çatan 44 günlük Vətən müharibəsində ölkədə mövcud siyasi qüvvələr istisnasız olaraq bir araya gəldi, dövlət mövqeyindən çıxış etdilər. Bu, dövlət və milli maraqlar olanda siyasi təşkilatların bir araya gələ bildiyini, siyasi dialoqun mümkünlüyünü bir daha təsdiqlədi. Eyni zamanda xaricdəki düşmənlərimizə də ciddi mesaj oldu", - deyə partiya sədri əlavə edib.

Onun sözlərinə görə, növbəti dövrdə siyasi dialoq mühitinin bir qədər də inkişaf etdirilməsinə ehtiyac var, çünki problemlər hələ bitməyib. Ölkədaxili problemlərlə yanaşı, regionda baş verən hadisələrə də münasibət bildirmək vacibdir. İndi Azərbaycanın üzərinə bəzi xarici dairələrin gəldiyini görürük. Ölkəmizin öz torpaqlarını işğaldan azad edərək regionun əsas söz, güc sahibinə çevrilməsini bir çox dairələr, qonşular, beynəlxalq təşkilatlar həzm edə bilmirlər. Azərbaycanı təkləmək, zəiflətmək istiqamətində addımlar atılır. Bu mühitdə ölkə daxilində siyasi dialoq mühiti bir qədər də güclənməlidir. Siyasi sistemdə mövcud qüvvələr bir araya gəlməlidirlər. Xarici basqılara qarşı birgə mübarizə aparmalıyıq.

A.Əlizadə ölkədə siyasi dialoqun davam etdirilməsinin tərəfdarı olduğunu vurğulayıb: "Bu istiqamətdə dövlətimizin yanında olmuşuq və bundan sonra da olacağıq. Azərbaycan Prezidentinin ortaya qoyduğu siyasi iradəni dəstəkləyərək bu prosesdə sona qədər iştirak etməyi hədəfləmişik".

### Siyasi qüvvələrlə dialoq mühitinin yaranmasının əhəmiyyəti olduqca böyükdür

Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev bildirib ki, Azərbaycanda uzun illər siyasi təşkilatlar və hakimiyyət arasında münasibətlər ürəkaçan səviyyədə olmayıb, çoxlu narazılıqlar yaranıb və bu problemlərin beynəlxalq təşkilatlar vasitəsilə həllinə çalışılıb: "Bu, normal qəbul edilə bilməzdi. Odur ki, ölkənin daxilində siyasi partiyalar və hakimiyyət arasında dialoq vacib idi. Nəyə görə xaricilər vasitəçi olmalı idi? Öz aramızda bu məsələləri həll edə bilərdik. Nəhayət, ötən parlament seçkilərindən sonra Prezident Administrasiyasında yeni struktur yaradıldı və burada müvafiq şöbə fəaliyyətə başladı. Bu şöbəyə Prezident İlham Əliyev tərəfindən siyasi qüvvələrlə dialoq mühitinin yaradılması, inkişaf etdirilməsi təlimatı verildi".

Partiya sədri qeyd edib ki, Siyasi partiyalar və qannunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin vasitəçiliyi ilə hakimiyyət və müxalifət arasında münasibətlər yaranmağa başlayıb. Bu, son illərdə atılmış ən mühüm addımdır. Siyasi qüvvələrlə hakimiyyət arasında xoş münasibət, dialoq mühitinin yaranmasının əhəmiyyəti olduqca böyükdür. Bu da ilk növbədə 44 günlük Vətən müharibəsində özünü göstərdi. Bildiyiniz kimi, siyasi qüvvələrin böyük əksəriyyəti hakimiyyətlə vahid cəbhədən çıxış etdi. Nəticə etibarilə Ermənistandan fərqli olaraq Azərbaycanda hakimiyyətlə müxalifət arasında 44 günlük müharibədə fərqli mövqe, yanaşma olmadı. Bundan sonrakı mərhələdə də siyasi təşkilatlarla hakimiyyət arasında münasibətlər inkişaf etdi, müxtəlif səpkili tədbirlər baş tutdu. Əvvəlki illərdən fərqli olaraq tədbirlərdə birgə iştirak edildi, fikir mübadiləsi aparıldı.

Siyasi təşkilatların normal fəaliyyət göstərməsi üçün ofisə ehtiyac olduğunu və bu məsələnin də həllini tapdığını bildirən partiya sədri növbəti mərhələnin "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul edilməsi ilə bağlı olduğunu dedi. "Təqdim olunmuş layihəyə fərqli münasibətlər vardır. Amma buna baxmayaraq, yeni qanun qəbul olundu. Hamı yeni qanunun tələblərinə uyğun fəaliyyət göstərməlidir. Son vaxtlar yeni qanunun tələblərinə uyğun addımlar atmaq üçün bölgələrə daha çox səfər edirəm. Düşünürəm ki, paytaxtda siyasi partiyaların ofis məsələsinin həll olunduğu kimi heç olmazsa, böyük şəhərlərimizdə də bu məsələ həllini tapmalıdır. Siyasi partiyalarla hakimiyyət arasında dialoq mühiti daha da inkişaf etdirilməlidir".

Gərgin dövrdən keçdiyimizi, Azərbaycanı gözü götürməyən bəzi qüvvələrin, təxribat törətmək istəyənlərin mövcudluğundan söz açan E.Musayev bu halların qarşısını birlikdə almalı olduğumuzu, dövlətçilik, ərazi bütövlüyümüz məsələlərində fərqli mövqe tutmamağın gərəkliyini vurğulayıb. O qeyd edib ki, Qarabağ, sərhəd, suverenlik məsələləri gələndə hər kəs vahid mövqedən çıxış etməlidir. Belə vəziyyətdə hamı bir nöqtəyə vurmalıdır.

"İndiki mərhələ elədir ki, burada mütləq dialoq mühiti inkişaf etdirilməlidir. Hazırkı mühit yeni səviyyəyə qaldırılmalıdır. Nəticədə Azərbaycan beynəlxalq aləmdə layiq olduğu yeri tutmalıdır. Bu da siyasi partiyalarla hakimiyyət arasında dialoq mühitinin vacibliyini bir daha zəruri edir", - deyə partiya sədri əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanda əbədiyaşarlıq rəmzi olan tarixi-mədəni abidələrimiz dağıdılıb

## Qərbi Azərbaycan İcmasının UNESCO-nun baş direktoruna ünvanladığı məktub BMT-nin rəsmi sənədi kimi yayılıb

*Əvvəli 1-ci səh.*

Bu ali dəyərlər mövcudluğumuzun, bir xalq olaraq yaşam tərzimizin, milli kimliyimizin göstəricisidir. 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan bu torpaqları yalnız talan etməyib, vandallar tarixi ərazilərimizi erməniləşdirməyə cəhd edərək xalqımızın milli-mənəvi dəyərlərinə qarşı əsl soyqırımı həyata keçirib, tarixi-dini abidələrimizə qarşı vandallıq törədiblər".

Araşdırmalara və tarixi sənədlərə əsasən, hələ 1869-cu ildə Qafqaz Rusiya qubernatorluğunun dərc etdiyi "1870-ci il üçün Qafqaz təqvimi" adlı sənəddə verilən statistik məlumatlara görə, təkcə İrəvan quberniyasında 269 məscid olub. Məscidlərdən savayı bu siyahıya həmçinin, İrəvanda xanın sarayı, İrəvan qalasının divarları, ümumilikdə hazırkı Ermənistan ərazisində mövcud olmuş çoxsaylı hamam, karvansara, türbə, qəbiristanlıq və s. diqqətə çatdırılır.









Azərbaycan Prezidentinin təklif və tövsiyələrini özünün iş prinsipinə çevirən Qərbi Azərbaycan İcması reallıqları əks etdirən tarixi sənədlərə əsasən fəaliyyət coğrafiyasını daha da genişləndirir, artıq beynəlxalq müstəvidə tanınır. İcmanın ötən ilin əvvəllərindən bu sahədə dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara ünvanlandığı dəyərli müraciətləri tərəqqipərvər insanlar tərəfindən rəğbətlə qarşılanır. Qərbi Azərbaycan İcmasının böyük ictimai-siyasi əhəmiyyətə malik növbəti müraciətlərindən biri də bu günlərdə UNESCO-nun baş direktoru Odri Azuleyə ünvanlanan məktubudur.

İcmanın rəhbər heyətinin, Qərbi Azərbaycandan olan ziyalıların, mədəniyyət və incəsənət xadimlərinin, şair və yazıçıların imzaladığı müraciətdə Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasından dərindən narahat olaraq və Azərbaycan ictimaiyyətinin UNESCO-ya əvvəlki müraciətlərini təkrarlayaraq, Ermənistandakı azərbaycanlı mədəni irsinin vəziyyətinin monitorinqi üçün faktaraşdırıcı missiya göndərilməsi xahiş olunur.

Diqqətə çatdırılır ki, əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Ermənistandan tamamilə qovulublar. Onların indiki Ermənistan ərazisindəki tarixi və mədəni irsi, o cümlədən məscidləri və qəbiristanlıqlar kütləvi miqyasda dağıdılıb.

Ermənistan hökuməti azərbaycanlıların maddi və qeyri-maddi-mədəni irsini bilavasitə hərəkətləri ilə və azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi təşviq edən təbliğat aparmaqla dağıdıb və ya ona zərər vurub. Dağıntı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən əvvəl, onun zamanı və ondan sonrakı dövrdə baş verib. Ermənistandakı azərbaycanlı mədəni irsinin demək olar ki, hamısı hərbi əməliyyatların təsiri olmadan, əvvəlcədən planlaşdırılmış şəkildə məhv edilib. Başqa sözlə, Azərbaycan mədəni irsinin məhv edilməsinin hərəkətverici qüvvəsi Ermənistan hökumətinin mono-etnik və təkmədəniyyətli məkanın yaradılmasına yönəlmiş sistematik irqi ayrı-seçkilik siyasəti olmuşdur və təəssüf ki, bu mənfur hədəfləri reallığa çevrilmişdir.

Ermənistanın azərbaycanlıların mədəni irsinə qarşı törətdiyi qanunsuzluqlara irs nümunələrinin mənimsənilməsi və təhrif edilməsi də daxildir. Ermənistanda salamat qalmış yeganə məscid olan paytaxt İrəvandakı Göy Məscid qəsdən yanlış şəkildə "fars məscidi" kimi təqdim edilir. Əslində, məscidi inşa edən və əsrlər boyu orada ibadət edənlər o vaxt şəhərdə mütləq əksəriyyəti təşkil etmiş azərbaycanlılar olublar. Üstəlik, məscidi bir etnik qrupa aid olaraq təqdim etməklə ibadət yerlərini etnik mənsubiyyətə görə bölməyən, irqindən və etnik mənsubiyyətindən asılı olmayaraq bütün insanları birləşdirən dinimizə qarşı hörmətsizlikdir.

Ermənistan hökuməti Azərbaycan mədəniyyətinin son izlərini silməkdə davam edir. İrəvan şəhərinin Təpəbaşı məhəlləsi şəhərin tarixi mərkəzinin bu günə qədər gəlib çatmış yeganə parçasıdır. Bu məhəllə XVII əsrdən bu günə qədər İrəvanın tarixi yaddaşını özündə saxlayır. Tarixən azərbaycanlıların məskunlaşdığı Təpəbaşı məhəlləsi indi məhv olmaq təhlükəsi altındadır. Ermənistanın hakimiyyət orqanları məhəlləni tamamilə sökmək üzrədir.

Ermənistanın ayrı-seçkilik və etnik təmizlik siyasəti Azərbaycanın qeyri-maddi mədəni irsinə dağıdıcı təsir göstərib. Məsələn, Ermənistanın Göyçə mahalında azərbaycanlılara qarşı apardığı etnik təmizləmə UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan aşıq sənətinin dayağı olan Göyçə aşıq məktəbinə sağalmaz yara vurub. Ermənistan hökuməti hətta Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin doğma Göyçədəki abidəsini və məzarını nümayişkaranə şəkildə dağıtmışdır.

Məktubda xüsusi olaraq vurğulanır ki, Ermənistan tərəfindən azərbaycanlı mədəni irsinin dağıdılması və zədələnməsi bizim mədəni hüquqlarımızı, xüsusən mədəni irslə təmasda olmaq və ondan istifadə etmək hüququmuzu pozur. Bu hüququn pozulması sabitliyə, ictimai birliyə və mədəni kimliyə təhlükə yaradır, regional təhlükəsizliyi ağırlaşdıran amil olaraq dialoq, sülh və barışığa ciddi maneə törədir.

Biz Ermənistandan qovulmuş azərbaycanlıların Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində tanınan hüquq və əsas azadlıqlara uyğun olaraq sülh yolu ilə təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmaları, qayıtdıqdan sonra kollektiv və fərdi hüquqlarının təmin edilməsi uğrunda mübarizə aparırıq. Bu və digər məsələlərlə yanaşı, Ermənistandan oradakı azərbaycanlı mədəni irsinin və mülkiyyətinin bərpası, mühafizəsi və saxlanması ilə bağlı beynəlxalq hüquq çərçivəsində öhdəliklərin yerinə yetirilməsini tələb edirik.

Mədəni irsin qorunması təkcə beynəlxalq humanitar hüququn deyil, həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qəbul edilən əsas hüquqların təmin edilməsindən irəli gələn tələbdir. Mədəni irsdən bəhrələnmək qovulmuş insanların ləyaqətlə qayıtması yanaşmasının əsas elementlərindəndir. Mədəni hüquqların, yəni bütün müxtəlifliyi ilə insan yaradıcılığının və onun həyata keçirilməsi, inkişaf etdirilməsi, əlçatanlığı, qorunub saxlanılması və mühafizəsi üçün şəraitin təmin edilməsi insani hüquqlarımızdır. Ermənistan bizim qayıdışımızdan əvvəl, qayıdış dövründə və sonra bu hüququmuzu təmin etmək üçün öhdəlik daşıyır.

Qərbi Azərbaycan İcması bütün bunları nəzərə alaraq, mədəni irsimizin bərpası və qorunmasında UNESCO-nun dəstəyini gözləyir. O da vurğulanır ki, bu ölkədəki azərbaycanlı mədəni irsinin vəziyyətini, habelə mədəni irsin və mədəni hüquqların qorunması ilə bağlı Ermənistanın beynəlxalq öhdəliklərə necə əməl etməsini qiymətləndirmək üçün bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi bütövlükdə bəşəriyyətin mədəni irsinə dəyən zərərin aradan qaldırılmasına və bununla da davamlı sülhün əldə edilməsinə əvəzsiz töhfə ola bilər.

Surəti BMT-nin İnsan Hüquqları Şurasının sədri Vatslav Balekə və BMT-nin mədəni hüquqlar sahəsində xüsusi məruzəçisi Aleksandra Xantakiyə göndərilən müraciətdə diqqətə çatdırılır ki, Qərbi Azərbaycan İcması Ermənistanda azərbaycanlı mədəni irsinin qiymətləndirilməsi, bərpası, saxlanılması və mühafizəsi, oradan qovulmuş azərbaycanlıların öz mədəni irsindən istifadə etməyə dair mədəni hüquqlarının təmin edilməsi istiqamətində fəaliyyətlərin həyata keçirilməsində UNESCO ilə əməkdaşlığa hazırdır.

Xatırladaq ki, Qərbi Azərbaycan İcmasının indiki Ermənistan ərazisindən çıxarılmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə cari ilin əvvəllərində ictimaiyyətə təqdim etdiyi Qayıdış Konsepsiyası nəinki, ölkə əhalisində, beynəlxalq təşkilatlarda da geniş rezonans doğurub. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtma hüququnun təmin edilməsi, qayıdışdan sonra onların fərdi və kollektiv hüquqlarının, o cümlədən, mülkiyyət hüquqlarının, mədəni-tarixi irsinin bərpası və qorunması məsələlərini əhatə edən Qayıdış Konsepsiyası BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, çin, ərəb və ispan), adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Xatırladaq ki, bu, icmanın BMT sənədidir. Bundan əvvəl, yanvar ayında icmanın beynəlxalq ictimaiyyətə müraciəti yayılmışdı.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi UNESCO-nun Ermənistana və Azərbaycana yaxın müddətdə missiya göndərməsi ilə bağlı əldə edilmiş razılığı alqışlayır. Ümid edirik ki, UNESCO-nun qarşıdan gələn missiyası Ermənistan ərazisində Azərbaycan xalqına mənsub olan irsin ətraflı şəkildə tədqiq edilməsi, müvafiq qaydada monitorinqi və sənədləşdirilməsi baxımından əhəmiyyətli olacaq. Bununla Ermənistanda əbədiyaşarlıq rəmzi olan tarixi-mədəni abidələrimizi dünyaya daha yaxından tanıda biləcəyik.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İrəvanın şərtləri qəbul etməkdən başqa yolu yoxdur

## Sülh prosesinə qarşı dirəniş və təxribatçılıq Hayastanın özünə baha başa gəlir

*Əvvəli 1-ci səh.*



Ermənistan ilk növbədə ona gərəkli olan sülhdən dəm vursa da, 10 noyabr Bəyanatının imzalanmasından ötən dövr ərzində baş verənlər göstərir ki, İrəvan hər minvalla, müxtəlif bəhanələrlə prosesə qarşı çıxır, buna maneçiliklər törədir.

### Bakı Brüssel sülh gündəliyini dəstəkləyir

Azərbaycanla Hayastan arasında sülhün əldə olunması üçün Avropa İttifaqının təşəbbüsü ilə Brüssel prosesinin ortada olduğu məlumdur. Bakı bu prosesi, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin missiyasını, bütövlükdə Brüssel sülh gündəliyini dəstəkləyir. Hayastan da üzdə sülh danışıqlarına tərəfdar olduğunu göstərsə də, prosesin ləngiməsi və ya dalana dirənməsi üçün müxtəlif spekulyasiyalara yol verir. 2021 və 2022-ci illər ərzində Azərbaycan-Hayastan şərti dövlət sərhədində və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində törədilən təxribatlar həmin spekulyasiyaların bir istiqaməti idi.

Ötən ilin dekabrında isə Hayastan danışıqlar prosesini pozan növbəti addımını atdı. Brüssel prosesi üzrə tərəflər arasında razılaşdırılmış formata və bu danışıqlarda müəyyən qaydalara əməl etməyə dair razılıqlara baxmayaraq, Ermənistan danışıqların növbəti raundunu boykot etdi və prosesi pozdu. Həmin vaxtdan Ermənistan Brüssel prosesi üzrə danışıqlara hələ də qayıtmayıb.

Digər tərəfdən, Hayastan sülh sazişi ilə bağlı manipulyasiyalar etməklə məşğuldur. Məsələn, İrəvan rəsmiləri saziş layihəsinə təklif etdikləri bəzi elementləri kontekstdən çıxarmaqla şərh edir və ictimaiyyət arasında yanlış rəy formalaşdırır. Bu baxımdan Hayastanın xarici işlər naziri Ararat Mirzoyanın Misirin "Al-Qahera" xəbər agentliyinə müsahibəsi zamanı mahiyyəti təhrif edən iddialar səsləndirməsi sülh sazişi üzrə danışıqlara maneçilik törətmək məqsədi daşıyır. Ararat Mirzoyanın iddiaları Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərlə bağlıdır. Bu məsələdə isə Azərbaycanın mövqeyi aydın və konkretdir. Qarabağ məsələsi hər hansı bir formada Azərbaycanla Hayastan arasında imzalanacaq sazişə daxil edilməyəcək. Respublikamızın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərlə bağlı məsələ Azərbaycanın özünün daxili işidir. Bu mövzunu Bakı heç bir tərəflə, o cümlədən Hayastanla müzakirə etmir.

Qeyd edək ki, ABŞ dövlət katibi ilə telefon danışığı zamanı dövlətimizin başçısı Münhendə keçirilmiş görüşün davamı olaraq Azərbaycanın Qarabağdan olan erməni sakinlərlə təmaslara hazır olduğunu və bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən reinteqrasiya üzrə təmasları davam etdirmək və infrastruktur layihələrini müzakirə etmək üçün onların Bakıya dəvət edildiyini də xatırladıb. Qeyd edək ki, Qarabağdakı ermənilərin reinteqrasiya, həmçinin Qarabağda infrastruktur layihələrinin icrası məsələlərinin müzakirəsi məqsədilə martın 1-də Xocalı şəhərində görüş keçirilib. Həmin görüşün və martın 13-də təqdim edilmiş dəvətin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyası aprel ayının birinci həftəsi Bakı şəhərində görüşün keçirilməsini bir daha təklif edib.

### Ermənilərin spekulyativ addımları və təxribatçılığı dərhal adekvat cavabını alır

Hayastanın sülh prosesinə kölgə salan hərəkətlərinə gəldikdə, onu da qeyd etmək yerinə düşər ki, bu ölkənin prezidenti də təxribatçı hərəkətlərdən çəkinmir. Belə ki, bu ölkənin prezidenti İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibəsində Azərbaycana qarşı növbəti əsassız iddialarla çıxış edib. Sülh prosesinin inkişaf etdirilməsi istiqamətində beynəlxalq təşəbbüsləri heçə sayan bu kimi iddialar, əlbəttə ki, bölgədə vəziyyətin qəsdən gərginləşdirilməsinə xidmət edir. Bunlarla yanaşı, Hayastan Avropa İttifaqının bu ölkədəki missiyasının yerləşməsindən sui-istifadə edərək vəziyyəti qəsdən gərginləşdirmək istiqamətində siyasət yürüdür.

Hayastan sülh prosesini pozmaq üçün həmçinin Laçın yolu ilə bağlı manipulyasiyalar edərək beynəlxalq ictimaiyyəti aldatmağa cəhd göstərir, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərimizə silah-sursat daşıyır, təxribatlar törədir. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə martın 25-də telefon danışığı zamanı bu barədə məlumat verən Prezident İlham Əliyev Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə Ermənistan tərəfindən silah-sursat və şəxsi heyətin daşınması prosesinin hələ də həyata keçirildiyini bildirib.

Ermənilərin alternativ yollarla Qarabağa silah və sursat daşıdıqları Azərbaycana əvvəldən də məlum idi. Eyni zamanda Azərbaycan bunun qarşısının alınması üçün bir neçə dəfə xəbərdarlıq etmişdi. Bir neçə gün əvvəl isə erməni separatçılarının mühəndis və xüsusi texnika cəlb edilməklə Qarabağa silah və sursat daşımaq üçün alternativ yolun tikintisini apardıqları aşkar olundu. Bu baxımdan ordumuzun bölmələri tərəfindən Laçın yolunun şimalında torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən ərazilərimizə silah-sursat daşımaqla vəziyyətin daha da gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısını almaq məqsədilə müvafiq nəzarət tədbirlərini həyata keçirməsi göstərdi ki, Azərbaycan ermənilərin separatçı əməllərinə heç vaxt seyrçi qala bilməz.

Son proseslər göstərir ki, Azərbaycan Vətən müharibəsindən sonra yaranan reallıqlar fonunda öz milli maraqlarını layiqincə təmin edir. Eyni zamanda Azərbaycan Hayastanın bu prosesə kölgə salmaq imkanlarını məhdudlaşdırır, İrəvanın spekulyativ addımlarını, təxribatçı əməllərini dərhal neytrallaşdırır. Ümumiyyətlə isə Hayastanın sülh prosesinə qarşı dirənişi və təxribatçılığı hər bir halda onun özünə baha başa gəlir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qarabağda yaşayan ermənilər Azərbaycan dövlətinin onlara təklif etdiyi fürsəti dəyərləndirməlidir

Azərbaycan dövləti Cənubi Qafqazda sülhün, əmin-amanlığın, xalqlar arasında mehriban qonşuluq münasibətlərinin yaranmasına hər zaman sadiqlik nümayiş etdirib.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, professor Kamilə Əliyeva söyləyib.

Deputat qeyd edib ki, Vətən müharibəsindən əvvəl Prezident İlham Əliyev bölgədə sülhün bərqərar olması üçün Azərbaycan Respublikası ərazisində Qarabağa yüksək statuslu mədəni muxtariyyət verilməsinə razı olması barədə dünya ictimaiyyətinə dəfələrlə bəyan edib. Onun sözlərinə görə, Ermənistan rəhbərliyi dövlətimizin başçısının təklif etdiyi bu şansdan yararlanmaq əvəzinə ölkəmizə qarşı təxribat xarakterli bəyanatlar səsləndirməyə başlayıblar. Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır nöqtə" deməsi sülh danışıqlarının iflasına səbəb oldu. Azərbaycan Prezidenti bundan sonra münaqişənin yeganə həll yolunun müharibə olduğunu vurğuladı.

"Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günə torpaqlarımızı işğaldan azad etdi. Ermənistan rəhbərliyi üçtərəfli Bəyanatda kapitulyasiya aktına imza atmaqla Azərbaycan dövlətinin bütün şərtlərini qəbul etdiyini bildirdi. Azərbaycan dövləti qalib ölkə olaraq bir daha humanistlik göstərərək Ermənistana sülh sazişi bağlamağı təklif etdi. Ermənistan dövləti isə Azərbaycanın sülh təklifini pozmaq üçün Qarabağda təxribatlar törətməyə davam etdi. Dövlətimizin başçısı bir daha humanistlik göstərərək bölgədə xalqların bir yerdə sülh şəraitində yaşamaları üçün Qarabağda yaşayan erməniəsilli azərbaycanlılarla dialoq qurmağa hazır olduğunu bəyan etdi. Bu məqsədlə cari ilin mart ayının 1-də Xocalı şəhərində ermənilərlə görüş təşkil edildi və onların Azərbaycan cəmiyyətinə inteqrasiya olunması, Azərbaycanda təhlükəsiz şəraitdə yaşamaları, eləcə də Azərbaycan qanunları çərçivəsində onlara hər cür şərait yaradılacağı barədə zəmanət veriləcəyi haqqında məlumat verildi", - deyə K.Əliyeva diqqətə çatdırıb.

O bildirib ki, bu görüşün davamı olaraq növbəti görüşün Bakıda keçirilməsi üçün Prezident Administrasiyası Qarabağdakı ermənilərə təklif göndərib. Əfsuslar olsun, ermənilər bu günə kimi bu təklifə cavab vermirlər. Separatçılar Qarabağda yeni təxribatlar törətməyə səy göstərirlər. Ermənistandan gizli yollarla Qarabağa silah sursat, canlı qüvvə gətirirlər.

Bu işdə Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin də ermənilərə yardım göstərdiyini diqqətə çatdıran K.Əliyeva deyib: "Bir neçə gün bundan əvvəl Azərbaycan Ordusu Ermənistandan silah daşınan gizli yollara nəzarəti ələ keçirdi. Bu, Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə tamamilə uyğun və ərazilərində öz suverenliyinin bərpasına yönəlmiş bir addımdır. Ermənistan Azərbaycan dövlətinin sülhün bərpasına yönəlmiş reallığı qəbul etməlidir. Qarabağda yaşayan ermənilər də Azərbaycan dövlətinin onlara təklif etdiyi sülh naminə dialoqu dəyərləndirməli və onlara verilmiş bu şansı qiymətləndirməli, eləcə də Azərbaycan dövlətinin qanunlarına uyğun davranmalıdılar.

"Əgər Qarabağda yaşayan ermənilər onlara verilmiş bu son şansı da dəyərləndirməsələr, Azərbaycan dövləti beynəlxalq hüququn prinsiplərinə uyğun müvafiq tədbirlər həyata keçirməyə məcburdur", - deyə Kamilə Əliyeva vurğulayıb.

## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İran Azərbaycana düşmən münasibəti göstərir

*Əvvəli 1-ci səh.*

İranın Azərbaycana qarşı qərəzi bir deyil, beş deyil ki saymaqla qurtara...

İran uzun illər Xəzərin statusuna qarşı dirəniş göstərdi. Hətta ən yüksək səviyyəli görüşlərdə mollalar Xəzəri "Mazandaran gölü" adlandırmaqdan belə çəkinmədilər. SEPAH yetkililərindən Xəzərdəki neft yataqlarımızı vuracaqları ilə açıq-aşkar hədələr də eşitdik. Müxtəlif zamanlarda İranın hərbi təyyarələri sərhədlərimiz boyu təxribat xarakterli uçuşlar etdi, hərbi katerləri su səhədlərimizi kobud surətdə pozdu. Bunlardan daha pisi, daha təhlükəlisi isə İranın Azərbaycanda özünün geniş casus şəbəkəsini yaratması oldu. Molla rejimi gah tezliklə Azərbaycanda islam dövləti quracaqlarını, gah da lazım gələrsə, Bakını tutacaqlarını həyasızcasına dilə gətirdi. Azərbaycandan İrana müalicə, alış-veriş üçün gedən zəif iradəli, imkansız şəxsləri pul, şantaj yolu ilə ələ alıb casusluğa cəlb etdi. Topladıqları kəşfiyyat materiallarını Ermənistana ötürdülər.

İkinci Qarabağ savaşından sonra Hayastanın sarsıdıcı məğlubiyyətə uğraması İranın Azərbaycana qarşı bütün gizlin niyyətlərini üzə çıxartdı. Bu ölkənin Azərbaycanla mübarizəsi, daha doğrusu, düşmənçiliyi tam açıq müstəviyə keçdi. Burada bir məsələyə diqqət yetirsək, İranın "pərtliyi"ni anlamaq o qədər də çətin olmaz. İllərdir Hayastanı silah, sursat, əsgəri qüvvə, kəşfiyyat məlumatları ilə təmin edən İran Hayastanın məğlubiyyətini həzm edə bilmədi. Təbii ki, İran Azərbaycandakı casus şəbəkəsini saxlamaq üçün onlara yalnız namaz qılmaq üçün "möhür", "təsbeh" bağışlamırdı. Küllü miqdarda vəsait xərcləyirdi. "Ayətullah"lar anladılar ki, onların xüsusi xidmət orqanlarının ələ aldıqları casuslar da özləri ağılda olub. İrana ötürülən yalan-dolan məlumatlar olub. Azərbaycan Ordusunun gücü, silah-sursat təchizatı barədə məlumatlar müharibə başlayana kimi ciddi qorunub və bunu təsbehli, saqqalı cənablar hiss etməyiblər. İş o yerə gəlib çatdı ki, başını itirən molla rejimi 50 minlik bir ordu ilə sərhədlərimizə qədər gəlib, hərbi təlimlər adı altında Azərbaycana güc nümayiş etdirmək niyyətinə düşdü. Zəngəzur dəhlizinin açılmasını sərhədlərin dəyişdirilməsi kimi yozaraq bunu özünün qırmızı cizgisi elan etdi, ölkəmizə qarşı hədyanlar yağdırdı. Hayastana pilotsuz uçuş aparatları, hərbi mütəxəssislər göndərərək hayları müharibəyə şirnikdirməklə məşğul oldu. Hətta açıq-aşkar Azərbaycanın daxili işlərinə qarışmaq həvəsinə düşdülər. Azərbaycanın İsraildə səfirlik açmasına qarşı aşkar təhdidedici çıxışlar etdi. Azərbaycan Prezidenti İsrailə səfir təyin etdiyi günlərdə ölkəmizin İrandakı səfirliyinə silahlı hücum təşkil edərək qanlı terror törətdi.

Bu arada İranın Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı siyasəti daha da qəddarlaşdı. İş o yerə gəlib çatdı ki, soyuq, qarlı, şaxtalı havada Xoyda baş vermiş zəlzələ zamanı soydaşlarımıza dövlət səviyyəsində yardım da edilmədi. İnsanlar, necə deyərlər, taleləri ilə baş-başa buraxıldı. Sosial tələblərlə küçələrə çıxıb etiraz edən soydaşlarımıza qarşı daha amansız münasibət sərgiləndi. Edamlar, həbslər kütləvi hal aldı.

Molla rejimi əhalini çaşdırmaq üçün daxildə baş verən sosial partlayışı xarici faktorlarla əlaqələndirməyə çalışdı. Hakimiyyətləri, lüks həyatları naminə şeytanla da ittifaqa getməkdən çəkinməyən "ayətullah"lar günahı apardıqları siyasətdə, ayrı-seçkilikdə, islam və insanlıq qanunlarına zidd əməllərdə axtarmaqdansa "sionist" rejimini günahlandırdılar. Niyə? Əhalini çaşdırıb daxili narazılığı xarici faktora yükləmək üçün. Əhalinin diqqətini yayındırmaq üçün. Molla rejimi hesab edir ki, özünün despotik ömrünü uzatmaq, sosial-siyasi tələblərlə hər gün küçələrə çıxan, haqqını-hüququnu tələb edən əhalinin başını qatmaq üçün hansısa bir yol tapmalıdırlar. Ona görə də ən yaxşı variant hələlik Azərbaycanı şantaj etmək olduğunu düşünürlər. Hələlik İran ölkəmizi hədələməklə, terror aktları törətməklə ələ aldığı "dindarlar" vasitəsilə daxildə narazılıqlar salmağa cəhd göstərməklə, təxribatlar törətməklə məşğuldurlar.

Bir məsələyə də diqqət yetirək. İranın ölkəmizə olan qərəzli münasibəti, dünyanın supergücləri, Azərbaycanın dostları tərəfindən ciddi izlənilməkdədir.

Məlum olduğu kimi, ABŞ dövlət katibi Azərbaycan-ABŞ ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini bildirmiş, enerji təhlükəsizliyi, regional təhlükəsizlik sahələrində əməkdaşlığı qeyd edərək "Cənub qaz dəhlizi" layihəsinin uğurla icra edilməsinin əhəmiyyətini vurğulamış, Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyada iştirakını yüksək qiymətləndirmişdir, eyni zamanda Azərbaycanın İranla böyük bir sərhədə malik olduğunu nəzərə alaraq ABŞ Konqresinin "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişinin bu il aradan qaldırılmasının vacib olduğunu bildirmişdir.

Bu günlərdə ABŞ dövlət katibi A.Blinken Prezident İlham Əliyevlə telefon danışığı zamanı artıq 907-ci düzəlişin müvəqqəti olaraq aradan qaldırıldığını bildirib. Bizcə, əlavə şərhə ehtiyac yoxdur. İran ağıllı olub başını "dəmir yumruğ"a sürtməməklə hələlik müvəqqəti olsa da, rejimin ömrünü uzada bilər. Əks halda "ayətullah"lar anlamalıdırlar ki, mübarizəni Azərbaycan Respublikası ilə yox, Arazın o tayında yaranmış Cənubi Azərbaycan Respublikası ilə aparmalı olacaqlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İran PUA-lar müqabilində Rusiyadan kibersilah alır

## ABŞ Moskva ilə Tehran arasında hərbi ittifaqın güclənməsinə təhlükə kimi baxır

Rusiya İrana kibersilah almaqda, rəqəmsal müşahidə imkanlarını genişləndirməkdə kömək edir. Bunun müqabilində Kreml Tehrandan Ukrayna şəhərlərinə zərbələr endirmək üçün kamikadze dronları alır.



Bu barədə Nyu Yorkda çıxan gündəlik "The Wall Street Journal" qəzeti məlumat yayıb. Məqalədə qeyd edilir ki, ABŞ Moskva ilə Tehran arasında hərbi ittifaqın güclənməsinə təhlükə kimi baxır.

Bildirilir ki, Tehran Moskvaya təkcə "Şahedlər" deyil, həm də yaxın mənzilli raketlər, eləcə də tank və artilleriya mərmiləri tədarük etməyə razılaşdıqdan sonra bu ölkələr arasında kibertexnologiyalar sahəsində əməkdaşlıq intensivləşib. Bunun müqabilində İran Rusiyadan təkcə kibersilahlar deyil, həm də hücum helikopterləri, reaktiv qırıcıları və uzaqmənzilli raketlər alacağını gözləyir.

Rusiya və İran inkişaf etmiş kiber imkanlara malikdir və uzun müddətdir bir-biri ilə əməkdaşlıq edir. Analitiklərin dediklərinə əsasən, iki il əvvəl tərəflər kibermüdafiə şəbəkələrinə diqqət ayıran kiberəməkdaşlıq sazişi imzalayıb.

Bununla belə, Ukraynaya genişmiqyaslı işğalın başlanmasından sonra Rusiya İrana rabitə izləmə, dinləmə və fotoqrafiya cihazları və yalan detektorları sahəsində öz yeni texnologiyalarını təqdim edib. Moskva yəqin ki, müxalifətçilərin və dissidentlərin mobil telefonlarını və kompüterlərini "sındırmaq" üçün Tehranla proqram təminatı paylaşıb.

Rusiya rəsmiləri belə qənaətə gəliblər ki, İranla hərbi əlaqələrin inkişaf etdirilməsinin faydaları digər zərərlərdən daha çoxdur.

Nəşrin Kanadadakı Toronto Universitetinin "Citizen Lab" tədqiqat mərkəzinin sənədlərinə istinadən verdiyi məlumata görə, Rusiyanın "Protei Ltd" şirkəti İranın "Ariantel" mobil operatorunu internetin senzurası üçün proqram təminatı ilə təchiz etməyə başlayıb.

Kibertəhlükəsizlik üzrə analitiklərin fikrincə, "Protei Ltd" hökumətlərə telefon rabitəsi, elektron poçt və kredit kartı əməliyyatlarına nəzarət etmək üçün nəzərdə tutulmuş aparat və proqram təminatı hazırlayır. Şirkətin Rusiya Federasiyasının Müdafiə Nazirliyi ilə müqavilələri var.

Xatırladaq ki, bir müddət əvvəl Britaniyanın "Financial Times" qəzeti ABŞ-nin Ukraynanı ATACMS raketləri ilə təchiz etməyə başlayacağından ehtiyatlanaraq Rusiyanın İrandan ballistik raketlər almaqdan çəkindiyini bildirən məqalə dərc edib. Nəşrin təmsilçiləri hesab edirlər ki, Rusiya və İran hərbi əməkdaşlığın gücləndirilməsinə şübhə ilə yanaşırlar. Çünki Qərb Tehrana bunun mümkün nəticələri barədə sərt xəbərdarlıq edib.

Eyni zamanda İranın nüvə silahı yaratmağa yaxın olduğu da aşkarlanıb. Tehranın öz nüvə bombasını əldə etməsinə cəmi bir neçə ay qaldığı bildirilir.

ABŞ və İsrail İranın nüvə proqramını dayandırmaq istəyirlər, lakin dünyada mövcud vəziyyət elədir ki, bunun hərbi qarşıdurma olmadan diplomatiya yolu ilə həll etmək imkanları getdikcə azalır.

Britaniyanın "Sky News" telekanalı daha əvvəl bildirmişdi ki, İran Ukraynaya qarşı müharibə aparmaq üçün gizli şəkildə Rusiyaya çoxlu sayda patron, raket və minaatan mərmiləri verib. Tehran həmçinin yeni hərbi təchizat planlaşdırır. Tehran rəsmiləri isə bildirirlər ki, İran və Rusiya Federasiyası arasında müdafiə sahəsində əməkdaşlıq hansısa bir tərəfin maraqlarına zidd deyil. Bu barədə İSNA agentliyinə xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan məlumat verib.

İranlı diplomat PUA müqabilində İranın Rusiyadan müşahidə və kibertəhlükəsizlik avadanlıqları alması ilə bağlı iddialara da münasibət bildirib: "Əlbəttə, müdafiə sahəsində əməkdaşlıq Tehran və Moskvanın ümumi gündəliyində yer alan məsələlərdən biri olaraq qalır. Bizim əməkdaşlığımız digər hansısa bir tərəfin maraqlarına zidd deyil".

İranın xarici işlər naziri Moskvada keçiriləcək görüşdə rusiyalı həmkarı Sergey Lavrov ilə regional və beynəlxalq məsələləri müzakirə edəcəyini və nüvə anlaşması ətrafında danışıqlara dair fikir mübadiləsi aparacağını da bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Hayastanın məkrli niyyəti iflasa uğrayacaq

**Laçın-Xankəndi yolunda dinc aksiya davam edir. Aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər.**







Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəalların, könüllü gənclərin və qeyri-hökumət təşkilatları (QHT) təmsilçilərinin Şuşa şəhərində, Laçın-Xankəndi yolunda başladıqları etiraz aksiyası 109 gündür belə keçirilir. Ərazidən Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillər maneəsiz hərəkət edir. Baş verənlər etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı Ermənistan mətbuatında yayılan xəbərlərin əsassız olduğunu təsdiqləyir. Bu dəfə də, necə deyərlər, erməni yalanları ayaq tutsa da, yeriyə bilmir.

Aksiya iştirakçıları ilk günlərdə olduğu kimi, bu gün də israrla bildirirlər ki, öz məqsədlərinə tamamilə çatmayana qədər Laçın-Xankəndi yolunda aksiyalarına son qoymayacaqlar. Məlum olduğu kimi, Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə ötən il dekabrın 3-də və 7-də aparılmış müzakirələrin nəticəsi olaraq, Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Sülhməramlıların hərəkətsizliyi səbəbindən monitorinq həyata keçmədi. Azərbaycanlı ekofəallar, könüllü gənclər və QHT nümayəndələri buna etiraz olaraq, dekabrın 12-dən Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dinc aksiyaya başladılar.

Azərbaycan xalqının məramı hər zaman aydın olub. Öz ölkəsində dinc, sülh şəraitində, əmin-amanlıq içərisində yaşamaq. Bu, xalqın arzusu, məqsədlidir.

Hayastan otuz ilə yaxın işğalda saxladığı ərazilərimizi xarabaya çevirdi. Qəhrəman Azərbaycan Ordusu 2020-ci ilin sentyabrında Hayastanın təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində həmin yerləri azad etdi. Azərbaycan dövləti müharibə başa çatdıqdan sonra həmin ərazilərdə geniş və sürətli quruculuq işlərinə başladı. Azərbaycan xalqının ən böyük istəyi Qarabağda və Şərqi Zəngəzurda həyatın yenidən öz axarına düşməsidir.

Təəssüf ki, Hayastan hələ də məkrli niyyətindən əl çəkməyib. İşğalda saxladığı müddətdə viran etdiyi, mina tarlasına çevirdiyi Azərbaycan ərazilərində hələ də təxribatlar törətməkdən çəkinməyib. Təcavüzkar dövlət İkinci Qarabağ müharibəsindən sonra da mənfur əməllərini davam etdirib. Məlumdur ki, Hayastanın tam xəritəsini verməkdən imtina etdiyi minalar yalnız işğal dövründə və müharibə zamanı basdırılmayıb. İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycan ərazisində erməni vandalları mina terroru törədiblər.

Erməni separatçılarının son vaxtlar yenidən fəallaşmağa başlaması da hər kəsə bəllidir. Bunu Azərbaycan ərazisində yaşayan separatçılar üçün hərbi təyinatlı vasitələr - silah-sursat, mina, həmçinin canlı qüvvə daşınmasının intensivləşməsi də təsdiq edir. Təəssüfedici məsələlərdən biri də budur ki, bütün bunlardan regionda müvəqqəti yerləşən sülhməramlıların nəinki xəbərləri var, bu hətta onların müşayiəti ilə reallaşır.

Azərbaycan tərəfinin bununla bağlı çoxsaylı müraciətləri hələ ki müsbət nəticələnməyib. Erməni separatçılarının qanunsuz əməllərinin qarşısının alınması istiqamətində gərəkli tədbirlər görülməyib. Hər zaman olduğu kimi, qanunsuz əməllərinə görə, beynəlxalq səviyyədə cavab verməsinin tələb olunmaması, cəzasızlıq Hayastanı arxayınlaşdırır.

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına müraciətində bir daha Ermənistana xəbərdarlıq etdi. Dövlət başçısı dedi: "Əfsuslar olsun ki, bu gün İkinci Qarabağ müharibəsinin ibrət dərsi Ermənistana hələ ki, dərs olmayıb. Çünki biz görürük ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıb. Ermənistanda yenə də Azərbaycana qarşı, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırılır. Biz Ermənistan rəhbərliyini bu çirkin əməllərdən çəkindirmək üçün xəbərdar edirik. Ermənistanın arxasında dayanan bəzi ölkələri də bax buradan - azad edilmiş Talış kəndindən xəbərdar edirik ki, əl çəkin bu çirkin əməllərdən. Azərbaycan dövlətinin, xalqının iradəsinə heç bir kənar qüvvə təsir edə bilməz".

Aradan çox böyük zaman ötməyib. Lap ötsə belə, Hayastan İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusu tərəfindən elə məğlub edilib ki, bunu gərək əsrlər sonra da unutmasın. İşğalçı dövlət müharibə dövründə Azərbaycanın gücünü gördü və hər bir cinayətkar əməlində, məkrli niyyətində yenidən görəcək.

Azərbaycan dövləti yaradılan bütün problemlərə rəğmən işğaldan azad olunmuş ərazilərində tikinti-bərpa, quruculuq işlərini davam etdirir. Qarabağda, Şərqi Zəngəzurda yeni yollar çəkilir, evlər tikilir. Azərbaycanlılar otuz il sonra öz dədə-baba yurdlarına dönürlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Sülhməramlıların avtomobil karvanı aksiya ərazisindən maneəsiz keçib






Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edir.

AZƏRTAC xəbər verir ki, Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus 34 təminat-təchizat, altı minik və "UAZ" markalı bir avtomobili aksiya ərazisindən maneəsiz keçib. Bundan əlavə, sülhməramlıların bir təminat avtomobili Xankəndiyə gedib.

Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 2 dekabr (Bazar ertəsi günü) tarixli 54-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 27 səfərülmüzəffər sənə 1337.
2 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubladir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### ELAN

Bununla "Azərbaycan" qəzetəsi idarəsi elan edir ki, həmin qəzetənin intişara [nəşrə] başladığı günədək Qafqazda türk və rus lisanlarında nəşr edilmiş qəzetə, jurnal, əkslər [fotoşəkillər], tarixi məlumat və Azərbaycan həyat və mədəniyyətində əhəmiyyəti olan asarı [əsərləri] idarəyə təqdim edənlərə gözəl mükafat veriləcəkdir. Arzu edənlər Vorontsovski caddədə 4 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə saat 10-dan 2-yə kimi müraciət etməlidirlər. Telefon nömrə 39-60.

*b/8 5-3*

### BAKI, 2 KANUNİ-ƏVVƏL [DEKABR]

İki gün əvvəl yazdığımız baş məqalədə Mütəffiqlərin şəhərimizə vürudundan [gəlişindən] istifadə edərək paytaxtımızı istila edən hariflərin fəaliyyəti mövzuyi-bəhs olmuşdu. Bunların içindən ən ciddi fəaliyyət göstərən və hər bir vasitədən çəkinməyən ələlxüsus [xüsusilə] bir dəstə vardır ki, əzaları [üzvləri] adlarını "ictimaiyyuni-inqilabiyyun" (sosial-revolyusioner) qoymaqla özlərini füqərayi-kasibə [proletariat] və demokratiya [xalq] mənafeyi "müdafiəçisi", "qəhrəmanı", "patriotu" [adını] daşımağa layiq və haqlı bilirlər. Hər bir an "demokratiya"dan dəm vuran bu həriflərin siması bizə çox gözəlcə tanışdır. Bunlar Mart hadisatından [hadisələrindən] sonra bolşeviklərin o yan bu yanına keçib də özlərini "Sovet hökumətinin" ən sadiq qulu və ona ixlasi-qəlblə [ürəkdən] xidmət edən hariflər de-yilmidir?

Adlarını "sosialist" qoyub da bir o qədər əbəs yerə tökülən qana qarşı heç bir etirazda belə bulunmayan hariflər bunlar deyilmiydi?

Bunların yaxın yoldaşları və həmdaşları olan "menşeviklər" heç olmazsa "Bu, qrajdanski müharibə olmayıb, bəlkə milli qırğın idi" deməklə bir qədər öz sosialistlik vəzifələrini ifa etdilər və buna görə də vasiteyi-nəşriyyatları [nəşriyyat vasitələri] olan "Naş qolos" bolşeviklər və daşnaklar tərəfindən qapandı. Lakin, Bakı "Sosial-Revolyusioner" firqəsinin başında duran həmin bu hariflər bunu da etiraf etməyib, "bolşeviklərə" iltica etməklə [qoşulmaqla] öz vasiteyi-nəşriyyatlarını davam etdirib və özlərinə "yağlı" yerlər və mənsəblər qazandılar.

Hələ burası azdır. Həmin bu hariflərin "mötəbər" iş başçıları cümləsindən olan Nacarovlar, Əmirov və Lalayanların Şamaxı müsəlmanlarına eylədikləri təzəllümünü [zülmünü] bəraətə vermək qəsdi ilə həmin bu "Znamya truda"da, – ki indi həqiqət "Russkoye znamya" rəngini almışdır – məqalə nəşr edib, viran edilən biçarə Şamaxı müsəlmanlarının Osmanlıya olan meylindən dəm vururdu və min cürə yalan və böhtan ilə halı təsvir edib, hətta Bakının küçələrində erməni dığalarının virdi-zəbanı [dillərinin əzbəri] olan "bir-iki, Qafqaz bizimki" küçə hücumunu Şamaxı müsəlmanlarının "milli marşı" istinadını verirdi...

"Bolşeviklərin" dost və mühibbi [məhəbbət bəslədiyi şəxs] olan bu dəstə, Biçeraxov Bakıya gəldikdən sonra daşnakların onun tərəfinə keçməsini görən kimi, simalarını dəyişib "rus patriotu" oldular və ingilislər tərəfinə meyl göstərdilər. Bakıdan ağızları yandıqdan sonra, Bakı demokratiyasının bütün əmlakını paraxodlara doldurub Petrovska getdilər və orada bu üç cift [cüt], bir tək adam "Qafqaz və Məvərayi-bəhri-Xəzər" namında bir "hökumət" yaptılar. Şayani-diqqət [diqqətəlayiq] bir cümlə: Bütün Qafqaz və Məvərayi-bəhri-Xəzər islamları ilə əlaqədar olacaq həmin bu "hökumət" heyətinə heç olmazsa görkəm üçün bir nəfər belə müsəlman buraxmadı! Hakimiyyət əsəbiyyəti [ehtirası] o dərəcədə bu hariflərin dimağlarına [beyinlərinə, şüurlarına] girmiş idi.

Qafqaz və Məvərayi-bəhri-Xəzər Hökuməti, türk və ləzgilərin hücumu sayəsində Petrovskdan dəxi qaçıb özünə paraxodlardan siva [savayı, başqa] bir paytaxt tapa bilmədi. Sonra da Ənzəliyə pənah aparıb, indi Müttəfiqlərin vürudu [gəlişi] sayəsində yenə Bakıya "təşrif" gətirmişlərdir. Burada indi bolşevik deyil, rus millətçilərinə və dargöz şovinistlərinə istinadən [söykənərək] işə şüru etmişlər [başlamışlar]. Nəşrini davam etdirdikləri qəzetənin birinci sütunlarından məmləkətimizdə fitnə və fəsad törətmələri aşkar olunur. Hər gün qəzetələrində dürlü-dürlü həzəyanlar [hədyanlar] yazıb, hökumətimizi və məmləkətimizi fəna nəzərə verməkdə böyük bir qabiliyyət və ciddiyyət göstərməkdədir. Tənqid deyil, – buna kimsənin sözü olmaz – lakin açıq-açığa təşviqat və təhrikatda (provokasiya) bulunub, ruslarla Azərbaycan türkləri arasında ziddiyyət və müxalifət törətməyə çalışırlar. Bunların bu cinayətlərinə məəttəəssüf [təəssüflər olsun ki], indiyə kimi müəyyən bir müqavimət göstərilməyir.

Təəccüb şey burasıdır ki, "Kaspi" qəzetəsində adi bir balaca felyeton şəklində yazılan bir cümləyə bunlar "demokratlar müşavirəsində" (ki, əksəri özlərindən ibarətdir) ciddi bir etiraz qərarı verdirdilər. Lakin, özləri balaca felyeton deyil, bəlkə hər məqalələrində provokasiya ilə məşğul olurlar.

Buna qarşı etiraz edici bir adam tapılmayırmı əcəba? Bununla biz "Kaspi"nin felyetonçusunu təhti-müdafiəyə [müdafə altına] almaq istəməyiriz. Lakin bunu demək istərik ki, həmin "demokratlar müşavirəsində" iştirak edən zəvati-kiramdan [möhtərəm şəxslərdən] bir nəfəri belə tapılmadı ki, həmin mülahizəni Bakı "Sosial-Revolyusioner" firqəsi vasiteyi-nəşriyyatı olan "Znamya truda" qəzetəsi xüsusunda dəxi ədalət nöqteyi-nəzərincə yerli tapa [münasib görə]?

Həmin qəzetənin yazdığı başdan ayağa hamısı provokasiyadan ibarət deyilmidir?

### HÜQUQİ-MİLLİYYƏMİZDƏN DÖNƏRMİYİZ?

Bütün Avropanı və Asiyanı məskun edən millətlər sırasında biz Azəri türkləri də xüsusi bir yer tuturuz. Biz də başqaları kimi xüsusi ənənata [ənənələrə], xüsusi mədəniyyətə malikiz. Bugünkü istiqlaliyyət tələbindəki millətlərdən ən geniş hüquqa malik olmaq istəyən lehlər [polyaklar] isə, biz onlardan da belə geri durmayırız. Bizim lehlər tarixindən də parlaq tariximiz və ənənatımız var. Bizim hüquqi-milliyyəmizi heç kəs danammaz, əleyhimizə söz söyləyəmməz.

Biz başqaları kimi cahangirlik yapmaq, başqalarını qul etmək xəyalında olmadığımız kimi, başqalarına da qul olmaq istəməyiriz. Biz hüquqi-milliyyəmizin özümüzə qaytarılması[nı], müqəddəratımızın öz əlimizə verilməsini istəyiriz. Təbii ki, əql və vicdan sahibləri bizə yox deməyəcək.

Qoy, qaragüruhçuluq yapanlar, cahangirlik amalı bəsləyənlər üzərimizə dəhşət meydanı oxusunlar. Qoy, bizi silah qəzəbi ilə, bazu zoru ilə qorxutsunlar. "Xox" deyə bizə buynuz göstərsinlər.

Biz kirdkarımızı [tanrımızı] itirməyəcəyiz. "Millət əza [əziyyət, cəfa] çəkərsə, puç olmaz" müfadınca [mənasına uyğun olaraq], biz də əza çəkməyə hazır və amadəyik. Nə olursa olsun, hüquqi-milliyyəmizi hər dəqiqədə, hər saniyədə belə nə kimi vəsait lazım gələcəksə, o vəsaitlə müdafiə etməyə hazırız!

Heç bir çamurlu çizməni [çəkməni], müqəddəs saydığımız hüquqi-miliyyəmiz üzərinə saldırmarıq, millətimizin müqəddəratını heç bir qaragüruha tapşırmarıq. Mədəni isək, vəhşi isək, bizim üçün təfavüt eyləməz, fəqət, millətik! Millətə məxsus hüquq istəyiriz. Mütəəssib [təəssübkeş, mühafizəkar] deyəcəklər desinlər, fanatik deyəcəklər desinlər. Bizim üçün təfavütü yoxdur.

Mütəəssib olmayanları da, fanatik olmayanları da görmüşdük, görürük, yenə də həmən "abid" [özünü ibadətə həsr edən şəxs] libasında görəcəyiz.

Müsavat, ədalət bağıranların "müsavat, ədalətini" milyon dəfələr görmüşük.

Mart hadisatından sonrakı "füqərayi-kasibəçilər" [proletarçılar], daha sonra "xalq və kəndçilər tərəfdarlarını" da gördük. "Xalq", "rəncbər" bağıran daşnakların xalqı fəqət [yalnızca, sadəcə] daşnaklar, "kəndçilər" bağıran "inqilabiyyunların" [inqilabçıların] kəndçiləri fəqət [yalnızca] bir ovuc qaragüruh olmuşdu. Bu gün Azərbaycanda iki milyondan ziyadə islam, 700 minə qərib [yaxın] də başqa millətlər var. "Kəndçilər tərəfdarları" isə məsələni əksinə həll etmişdilər: müsəlmanı yox, başqalarını vücud hesab etmişdilər.

İşbu günlərdə Bakıda iniqad etmiş [baş tutmuş] demokratlar müşavirəsində yenə "kəndçilər" namından [adından] "kəndçilər qəyyumları" hökumət təşkili barəsində müzakiratda bulunmuşlardır.

Bunlar müsəlmanları, türkləri Azərbaycana dəvət etməkdə müttəhim tuturlar. Qəribə deyilmi? Bunların əqidəsincə biz müqəddəratımızı dünənki beynəlmiləlçi, hərgünkü demokrat, yarınki intiqamçılara verməliymişik! İşbu yeni demokratlar, türkləri çağıranlar əleyhinə qalxışanlar, Mart hadisatı, Şamaxı qırğını, Quba qırğını, İrəvan vəhşilikləri baş verəndə nerədə idilər əcəba?

Biz, deməli, müqəddəratımızı qazaya verərək, "Haydı, gəl, döy, qonşu, demokratlar böylə istəyirlər" deyə arxamızı həriflərə çevirməli imişik! Bağışla, kənardan gəlmə demokrat, sən özünü millət üçün saxlayıb hökumət dilədiyin kimi, millət də özünü özü üçün saxlamalı idi.

Biz sizi də tanıdıq, başqalarını da tanıdıq və tanırız.

Nə yapacaqsanız yapınız, nə yapacaqlarsa yapsınlar, biz hüquqi-milliyyəmizdən dönməyəcəyiz. Öz müqəddəratımızı özümüz həll etməyə qadiriz, qəyyuma ehtiyacımız yoxdur!

*Ayn. Ayn.*

### MƏHSULUMUZ NƏ OLDU?!

*"Artıq bitir şu səhnəni, ey müftəris dəha,*
*Endir şu qanlı pərdəni, ey rəhnümayi-şər,*
*Endir də bir qədər nəfəs alsın bəni-bəşər!"*

*H. Cavid*

Artıq bitir... Bəşəriyyətin vücuduna sarılıb onu boğan, çignəyən [əzən] mühib [qorxunc] əjdəha, dəhşətli divi-hərb [müharibə divi] zavallı qurbanını buraxmaq, azad etmək istəyir. Tarixi-bəşər beş sənəlik bir kabusdan sonra, bir tənəffüs almaq istəyir. Cahan müharibəsi son günlərini şəhadət edir [görür; yaşayır]. Fəqət bu qorxunc hayiləni [faciəni] son pərdəsi enərkən, onun beş sənəlik tərcümeyi-halını bir dəfə gözdən keçirib, tarixdə buraxdığı qanlı izləri bir kərə də seyr etməlidir.

Beş sənə bundan əqdəm [əvvəl], yəni Hərbi-ümuminin bidayəti [başlanğıcı] əsnasında düvəli-müəzzəmə [böyük dövlətlər] deyilən bir qaç məmləkətin bütün dünyaya hakimiyyətini, hüquqi-beynəlmiləlin bu məmləkətləri təhti-mühafizəsinə [mühafizəsi altına] götürüb ufaq millətləri məhrum buraxdığını, müstəmləkət siyasətləri, bilməm nələr, bəşəriyyəti, ağacı qurd içərisindən yediyi kimi təhdircən çeynəyir və militarizmin gün-gündən kəsbi-qüvvət etməsinə [güclənməsinə] səbəbiyyət verirdi. Həyati-istilamiyyə zahirən rahat keçir sanılırdısa da, həqiqətdə qayət böyük ədalətsizliklər, hakimiyyət, məhkumiyyət törəyirdi. Ədalətsizlik, qanunsuzluq gün-gündən artırdısa da, zahirən tarixin layətə-zalzal [sarsılmaz, möhkəm] qanunları ilə, müstəqim [düzgün] bir yol ilə getdiyi görünürdü.

Nəhayət, bu yalançı asudəliyə, bu saxta intizam aləminə xitam verildi. Hərbi-ümumi cəhənnəmnümun [cəhənnəmi andıran] ağzını açaraq: "Bütün ədalətsizlikləri udacağam" dedi. Fəqət, bunun üçün bəşəriyyətin yarısını, sağlam, gənc bir nəsli də udub, dünya üzündən silmək iqtiza edirdi [lazım gəlirdi]. İştə, gördük, millətlər sağlam, gənc üzvlərini alay-alay, firqə-firqə, ordu-ordu meydani-hərbə göndərərək fəda etdi. Bütün fabrikalar təxrib edici toplar, mərmilər, silahlar, qurşunlar, təhtəlbəhrlər [sualtı gəmilər], daha nələr-nələr yapdılar. İnsanlar qudurmuş qaplan kimi kəndi həmcinslərini hissiz, anlaqsız çeynədilər. Bir çox məsum qanlar axdı, bir çox məbədlər uçdu. Bir çox şəhərlər, bəldələr yer üzündən silindi. Çox tarlalara dənə, buğday əvəzinə qurşunlar və insan kəmikləri əkildi. Xülasə, yerdə, havada, hətta suyun altında belə yalnız "Məhv olsun həyat!" şüarı hökmfərma [hakim] oldu. Mədəniyyət durdu, kin, intiqam onun yerini tutdu.

Nəhayət, iştə, pərdə enir. Artıq hamı bıqdı [bezdi] də afaqımızda [üfüqlərimizdə] sülhcu [sülhə tərəfdar] axıntılar, sülhpərvər fikirlər duyulmağa başladı. "Qələbə", "intiqam" eşidilən ağızlardan indi "sülhi-ümumi", "əbədi sülh" nidaları eşidiriz. Fəqət, bu dəfəki sülh, hərbdən qabaqkı saxta intizam kimi olmasa gərək. Əgər, yenə əski siyasətlər ortaya çıxarsa, yenə əski müstəmləkat həvəsləri meydana gələrsə, yenə bir millət riyakar beynəlmiləl hüququn mühafizəsi ilə balaca millətləri çignəməyə [tapdalamağa] qalxışsa, nəuzübillah [Allah göstərməsin], yenə əski səhnələr təkrarir edərsə [təkrarlansa], əcəba bu qədər nahaq qanlar nə üçün tökülürmüş? On milyonlarla verilən insan qurbanlarını təqdiri-qəza [tale] rədd edərmi? Haşa [ola bilməz; Allah göstərməsin]!

Tarix[in] yeni bir yola düşdüyü, Hərbi-ümumi əski yol ilə yeni şahrah [geniş yol, prospekt] arasında "sərt bir döngə", bir zaviyə [bucaq; tin] olduğu mühəqqəqdir [şübhəsizdir].

Ümid edəlim ki, bu yeni yol bəşəriyyəti əbədi səadətə, sərbəstliyə doğru aparar. İnanalım ki, İttifaqi-Milalin [Millətlər İttifaqının] yaradacağı qanunlar, Avropanın yalançı hüquqi-beynəddüvəlinə [dövlətlər arası hüququna] bənzəməyib, onu riayət etməyə qəvi-aciz [güclü-zəif] hamı məcbur olacaqdır. Bu nöqteyi-nəzərdən baxılarsa, Hərbi-ümuminin bütün vəhşət və dəhşətinə rəğmən bəxş etdiyi mənafe [mənfəətlər] də inkar olunmaz. Fəqət, bu mənfəət və müvəffəqiyyətlərin nə ağır qiymətlərə mal olduğunu [başa gəldiyini] hər millət kəndi dərəcəsində hiss etdi. Ona görə müvəffəqiyyətlərinin də əbədi olmasına çalışıb, sülhi-ümumuni əbədi etməyə səy edəcəkdir.

*Əli Yusif*

### TELEQRAF XƏBƏRLƏRİ
### ("Royter" acentəliyindən)

- Aqramda [Zaqrebdə] cəm olan bütün xorvat firqələri ictimai bir intibahnamə [bəyannamə] nəşr edib, Avstriya-Venqriyanın bütün cənubi slav əyalətlərinin Serbiya və Qaradağla birləşməyini elan etmişdir.

- Kiyev mətbuatının verdiyi xəbərə görə, Müttəfiq dövlətlərin elan etdikləri məlumatında Müttəfiqlər, Getman başda olmaq üzrə, halhazırda davam etməkdə olan Ukrayna Hökumətini etiraf etmək [tanımaq] niyyətindədirlər. Bu ümidlə ki, Müttəfiq dövlət əsgərləri varid olana qədər şəhərlərdə və kəndlərdə asayiş saxlaya bilsinlər. Müttəfiqlərin məqsədlərinin mümaniət [maneçilik] göstərici hər cür iğtişaş və davam etməkdə olan hökumət əleyhinə vüqu bulacaq çıxışlar, şiddəti bir surətdə bərtərəf ediləcəkdir [aradan qaldırılacaqdır].

- Ukraynadakı sabiq "Rada" üzvləri və qeyrilərinin bolşeviklərlə əlaqədar olmaları ilə Ukrayna siyasətində təbəddülat [dəyişiklik] əmələ gəldiyinə görə, iğtişaş başlanmışdır. Ukrayna getmanı Skoropadski qaçmışsa da, Poltavaya yaxın dəmiryol mövqiflərinin birində tutulmuşdur.

- Qerbelin kabinəsi həbs edilmişdir. Siyasət təbədüllatına bais olanlar tərəfindən əhaliyə dəvətnamə nəşr edilmişdir.

### QƏZETƏLƏRDƏN

**Rusiyada bu da bir hökumət**

"P. K." qəzetəsinə təşrini-saninin [noyabrın] 15-də Yekaterinodardan xəbər verirlər ki, bu günlərdə vaqe olan Xüsusi Şura iclasında Könüllü ordu nəzdində olan təzə bir Ümumrusiya Hökuməti təşkil edilməsi qərara alınmışdır. Vəzarət [nazirliklər] bu qərar üzrə təqsim edilmişdir [bölünmüşdür]: Baş vəzir – [A. M.] Draqomirov, Hərbiyyə vəziri – general [A. S.] Lukomski, Hərbiyyə vəziri müavini – general [A. S.] Makarenko, Xariciyyə vəziri – [S. D.] Sazonov, Xariciyyə vəziri müavini – [A. A.] Neratov, Daxiliyyə vəziri – [N. İ.] Astrov, Ticarət və Sənaət vəziri və Şura sədri müavini – [V. A.] Stepanov, Ticarət və Sənaət vəziri müavini – Lebedev, Dəmiryol vəziri – mühəndis [E. P.] Şuberski. Bu surətlə nazirlərin həpsi sağ firqəyə mənsubdur. Qalan portfellər də bu günlərdə məşhur camaat xadimləri arasında təqsim ediləcəkdir. Ukrayna Teleqraf Acentəsinin Yekaterinodar müxbirinin verdiyi məlumata görə, bu Xüsusi Şura Məclisi-Müəssisan üzvlərinin Cənub-Şərq Komitəsi ilə heç bir əlaqəsi yoxdur.

**Odessada Müttəfiqlər**

Təşrini-saninin [noyabrın] 17-sində 9 parə vapordan mürəkkəb Müttəfiqlər donanması Odessaya varid olmuşdur [gəlmişdir]. Müttəfiqləri təntənəli surətdə pişvaz etmişlər [qarşılamışlar].

Bessarabiya-Romaniya təriqi [yolu] ilə gəlmiş Müttəfiqlər qoşunları tərəfindən bütün hərbi qışlalar [kazarmalar] tutulmuşdur. Hər gün yeni qoşunlar gəlməkdədir. Müttəfiqlər bir müraciətnamə nəşr edib, əhalini nizam və asayişi saxlamağa dəvət ilə bolşeviklərlə mübarizə etməyə və Rusiyanı təcdid [bərpa] etmək qəsdi ilə gəldiklərini təbliğ və təbşir etmişlərdir [bildirmişlər].

**Sibiryada Müttəfiqlər**

Mərkəzi İcraiyyə Komitəsinin qəzetəsi təşrini-əvvəlin [noyabrın] 15-ində Müttəfiqlərin Şərqi Sibiryadakı əməliyyatı haqqında böylə məlumat vermişdir:

Londondakı Yaponiya səfarətinin [səfirliyinin] verdiyi xəbərdən görünür ki, eylülün (sentyabr) 22-sində Yaponiya süvariləri düşməni sındırdıqdan sonra Amur dəmir yolunda Ruxlovo mövqifində [stansiyasında] birləşmişlərdir. Hal-hazırda Sibirya, Amur və Şərqi Çin dəmiryolları Müttəfiqlərin əlindədir. Bu dəmiryolların Müttəfiqlər əlinə keçməsinə yapon əsgərlərinin fövqəladə fəaliyyəti bais olmuşdur. Xabarovskda beş yüz şura [sovet] əsgəri varmış. Milaqreşeçensk şəhəri çoxdan təxliyə edilmiş imiş. Zabaykalda və İrkutskda şura əsgərləri Müttəfiqlərə inadlı müqavimət göstərmişlərdir. İngilis müxbirlərinin verdiyi xəbərlərə inanılarsa, İrkutsk yaxınlığında olan müharibədə səkkiz min şura əsgəri tələf olmuşdur. İrkutsk şəhəri xarabazara döndərilmişdir. Zabaykal tunellərinin hamısını dağıtmaq mümkün olmamışdır. Yenə də hərgah ingilis müxabirlərinin xəbərinə inanılarsa, Vladivostokdan qərbi Sibiryaya qədər dəmiryol hərəkatı başlanmışdır. Şura əsgərlərinin bir hissəsi Amur dəmiryolunun şimalına çəkilib, digər hissəsi Çin torpağına keçməli imiş. Pekindən verilən xəbərlərə görə, Çin sərhəd məmurları geri çəkilməkdə olan şura əsgərlərini görmüşlərdir. Müttəfiqlər arasında olan digər növbəti məsələ rus ordusu təşkilindən ibarətdir.

**Ukrayna iğtişaşı**

Təzə hökumət başında məşhur Ukrayna camaat xadimlərindən [S. V.] Petlyura dayanmışdır. Petlyura, [V. K.] Vinniçenko və [P. A.] Xristyukdan ibarət bir Direktoriya təşkil edilmişdir. Ukrayna iğtişaşına, getman Skoropadski tərəfindən Ukraynanın Rusiya Cümhuriyyət[i] hissəsi elan edilməsi bais olmuşdur. Üsyançıların qüvvəsi 16 min nəfərdən ibarətdir. Alman əsgərlərinin vəkillər şurası özünü bitərəf elan etmişdir.

Üsyançılar təşrini-saninin [noyabrın] 3-ündə Fastovu işğal etmişlərdir. Onlar dəmiryol qatarlarını təftiş edib, üsyançılara qoşulmayan Könüllü ordu zabitlərini həbs etməkdədirlər. Yekaterinoslavda hökumət dəmiryol fəhlələri əlinə keçmişdir. Yekaterinodar qəzetələrinin məlumatına görə, Ukrayna getmanı Skoropadski və ümum nazirlər qaçmışlar. Qəzetələrin rəyincə, Ukrayna Direktoriyası bolşeviklərlə əlaqədardır.

"T. L." qəzetəsi yazır ki, Pyatiqorsk ilə Hessentukidə [Yessentukidə] təşrini-əvvəlin 14-də 107 nəfər adam edam edilmişdir. Bunların çoxu zabitlərdir. Gələnlərin rəvayətinə görə, iki knyaz Şaxovskoylar, Lvov, [S. V.] Ruxlov, general [N. V.] Ruzski, [R. D.] Radko-Dmitriyev, Şerbaçev və Pokrovski dəxi qətl edilmişlərdir. Könüllü ordu Kursavka mövqifini işğal edib Mədən Sularına yaxınlaşmaqdadır. Digər tərəfdən də Georgiyevski zəbt etmiş olan kazaklar, Mədən Sularına tərəf hərəkət etməkdədirlər. Bolşeviklərin ricət [dönüş] yolu kəsilmişdir. Pyatiqorsk əhvalı böhranlıdır. Şimali Qafqaziyanın hər tərəfindən qovulmuş olan bolşevik dəstələri öz həlakətlərinin [həlaklarının, məhv olmalarının] yaxınlaşdığını görüb, qarətgərliyə başlamışlardır. Stavropol altında olan axırıncı müharibələrdə 24 minə qədər bolşevik tələf olmuşdur. Könüllü ordu da böyük tələfat vermişdir. Armavir tərəfindən Mədən Sularına hücum edən qoşun [V. L.] Pokrovski ilə [A. Q.] Şkuronun komandası altındadır.

### SİYASİ MÜSAHİBƏLƏR

### III

Bütün ömrünü əsarətdə keçirib divanxanalar qapısında qorodovoya "qospodin", rus qulluqçularına "madam" demək, eyni zamanda çox yerdə özünün müsəlmanlığını gizlətmək məcburiyyətində qaldıqdan sonra birdən-birə özünü sərbəst, müsaviülhüquq [bərabərhüquqlu] vətəndaş, aydın-aşkara türk və müsəlman görməkdə olan, "Allah sənə şükür, biz də divanxanada dərdimizi deyə bilərmişik", "Allah, ədalətinə şükür, biz dəxi insan hesab olunarmışıq" deyə uşaq kimi sevinən camaat həyəcandadır. Xalqın o sevincin[i] və indiki həyəcanını anlamaq üçün xalq içinə getməli, karvansaraylar, aşxanalar, çayxanalar və ümumiyyətlə ən aşağı sinfə mənsub, ən sadə və səmimi bir surətdə dərdləşdiyi yerləri gəzməlidir. Buranı gəzənlər, o camaatın sözlərini eşidənlər bilir ki, xalq, azadlığını, istiqlalını, Azərbaycanını nə qədər sevir, onu nə qədər əziz tutur. Həm, təbiidir: axır Azərbaycan həman xalq[ın] fikrində doğmuş, xalqın səyi, hümməti, qanı, canı və malı bahasına alınmış bir neməti-üzmadır [böyük nemətdir] ki, kəndlilər kotan boynunda, fəhlələr hisli mədənlərdə, xırda alış-verişçilər tərəzi dalında bu nemətin fikri ilə yaşamış və cahan alovu içində bu əziz, şirin nemətin səbəbinə rahat olmuş, işgəncələrdən qurtarmış, "insan hesab edilmiş" və "dərdini deyə bilmiş."

Xalq bu gün iztirabdadır. Nerə getsək, kimlə görüşsək, bir sual ilə qarşılanırsan: "Sən bilərsən. Bircə de görək, işimiz necə olur? Azərbaycan əldən getmir?"

Bunlar qorxurlar ki, şayəd birdən Azərbaycan əldən gedər. Əlbəttə, bir əsrdən ziyadə rus bürokratlarının istibdadını, inqilabdan sonra inqilabçı hökumətlərin rəftarını, bolşeviklərin məzalimini [zülmünü], martdan etibarən altı aylıq faciəni və son ayların gətirdiyi səadəti görmüş olan camaat, bu gün bu səadət əldən gedər də əski məzalimdən ya istibdad, ya hərc-mərc gələr deyə qorxur.

Camaatı ən artıq düşündürən bir neçə məsələ vardır:

Türklər nə üçün getdilər?

Müttəfiqlər qoşunu nə üçün gəldi?

İngilislər (Müttəfiqlər) Azərbaycanla necə rəftar edəcəklərdir?

Bu son məsələlərdə qara fikirli ünsürlər böyük rol oynayırlar. Zira, avam camaat arasında böylə şayiə buraxırlar ki, ingilislər Bakını alacaq, Azərbaycan Hökumətini qovacaq, Azərbaycanı ya özləri işğal edəcək, yainki rusa verəcəklər. Hətta, "Sizə göstərərik, sizin də ağalığınız bitdi" və sairə kimi sözlərlə xalqı həyəcana gətirir və hambal döymək, küçədən keçənə əziyyət etmək, müsəlmana söymək və sairə ilə sözlərinin doğru olduğunu isbata belə çalışır və avam camaatı inandırmaqda bir qədər müvəffəq belə olurlar. Odur ki, camaat dəxi əziz istiqlaldan, sevgili Azərbaycandan, hüquqi-milliyyədən məhrum edilərək, yenə təzədən əsirlik zəncirinə vurulacağından qorxur, titrəyir. Buna görədir ki, xalqı maraqlandıran bəzi məsələləri bir qədər aydınlaşdırmaq lazım gəlir.

**Türklər nə üçün getdilər?**

Rusiya hərc-mərc alovuna bürünüb, Qafqaziya bolşeviklər keyfəmayəşası [özbaşınalığı] təhdidi altında qalan zaman, sair millətlər kimi azəri türkləri dəxi bunca sevdiyiniz, əziz tutduğunuz Azərbaycanı müstəqil elan etdilər. O vaxt Azərbaycan qismən bolşevik dəstələri əlində, qismən də hərc-mərc içində olub, bolşevikləri qovmaq və məmləkətimizdə asayişi bərpa etmək üçün öz əlimizdə lazımi miqdarda qüvvə bulunmadığından, Türkiyə Hökumətinə müraciətlə kömək istənildi. Təşəkkür edəriz ki, türklər imdadımıza gəldilər, lazım olan köməyi etdilər. İşlərini qurtardılar. Şimdi də vəzifələrini bitmiş hesab edərək getdilər. Türklər Qafqaziyanı almağa gəlməmişdilər və indi onların getmələri istiqlaliyyətimizin əlimizdən alınacağına dəlil deyildir.

**İngilislər nə üçün gəldilər?**

İngilislər Bakıya türkləri çıxarmaq üçün gəlməmişlərdir. Məqsəd bu olsa idi, ayrı vəsilələrə [vasitələrə] təvəssül olunardı [əl atılardı]. İngilislər bizim istiqlaliyyətimizi əlimizdən almağa, Azərbaycan Hökumətini qovmağa gəlməmişlərdir. Müttəfiqlər ordusu komandanı və hazırkı Bakı general-qubernatoru general Tomson cənabları əvvəl Bakıya gələn günü Azərbaycan Hökuməti və Bələdiyyə Məclisi nümayəndələrinin nitqlərinə verdiyi cavabında və daha sonra nəşr etmiş olduğu elannamələrdə bəyan etmişlər ki, Müttəfiqlər qoşunu Azərbaycanın daxili işlərinə qarışmayacaq və Qafqaziya millətlərinin müqəddəratı haqqında sui-niyyətləri yoxdur. Zira bu məsələ ancaq ümumi sülh konfransında həll ediləcəkdir. Müttəfiqlər qoşunu yalnız Bakıya deyil, Rusiyanın bir çox yerlərinə göndərilmişlərdir. Məqsədləri də sabiq Rusiyadan ayrılmış millətləri əzmək, onların hüququna təcavüz etmək, yaxud Rusiyanı işğal etmək olmayıb (bu xüsusda bir çox bəyannamələr vardı), ancaq bolşevizmlə mübarizə etmək, Rusiyada bir ildən bəri hökmfərma olan [hökm sürən] hərcmərci yatırmaq və sabiq Rusiyanı təcdid [bərpa] etməkdir. Bu surətlə Müttəfiq qoşunlarının gəlmələri Azərbaycanı təhdid etməsin gərək.

Sabiq Rusiyanın təcdidi [bərpası] dedikdə, şübhəsiz ki, köhnə Rusiyadan zülm və sitəmdən başqa bir şey görməmiş olan camaat təşvişə düşür ki, əski Rusiyanın təcdidi yenə xırda və elani-istiqlal etmiş millətlərin siyasi qətli deməkdir. Fəqət, burasını aydınlaşdırmalıdır ki, sabiq Rusiyanın təcdidi, Nikolay hökumətinin yenidən iş başına gələrək millətləri boğması demək deyildir. Doğrudur, Müttəfiqlər Rusiyanı təcdid etmək məsələsini aydın bir şəkildə tənvir [izah] etməyib, bu təcdidin hangi əsas üzərinə və nə surətlə icra ediləcəyini bu vaxtadək xəbər verməmişlərdir. Buna görə də onların fikrini hələ heç kəs yaxşı bilməyərək, bu səbəblə də bir çox siyasi və milli tamahlar cuşa gəlməkdədir. Fəqət, burası da şübhəsizdir ki, Rusiya məsələsinin surəti-həlli [necə həll olunacağı] ümumiyyətlə övzayi-siyasiyyənin [siyasi vəziyyətin] tələbi və beynəlmiləl əhvalın iqtizası [ehtiyacı, tələbi] xilafına fövqəladə bir surət ala bilməyəcəkdir. Hal-hazırda bütün siyasi zəncirlərin açılması, bütün məhkumların azadı, bütün məzlumların xilası kimi hürriyyət və ədalət əsasları meydan almaqda ikən, necə ola bilər ki, Rusiyada bunca maddi və mənəvi xəsarət qiymətinə, bunca can və mal bahasına hürriyyət alıb, hüquq və ixtiyar bayrağı qaldırmış olan məzlum millətlərin təzədən bayrağı endirilsin, qolları yenidən istibdad zənciri ilə bağlansın, vücudi-milliyyə və mədəniyyələri təzədən istibdad cəlladlarının qılıncına məruz edilsin? Həm də bunu edən kimlər olsun? 19-uncu əsrdə hürriyyət müqabilinə "Müqəddəs İttifaq" namı ilə qılınc çəkmiş Rusiya, Prussiya, Avstriya ittifaqımı?

Xeyr, o ittifaq indi yoxdur. O hökumətlər indi müzməhil [məhv] olmuşlardır.

Bəs kimlər? Hangi ittifaq, hangi müttəfiqlər? Amerika, Fransa, İngiltərə ittifaqımı? Həmin Amerikamı ki, birinci dəfə bəşər və vətəndaş hüququ şüarını meydana atmış və əsrlərdən bəri ən demokratik üsuli-idarə ilə şöhrət tapmış? O Amerikamı bu gün rəisicumhuru lisanı ilə bəşəriyyətə hüquq və ədalət təbşir edir [hüquq və ədalət muştuluğu verir], Cəmiyyəti-Əqvam [Millətlər İttifaqı] fikrinin qövldən feilə [sözdən işə] keçirilməsinə çalışır?

Yaxud, tarixi-inqilabın parlaq səhifələrini yazdırmış, hüquq və ədalətin Avropada intişarına [yayılmasına] səbəbiyyət vermiş olan fransız millətimi jandarmalıq rolunu öz öhdəsinə alacaqdır?

Yoxsa, ingilislərmi böylə siyasi cinayəti işləməklə tarixə qara səhifələr yazdıraraq bütün milləti ləkələndirəcəklər? Qraf Metternixin rolunu bu gün Askvitlər, Lloyd Corclarmı ifa edəcəklərdir? Xırda millət[lər]in hüququnu bu ingilislərmi pozacaqlar ki, hələ cəmiyyəti-bəşəriyyə heç nöqtədə hüquq adı çəkməmişkən 1225 tarixi-miladidə Böyük Qanuni-Hürriyyət elan edərək, 700 ildən bəri bu uğurda getdikcə tərəqqi və təkamül etmişlərdir? O ingilislərmi ki, bu gün böyük müzəffəriyyət içində hüquqi-milliyyəni təntənəli bir surətdə elan edərək, İngiltərə təhti-təbəiyyətində [hakimiyyəti altında] bulunub da bu vaxtadək muxtariyyəti-idarədən istifadə etməyən millətlərin hüququnu unutmayaraq, onlara muxtariyyət verirlər?

Həman bu dövlətlər, bu millətlərmi Rusiya istibdadının zəncirindən qurtarmış millətləri bir də yenidən əsarətə salacaqlar? Əlbəttə, xeyr!

Böylə ola bilməz, bunu heç kəs etməz, edə bilməz. Böylə bir təşəbbüs fələyin çərxini geri döndərmək, tarixin cərəyanını saxlamaq kimi olar.

Zənciri-əsarət müstəbid padşahların hökmranlığı kimi müəbbəd [həmişəlik] qırılmışdır. Nə sabiq müstəbidlər qayıdarlar, nə zənciri-istibdad.

Ser Askvitin Qlazqoda irad etmiş [söyləmiş] olduğu şu nitqi dəxi buna böyük bir dəlildir:

*"Avropada vüqu bulmuş [gerçəkləşmiş] olan təbəddülatın [dəyişikliyin] ən heyrətəngizi [heyrətamizi] mütləqiyyətin izmihlalıdır [məhvidir]. 1914 sənəsində Avropa və Asiyanın qismi-əzəmini [çox hissəsini] üç imperator idarə edirdi. Rus imperatoru xəl' [taxtdan endirildi] və qətl edildi.*

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 2 dekabr (Bazar ertəsi günü) tarixli 54-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Almaniya imperatoru təxti-səltənətdən əl çəkməyə məcbur olur. Avstriya imperatoru isə öldü, həm də əhəmiyyətsiz bir vahid idi. Sülh şəraiti [şərtləri] necə olacaqsa olsun, bu üç taxt heç vaxt təcdid [bərpa] ediləmməz. Bu müharibəni xırda millətlərin xilaskarı sifəti ilə başladıq və üz verən bütün müsibət və bədbəxtçiliklərlə bərabər, hamımız etiraf ediriz ki, Müttəfiqlərə olan ümidlər onları aldatmadı.”*

Bu surətlə, təşvişə yer yoxdur. Fəqət, istiqlalını bu qədər əziz tutan, Azərbaycanını bunca sevən camaat, istiqlaliyyəti uğrunda hər cəhətdən var qüvvəsi ilə çalışmalı, müstəqil yaşamağa müstəhəqq [layiq] olduğunu hər cəhətdən isbat etməli, yarın [sabah] üçün gün ağlamalıdır.

Gözəl düşün, iyi hiss et, yanılma, aldanma,
Nə varsa doğrudadır; doğruluq şaşar sanma.
Qoş ittihada, tərəqqiyə, sə’yə, iqbalə,
Fəqət, unutma ki, yol intizami-məşyətlə
Yaxınlaşar, qısalar. Doğru at adımlarını!
Düşün: bugünkü adımlar hazırlayır yarını!

Böyük şair Fikrəti eşit, sabahını, iqbalını bu gün hazırla.

*X. İ.*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Azərbaycan Hökuməti tərəfindən 13 təşrini-sani [noyabr] 1918 tarixində zeyldəki [aşağıdakı] qərardad qəbul edilmişdir:

Hökumətin 28 ağustos [avqust] 1918 tarixli qərardadı dəyişilərək, yalnız bir edadi məktəbi olan şəhərlərdə Maarif nazirinin səlahdidi [münasib görməsi] ilə təhziri [hazırlıq] (starşi) sinfindən yuxarı siniflərdə dərslər rus dilində olmaq üzrə birər şöbələr açılmağa müsaidə edilsin. Bir neçə edadi məktəblərə malik yerlərdə isə məktəblərin bir hissəsi fövqəlzikr qanun mövcibincə [deyilən qanuna əsasən] milliləşdirilərək qalanların bütün siniflərində türk dilinin təlimi məcburi olmaq şərti ilə dərslər rus dilində ola bilər.

Müsəlman uşaqları yalnız milliləşmiş və yaxud milliləşəcək məktəblərdə oxuması məcburi olub, əsla türkçə bilməyən mütəallimlərin [tələbələrin] milliləşməmiş siniflərə daxil olması üçün hər dəfə Maarif nazirinin xüsusi rüxsəti lazımdır.

- Maarif Nəzarəti birinci və ikinci gimnaziyaların əlifba və iki hazırlıq siniflərində dərslərin türkcə olmasını təhti-qərara alıbdır. Atalara tövsiyə edilir ki, övladını bu məktəblərə versinlər.

- Daxiliyyə Nəzarətinə Əmlak Nəzarəti tərəfindən gəlmiş bir sənəddən anlaşılır ki, Bakı və Gəncə quberniyalarında yerlərini buraxmış qaçqınların işlərini saman etmək [qaydaya salmaq] qəsdi ilə Ümuri-Xeyriyyə [Sosial Təminat], Daxiliyyə və Maliyyə nəzarətləri nümayəndələrindən mürəkkəb [ibarət] bir xüsusi heyət düzəltmək istəyirlər. Onun üçün hər nəzarətdən nümayəndələr istənildiyi kimi, Daxiliyyə Nəzarətindən də bir nəfər lazım olduğu bəyan olunur. Daxiliyyə Nəzarəti, xüsusi katibi Mehdi bəy Hacınskini bu heyətə təyin etmişdir. Bu heyət, Əmlak və Ərazi Nəzarəti müavini Sultanovun təhti-sədarətində [sədrliyi altında] olacaqdır.

## SİHHİYYƏÇİLƏRİMİZ VƏ TƏBİBLƏRİMİZİN NƏZƏRİ-DİQQƏTİNƏ

Aləmşümul müharibə [bütün dünyanı əhatə edən müharibə, Dünya müharibəsi] başlandığı vaxtdan bəri kürreyi-ərz [yer kürəsi] üzərində yaşayan canlıların nə dərəcələrdə fəlakət və əziyyət çəkdikləri hər kəsə məlumdur. Kürreyi-ərzə bir ərseyi-məhşər [məhşər meydanı] deyilsə, məncə xəta deyildir. İnsanları xəzan yarpağı kimi tökməkdə olan fəlakət fırtınası, dünyanın hər bir bucağını axtararaq taqım-taqım insanların ömri-giranbəhalarına [dəyərli həyatlarına] zalimanə bir surətdə bir xatiməyi-əbədi [əbədi son; ölüm] çizərək keçir. İnsanların nə qədəri müharibədən və nə qədəri aclığın şiddəti-təzyiqindən məhv olduğu aşkar bir şeydir. Təkrara lüzum yox. Fəqət, bunu söyləməkdən məqsədim yeni və şiddətli müsibətin insanlar üzərinə hücumavər olduğunu [hücum etdiyini] bildirməkdir.

O da məmləkətimizin bir çox şəhər və köylərini çulğalayan və bir çox insanı, baxüsus [xüsusilə] füqəra sinfini acınacaq bir surətdə qırmaqda olan sari [yoluxucu] xəstəlikdir. Bir çox köylərimizdə hər bir evdən yüzdə 50-60 faizi qırılmış, hələ qırılmaqdadırlar. Nə acınacaq bir hal! Biçarələrin halına baxan, dərdlərinə əlac edən varmı, yoxmu? Bu sual məncə pək məchul. Nə yapalım, müharibədən qırılır, aclıqdan qırılır, şimdi isə fəlakət fırtınası sayılan şu mənhus mərəzdən [nəhs, uğursuz xəstəlikdən] qırılırlar. Buna bir çarə yoxmu əcəba?

Tibb və səhiyyə müəssisələrimizin nəzəri-etinasını burasına cəlb ediriz.

İştə, şu əmrazi-sariyyənin [yoluxucu xəstəliklərin] əlacı möhtərəm sihhiyyələrimizin mərhəmətlərinə mərbutdur [bağlıdır]. Şəhər və köylərə təbiblər göndərdib gəzdirərək şu mərəzin məhvinə və bu mərəzdən xəstələnənlərin dərdlərinə əlac bulundurmalıdır. Əks surətdə bu xəstəlik xanimanları viranə qoyan bir tərz alacaqdır ki, bunun sonu pək təhlükəli və müşkül görülür. Sonda [sonradan, vaxt keçdikdən sonra] bu mərəzlə mübarizəyə qalxışacaq olsa da, faydasız olar. Bunca acınacaq hal içində yeni bir acınacaq hal eşidib və görürəm. O da seyfiyyə [yaylaq, kurort] və səyahətlərindən yeni övdət etmiş [qayıtmış] bir neçə təbiblərimizin müayinə ücrətini artıq yüksəklətdirdikləridir. Məsələn, 5-10-15 manata razı olmayıb, hətta bizim böyük təbiblərimiz ücrəti 20-25 manata vardırmışlar. “Bu da bir hali-mübkiyi-digər” [digər bir ağlamalı haldır]. Daha nə deyə biləriz? Qoy, fəqirlər 20-25 manat tapmadıqları halda gəbərsinlər. Bu rəvamı? Nə isə, üzümüzü sihhiyyələrimiz və təbiblərimizə tutub, şu mərəzin məhvinə və xəstələnənlərin dərdlərinə əlac etmələrini son dərəcə rica və istirham [xahiş] ediriz.

*Əli Mişan*

## BAKI XƏBƏRLƏRİ

**Ərzaq Nəzarətində [Ərzaq Nazirliyində]**

Ərzaq naziri Nəsib bəy Yusifbəyov həzrətləri Bakıya gətiriləcək taxıl işlərini qaydaya salmaq qəsdi ilə Azərbaycan dəmiryoluna çıxmışdır.

- Qubada ölmüş yəhudilərə kəfən qayırmaq üçün Ərzaq Nəzarəti Quba yəhudi qəsəbəsinə üç top bez və bir top ağ çit aparılmasına icazə vermişdir.

- “Azərbaycan” qəzetəsinin 48-inci nömrəsində Ərzaq idarəsinin vəkili Yurvin Qalinovski tərəfindən bir teleqram dərc edilmişdir ki, o, Quba uyezdinə ərzaq həcz etməyə gedir. Bu xüsusda Ərzaq Nəzarəti xüsusi məktubla şəhər Ərzaq idarəsinə yazıb həmin Yurvin Qalinovski kim olduğu və kimin tərəfindən Qubaya göndərildiyini Ərzaq Nəzarəti idarəsinə məlum etməsini yazır.

- Zaqatal quberniyasının vəkili Kaladjio, Ərzaq Nəzarətinə yazıb xəbər verir ki, sərhəd gömrükxana məmurları qeyri məmləkətə aparmaq üçün ancaq üzüm, şərab və konyaka icazə verirlər. Bu barədə Kaladjio yazır ki, Zaqatal quberniyası bağat olduğundan orada hamıdan çox fındıq, şabalıd, qoz və qeyri əmələ gəlir və camaatın güzəranı ancaq onlarla keçir. Odur ki, yuxarıda zikr olunan əşyaların qeyri məmləkətə buraxılmasına icazə verilməsini Kaladjio Ərzaq Nəzarətindən xahiş edir. Bu barədə Ərzaq Nəzarəti lazımi tədbirlər görməkdədir.

- Bakıdan Zaqatala bir çox ərzaq, manufaktur malı, sabun və qeyrə aparmaq üçün Zaqatal cəmiyyət dükanları şərakətinə [şirkətlərinə] Ərzaq Nəzarəti izin verdi.

- Tağıyevin fabrikasından Bakıda “Təbriz” mehmanxanası üçün min arşın bez, 50 dənə çəkəcək, beş yüz arşın kətan, altmış arşın bomazı [pamazı, xovlu pambıq parça] verilməsinə Ərzaq Nəzarəti icazə verdi.

- Ətraf kəndlərin Bakı cəmiyyəti[nə] taxıl əkmək üçün qeyri yerlərdən dən gətirməyə Ərzaq Nəzarəti icazə-namə verdi. Öz tərəfindən Nəzarət, Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirindən xahiş edir ki, həmin cəmiyyətə vaqon verilsin.

- İrandan və Lənkərandan Bakıya on min puta qədər düyü (putu 200 manatdan) gətirməyə Ərzaq Nəzarəti Trifon Basilmayaya icazənamə vermişdir. Düyü Ərzaq Nəzarəti adına iki ayın ərzində gərək gəlsin. Hərgah Nəzarətə lazım olmasa, o vaxt düyü sahibi düyüsünü açıq qiymətə sata bilər.

- Bakıdan Kutais şəhərinə iki vaqon balıq aparmaq üçün Xanaşviliyə Ərzaq Nəzarəti icazə verdi.

- Gürcüstan, Quba, Qusar, Dərbənd, Petrovsk, Teymurxanşura, Axtı, Qasımkənd, Məcəlis ilə teleqraf və posta müxabiratı [əlaqəsi] təcdid [bərpa] edilmişdir.

**Saxta ərz-hallar**

Türk Ordusunun Bakını işğal vaxtlarında xəsarətdidə olanların [zərərçəkənlərin] zərərlərini təhqiq edəcək komisyona altı milyon rubləlik saxta ərz-hallar pişnihad [təqdim] edilmişdir. Saxta ərz-hallar möhür və saxta imzalarla əksərən Bayılov dairəsindən verilmişdir. Bu barədə komisyon sədri general Andrusa məlumat verilmişdir.

**Ərzaq məsələsi**

Ərzaq şöbəsi Quba nümayəndəsindən bir böylə teleqram almışdır:

Gəncə və Bakı möhtəkirləri və Quliyev acentələri, köylərdən taxıl alıb anbarlarda saxlamaqla qiyməti bahalandırırlar. Şəhər isə aclığa məruz qalmışdır. Rica edirəm ki, bunlar tərəfindən alınmış taxılın həczi [müsadirəsi] barəsində təşəbbüsatda bulunasız. Bütün mövqif [stansiya] müdirlərinə taxılı Ərzaq şöbəsi naminə göndərmək barəsində iqdamatda bulununuz.

**Kazak mürəxxəslərinin [nümayəndələrinin] müvasiləti [gəlişi]**

Terski oblast kazakları tərəfindən seçilmiş Zuyev və Jitkov cənabları mürəxxəs olaraq dün Bakıya gəlmişlərdir. Mürəxxəslər Bakıda bulunan Şimali Qafqaziya Hökumətinin Baş vəkili Çermoyevə Tersk oblastının əhval və vəziyyəti-siyasiyyəsi haqqında məruzə vermişlərdir. Tersk oblastında vəziyyət bolşeviklər əlində olduğundan, kazak mürəxxəsləri Şimali Qafqaziya Baş vəkilindən kömək istəməkdədirlər.

**Azərbaycan dəmiryollarında**

Azərbaycan Dəmiryolları İdarəsi 3-üncü və 4-üncü sərnişin qatarlarından əlavə 7 və 8 nömrəli sərnişin qatarları təşkilinə şüru etmişdir [başlamışdır]. İşbu trenlər [qatarlar] Bakı ilə Tiflis miyanında [arasında] işləyəcəklərdir. Bütün mövqif [stansiya] müdirlərinə birər əmr göndər[il]ərək türk əsgərləri tərəfindən buraxılan vaqonların Bakıya göndərilməsi tövsiyə edilmişdir.

**Azərbaycan sosialistlərinin fəaliyyəti**

29 təşrini-sanidə [noyabrda] Türk Ocağında Azərbaycan ictimaiyyuni-inqilabiyyun (inqilabçı sosialistlər) iclası olacaqdı. Bu iclas mütəşəbbis heyət binagüzarlığı [sərəncamı] ilə təzə ayın (kanuni-əvvəlin) [dekabrın] 6-sına təxir edildiyinə görə, bu iclasda işlək əza [üzvlər] xüsusi bir müşavirə məclisinin açıldığını elan etdi. Burada toplanmış əzanın əksəriyyəti əhvali-hazirəyə [hazırkı vəziyyətə] münasib öz təsəvvüratını bəyan edən kimi oldu. Bunların hamısı bir ağızdan gənc Azərbaycanın istiqlaliyyəti tərəfdarı oldular.

Müxtəsər bir məruzədən anlaşıldı ki, xarici eserlər Azərbaycan istiqlaliyyəti ilqasını [ləğvini] və müttəhid [vahid] Rusiyanı ehya [bərpa] edəcək Ufa Hökumətini qəbul etmək təklifində bulunmuşlar. Müşavirədə hökmfərma [hakim] olan ruhdan bəlli idi ki, gənc sosialistlərimiz gənc Azərbaycanın hürriyyəti[ni], istiqlaliyyətini var qüvvələri ilə müdafiə edəcəklər. Bunun əksində hərəkət edənlər ziddinə işləmək və hürriyyətimizin paydar [qalıcı, əbədi] olması üçün azəri türklərinin ümum demokratiyasını [xalqını] köməyə çağıracaqlar. Bütün mədəni dövlətlərin sosialistlərindən müavinət [yardım] tələb edəcəklər. Ufa Hökumətinin qəbuluna gəldikdə: bunu heç vəchlə eşitmək belə istəməyirlər.

Əcnəbi eserlərin Rusiyanı ehya etmək üçün tam bir asayiş içində yaşayan Azərbaycandan bu əməliyyati-cərrahiyyəyə başlamalarına bir az da təəccüb idilər. Yenidən fəaliyyətə başlamış Azərbaycan İctimaiyyuni-İnqilabiyyun firqəsi arxadaşları qeyri-müsəlman eserlərin böylə hərəkətlərinə şərik olmadıqlarını bu məclisdən görmək olardı. Bu firqənin bu günlərdə Bakıda mərkəzi bürosu açılacaqdır. Vətənin sərbəst və xalqımızın da azad yaşaması yolunda çalışan Azərbaycan inqilabçı sosialistlərinin böylə iqdamatlarını [addımlarını] təbrik etməklə, kəndilərinə tövfiq [tanrıdan kömək] diləriz.

*M. H.*

**“Qafqaziya Millətləri İttifaqında”**

Təşrini-saninin [noyabrın] 29-unda “Qafqaziya Millətləri İttifaqı” iclasında Bakı və quberniyasında yaşayan müsəlman və erməni əhalisinin mart və sentyabr aylarında və bolşevik hərc-mərcliyində çəkdikləri zərərləri və hal-hazırdakı ehtiyaclarını təhqiq və təftiş etmək məsələsi müzakirə edilmişdir. Müsəlman və erməni əhalisinin ehtiyacını İttifaq özü ya hökumətə və ya məhəlli [yerli] cəmiyyəti-xeyriyyələrə müraciətlə təmin etməkdən ötrü məzkur [yuxarıda deyilən] məlumatı cəm etməlidir.

Sonra iclas Salyan qışlalarında [kazarmalarında] saxlanan və bu axır vaxt Bakıdan aparılıb Biləcəri ilə Gəncə arasında dəmiryolunda işlədilən erməni əsirləri məsələsini müzakirə etmişdir. Bunların qaytarılmaları təşəbbüsatı “İttifaq” heyəti-rəyasəti [rəyasət heyəti] Qara bəy Qarabəyova, Taqianosova, Axundova və Kara-Murzaya həvalə olunmuşdur.

**Rus Milli Komitəsində**

Üçüncü gündür ki, Rus Milli Komitəsində hökumət təşkili barəsində iclas olmuşdur. Azərbaycan Parlamanına nümayəndə göndərmək məsələsində komitə işbu qətnaməni qəbul etmişdir:

Ümumrusiya Məclisi-Müəssisanı dəvətinədək Rus Milli Komitəsi Azərbaycan Parlamanına nümayəndə göndərməyi qeyri-mümkünədd [hesab] edir.

* * *

- Bu yaxınlarda Bakıda həkimlərdən gecə və gündüz növbətçilər olacaqdır. Burada gecə və gündüz naxoşlara müavinət [yardım] göstəriləcəkdir. Həkimlər evlərə dəxi gedəcəklərdir. Adres: Qoqolevski və Tarqovı küçələrin küncündə, “Bolşoy Moskovski” mehmanxanada. Telefon nömrə: 7-99

* * *

- Təcili müavinət [kömək] lazım olduqda Müttəfiqlər polis müfəttişi miralay [polkovnik] Kokerell (telefon nömrəsi: 55-55 və 25-80) və təhərri [axtarış] polis müdiri Abdullayevə (telefon nömrəsi: 42-10 və 7-75) müraciət etməlidir.

## QAZAXDAN BİZƏ YAZIRLAR

Burada müsri [yoluxucu] xəstəlik o qədər şiddət etmişdir ki, hər gün bir kənddə 10-15 nəfər adam ölür.

Bir çox evlər vardır ki, külfətin hamı əzası [ailənin bütün üzvləri] mərəzə mübtəla olub, hatta inəkləri belə sağmağa adam tapılmayır.

Xəstəliyin ümdəsi “ispanyol nəzləsi”dir [ispan qripidir]. Həkim filan yoxdur. Bu barədə lazımi tədabir ittixaz edilməzsə [tədbirlər görülməzsə], əhali bütünlüklə tərk olub gedər.

## QAZAX DARÜLMÜƏLLİMİNİNİN [SEMİNARİYASININ] AÇILMASI MÜNASİBƏTİLƏ

Maarif Nəzarətindən böylə bir rapor alınmışdır:

“Bu noyabr ayının 8-9-cu günlərində Qazax darülməlliminə ülum [elm] təhsili üçün ərizələr verənlər imtahan olundu. Onuncu günü təntənəli bir surətdə məktəbin rəsmi-güşadı [açılış mərasimi] vüqu buldu [gerçəkləşdi]. Dəvət üzrə şəhərin əyan-əşrafı [nüfuzlu adamları], sahibi-mənsəbləri [mənsəb sahibi, vəzifəli şəxsləri], mütəallimlərin [tələbələrin] valideyni, müəllimlər və bir çox camaat, darülmüəlliminin həyatinə cəm oldular. Saat 12-də elmi-ilahi [ilahiyyat] müəllimi İbrahim əfəndi Qaibzadə, “Qurani-məcid”dən [şanı uca Qurandan] bir hizb tilavət edib [oxuyub], bə’d [sonra] oxuduqları ayələrin misdaqınca [ayələri təsdiqləyən mahiyyətdə], elmin şərafət və fəziləti babında bir neçə dəyərli sözlər danışdı. Ondan sonra Bələdiyyə komandanı Səbri bəy cənabları və bə’d [sonra] Camal bəy həzrətləri hər biri ziyadə təsirli və pürmənə [mənalı] nitqlər söylədilər. Hər iki natiq nitqlərinin xülasəsində darülmüəlliminin ən mühüm və müsəlmanlar üçün ən gərəkli bir məktəb olmasını andırıb, gəncləri ülum və maarif təhsilinə tərğib [rəğbətləndirdilər] və təşviq eylədilər və səadəti-əbədi və həqiqinin əsl mənasını təhsil və təlimdə olmasını onlara bəyan qıldılar.

Axırda darülmüəllimin müdiri Firidun bəy Köçərli cənabları yeni təsis olunmuş və bina tutmuş məktəbin sabiqdə Qori şəhərində, əcnəbi vilayətində, xristian darülmüəlliminin cənbində [nəzdində] qırx sənəyədək ömür keçirməsinə dair əhəmiyyətli tarixi məlumat verdi və bə’d [sonra] Qazax darülmüəlliminə imtahanlardan sonra qəbul olunan şagirdlərin isimlərini oxuyub, təzə şagirdlərə xitabən darülmüəllimində nə sayaq və hangi qayda üzrə dolanıb yaşamağın yollarını bəyan etdi. Rəsm-güşada toplanan möhtərəm şəxslər başqa bir behcət [sevinc] ilə müdiri, müəllimləri və şagirdləri təbrik etdikdən [sonra] dağıldılar.

Ərizə verənlərin ədədi imtahan gününə kimi 51 idi. İmtahana gələnlər isə 42 nəfər olmuşdur. Digərlərinin gəlmədiyinə, bütün uyezdi əhatə etmiş möhlik [təhlükəli, öldürücü] xəstəlik səbəb olmuşdur. Gənclərdən 35 nəfəri imtahanda müvəffəqiyyət göstərmişdir. Məktəbə daxil olmaq üçün ərizələrin ardı kəsilməyir.

İkinci imtahan icrası müəllimlər şurası tərəfindən təşrini-saninin 20-sinə təyin edilmişdir. Sabiqdə darülmüəllimində oxuyanlardan beş nəfəri gəlibdir, on nəfəri də gələcəkdir. Bir çoxları da zabitan məktəbinə girmişlərdir. Şükürlər olsun ki, böylə bir lazımlı məktəbin güşadı başa gəldi. Bu vaxtadək əsgəri ehtiyaclar üçün işğal olunduğuna [görə] rəsmi-güşad bir az gecikdi. Müəllim və mütəallimlərə [tələbələrə] müvəffəqiyyətlər diləriz.

...

## GÜRCÜSTANDA

Mövsuq [mötəbər] mənbələrdən “Tiflisski listok” qəzetəsinə xəbər verirlər ki, İngiltərə əsgəri komandanlığı İngiltərə əsgərlərinin bir hissəsinin Gürcüstana göndərilmələri məsələsi haqqında Gürcüstan Hökuməti ilə müxabiratda bulunmuşdur [danışıq aparmışdır]. Gürcüstan Hökuməti cavab vermişdir ki, Gürcüstan Cümhuriyyətində asayişi saxlamaq üçün əcnəbi əsgərlərinin Gürcüstanda bulunmaqlarını öz tərəfindən lazım görmür. Lakin, beynəlmiləl müahidənaməsi şəraiti [müqavilə şərtləri] ilə dost hökumət əsgərlərinin Gürcüstana gəlmələrinə mümaniət [maneçilik] göstərilməyir.

**Çxenkelinin təyini**

Təşrini-saninin [noyabrın] 22-sində Hökumətin rəsmi surətdə Çxenkelini Xariciyyə Nəzarətindən azad edərək, Avropada bütün hökumətlər nəzdində Gürcüstan Hökuməti mənafeyini mühafizə edəcək fövqəladə mürəxxəs [nümayəndə] təyin edildiyini elam etmişdir [bildirmişdir].

- Ermənistan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsi, İrəvanda qaçqınların fəlakətli halını bir məruzə ilə Gürcüstan Xariciyyə vəzirinə [nazirinə] göndərmişdir. Ermənistan Hökuməti qaçqınlara müavinət [kömək] göstərməkdən və qaçqınlar məsələsini həll etməkdən aciz qalmışdır. Məruzədə deyilir ki, təşrini-saninin [noyabrın] birində Parlaman binası qarşısına cəm olmuş erməni qaçqınları, öz evlərinə göndərilmələrini tələb etmişlərdir. Qaçqınlar arasında olan təşviqatçılar, qaçqınları qarətə başlamağa təşviq etmişlər. Qaçqınlar dükanların şüşələrini sındırıb, dükanların malını qarət etmişlərdir. Qarətgərlik [talançılıq] şiddət etdiyindən, əsgərlər dəvət edilmişdir. Əsgərlər silah gücü ilə iğtişaşı yatırmışlardır.

## TEATRO VƏ MUSİQİ

Cümə günü rəbiüləvvəl ayının 2-sində (dekabrın 6-sında) Azərbaycan Hökuməti Teatrosunda opera mövsümü açılmağı münasibətilə Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Üzeyir bəy Hacıbəylinin yazmış olduğu məşhur “O olmasın bu olsun və yaxud Məşhədi İbad” nam [adlı] operettası şükuhlu [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır.

Bu oyunda mahir və müqtədir [qüdrətli] aktyorlar iştirak edib, toy hamamı məclisində gözəl mənzərələr olacaqdır.

Biletlər indidən teatrın kassasında satılmaqdadır.

**Çox illər təcrübə hasil etmiş müəllim Z. V. Birezansi**

Ciddi dərslər verir.

Ünvan: 4-ncü Paralelni caddədə, ev nömrə.

*285 1-2*

**Satılır**

Bir dənə işlənmiş xanəndə tarı. Almaq istəyənlər Nikolayevski caddədə “Sokol” kitab mağazasında Heybət Cavadova müraciət edə bilərlər.

*248 1-1*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, “Jorj” əksxanası. Telefon nömrə 54-44.

*232*

**Arvad diş həkimi A. P. Matsiyevskaya**

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

*283 25-2*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282 52-2*

**Diş həkimi B. L. Levin**

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni diş qayırır. Tsitsyanovski caddə nömrə 7, Qubernskinin küncündə.

Qəbul edir: 9-dan 2-yə kimi; 4-dən 7-yə kimi.

*280*

**Doktor Kamilə xanım İsmayılov**

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

*235*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Кв. N 236. Телеф. 36-91.

*236*

**Doktor Rza bəy Sultanov Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. “Azərbaycan” qəzetə idarəsinin yanında.

*237*

**Mama-feldşer M. K. Markoviç**

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

*240*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bakı, 2 Kanuni-əvvəl***

“Həmin bu həriflərin «mötəbər» iş başçıları cümləsindən olan Nacarovlar, Əmirov və Lalayanların...”: Aşot Nacarov, Tatevos Əmirov və Stepan Lalayan nəzərdə tutulmuşdur.

***Məhsulumuz nə oldu?!***

Epiloqdakı misralar üçün lüğət:
müftəris: yırtıcı; zalım
rəhnümayi-şər: şərin rəhbəri, yol göstərəni
bəni-bəşər: bəşər övladı, insanlıq

***Qəzetələrdən: Rusiyada bu da bir hökumət***

“P. K.”: “Priazovski kray” qəzeti nəzərdə tutulur.

“Xüsusi Şura”: Burada söhbət, Cənubi Rusiya ordusu və Könüllü ordu nəzarətindəki ərazilərdə təsis edilən məşvərət və icra orqanından (Cənubi Rusiya Silahlı Qüvvələri yanında Xüsusi Şura) gedir.

“…Dəmiryol vəziri…”: Nəqliyyat və Rabitə naziri nəzərdə tutulur.

***Qəzetələrdən: Ukrayna iğtişaşı***

“…bir Direktoriya təşkil edilmişdir.”: 14 noyabr 1918 – 10 noyabr 1920-ci illərdə fəaliyyətdə olan Ukrayna Xalq Respublikası Direktoriyası nəzərdə tutulur.

“T. L.”: “Tiflisski listok” qəzeti nəzərdə tutulur.

“…iki knyaz Şaxovskoylar...”: Qəzetdə “Şaxovskilər” kimi getmişdir. Leonti və Vladimir Şaxovskoy qardaşları nəzərdə tutulur.

***Siyasi müsahibələr***

“…bu nemətin fikri ilə yaşamış...”: Qəzetdə “yaşamış” yerinə “yaşamaq” getmişdir.

“Türklər nə üçün getdilər?”: Alt başlıqda “Türklər nə üçün getdilər?” yerinə “Türklər nə üçün gəldilər” yazılmışdır.

“Böyük Qanuni-Hürriyyət”: Böyük Azadlıqlar Xartiyası [Magna Carta Libertatum] nəzərdə tutulur.

“…1225 tarixi-miladidə Böyük Qanuni-Hürriyyət elan edərək...”: Böyük Azadlıqlar Xartiyası 1215-ci ildə elan edilmişdir. 1225-ci ildə isə bu Xartiyanın yeni redaksiyası elan edilmişdi.

“Rus imperatoru xəl’ və qətl edildi.”: II Nikolay nəzərdə tutulur.

“Almaniya imperatoru təxti-səltənətdən əl çəkməyə məcbur olur.”: II Vilhelm nəzərdə tutulur.

“Avstriya imperatoru isə öldü...”: I Frans İosif nəzərdə tutulur.

“intizami-məşyət”: nizamlı, daimi bir surətdə yerimək, irəliləmək.

“X. İ.”: bu imza Xəlil İbrahimə (İbrahimov Xəlil) məxsusdur.

***Sihhiyyəçilərimiz və təbiblərimizin nəzəri-diqqətinə***

“Sihhiyyə” yaxud “sihhiyyəçi”: ibtidai tibbi biliklərə malik olan şəxs.

“Bu da bir hali-mübkiyi-digər”: Qəzetdə dırnaq içində verilən bu cümlə, türk ədəbiyyatında bir neçə şair tərəfindən müxtəlif versiyalarda (“Bu da bir şe’ri-mübkiyi-digər”, “Bu da bir şe’ri-ülviyi-digər” və s.) təkrarlanan ifadə qəlibini xatırladır.

***Bakı xəbərləri***

“«Azərbaycan» qəzetəsinin 48-inci nömrəsində Ərzaq idarəsinin vəkili Yurvin Qalinovski tərəfindən bir teleqram dərc edilmişdir ki, o, Quba uyezdinə ərzaq həcz etməyə gedir.”: Bələdiyyə İdarəsinin Ərzaq şöbəsinin nümayəndəsindən alınan bu elan, “Azərbaycan” qəzetinin 52-ci nömrəsində dərc edilmişdir. Bu nömrədə, Yurvin Qalinovskinin adı çəkilmir. Qəzetin 51-ci nömrəsində isə Bələdiyyə İdarəsi Ərzaq şöbəsinin, Yurvin Qalinovski adlı şəxsi Quba qəzasında taxıl almağa müvəkkil etdiyi xəbəri dərc edilmişdir. Hər iki məlumat üçün “Azərbaycan” külliyyatının II cildində, müvafiq olaraq 536 və 514-cü səfihələrə baxın.

***Qazax Darülmüəllimininin açılması münasibətilə***

“Hizb”: Quranın hissələrindən hər birinin adı. Quran ümumilikdə otuz cüzə, hər cüz isə dörd hizbə bölünür. Hər hizb beş səhifədir.

“…təhsil və təlimdə olmasını onlara bəyan qıldılar.”: Qəzetdə “təhsil və təlimdə” yerinə “təlim və təlimdə” getmişdir.

“…”: Qəzetdə bu yazının müəllifinin imzası yerində üç nöqtə qoyulmudur. Akad. Teymur Bünyadovun 21.08. 2013 tarixli “Mədəniyyət” qəzetindəki məqaləsinə əsasən, bu yazının müəllifi “Qazax ziyalısı Əli Hüseynov”dur. T. Bünyadovun eyni məqaləsində, Qazax seminariyası müəllimləri arasında “tarix və coğrafiya müəllimi Əli Hüseynov”un da adı çəkilir.

***Gürcüstanda***

“Ermənistan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsi...”: bu dövrdə Gürcüstanın Ermənistandakı siyasi nümayəndəsi Simon Mdivani olmuşdur.

“Əsgərlər silah gücü ilə iğtişaşı yatırmışlardır.”: Qəzetdə “əsgərlər” yerinə səhvən “qaçqınlar” getmişdir.

***(Elanlar)***

“Ünvan: 4-ncü Paralelni caddədə, ev nömrə.”: Ev nömrəsi qəzetdə çıxmamışdır.



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



## Erməni millətçilərinin qanlı əməlləri: *Qarabağ qırğınları*

1918-1920-ci illərdə ermənilərin ən çox vəhşiliklər törətdiyi Azərbaycan ərazilərindən biri də Qarabağ bölgəsi idi. Təbii ki, bu hərəkətlərin çoxu cinayət xarakteri daşıyırdı. Təsadüfi deyil ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdükdən sonra onun ilk qərarlarından biri Birinci Dünya müharibəsi başlanandan sonra Cənubi Qafqazın müsəlman-azərbaycanlı əhalisinin başına gətirilmiş müsibətlərin təhqiq edilməsi, dəymiş zərərin müəyyənləşdirilməsi üçün Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında idi.

Sənəd və materialların nəzərdən keçirilməsi bir daha təsdiq edir ki, Qarabağ ətrafında gedən söhbətlər həm 1918-ci ildə, həm də sonrakı illərdə erməni liderlərinin separatçı hərəkətləri nəticəsində kəskinləşmiş və hər dəfə də Azərbaycan tərəfinin qəti tədbirləri ilə nizama salınmışdı. Erməni daşnakları isə bütün hallarda bu diyarın azərbaycanlı sakinlərini qan dəryasında boğmağa cəhd göstərmiş, lakin onların bu qədim torpağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək xülyaları ürəklərində qalmışdı.

Mənfur millətin bu bölgədə azərbaycanlılara qarşı düşmənçilik siyasəti 1905-1907-ci illər erməni-azərbaycanlı münaqişəsi zamanı özünü aydın şəkildə göstərmişdi. Lakin onların "kiçik Ermənistan" adlandırdıqları Qarabağ torpaqlarına ilk açıq iddiaları Rusiyada çarizmin devrilməsindən sonra başlanmışdı. Əvvəlcə fevral inqilabı, sonra oktyabr çevrilişindən ermənilər ərazi iddiaları üçün məharətlə istifadə etmişdilər. Rusiya Qafqaz cəbhəsində hərbi əməliyyatları dayandırmazdan xeyli əvvəl fərarilik edib cəbhə bölgələrindən qaçan çoxsaylı erməni əsgərləri Qarabağdakı kəndlərə gəlib özləri ilə tüfəng, pulemyot və hər cür döyüş sursatı gətirmişdilər.

Azərbaycan torpaqlarını zəbt və işğal etmək hesabına Hayastan Respublikasının yaranmasından sonra bu bölgədə vəziyyət daha da pisləşir. Bu dəfə Qarabağ erməniləri "Qarabağ respublikası" yaratmaq arzusuna düşürlər. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.M.Topçubaşov Osmanlı dövlətinin xarici işlər naziri ilə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı ermənilərin heç bir əsası olmayan bu iddiaları barədə demişdi: "Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi beş, ya on kənd məsələsi deyil, mübahisə bütöv dörd sancaq - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir ki, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildilər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir… Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə, biz məsələnin sülh yolu ilə həllinin tərəfdarıyıq".

### Azğınların əməlləri: talan, qətl, qarət, yanğın, dağıntılar...

Lakin sülhə gəlməyən erməni quldur dəstələri tərəfindən Azərbaycan kəndlərinin talan edilməsi, mal-qaranın sürülüb aparılması, dinc adamların döyülməsi, şikəst edilməsi, qətlə yetirilməsi və digər vəhşiliklər adi hal alaraq davam edirdi. Azğınların həyasızlığı o yerə çatmışdı ki, 1918-ci ilin yaz və yay aylarında Cavanşir qəzasının düzənlik hissəsinin müsəlman əhalisinə qarşı da zorakılıq tətbiq edirdilər. Onlar Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın Aran kəndlərinin əkinlərini susuz qoyaraq onlara böyük zərər vururdular. İş o yerə çatmışdı ki, Aran kəndlərində içməli su belə yox idi.

Ermənilər həmçinin azərbaycanlı kəndlilərinə öz mal-qaralarını yaylaqlara çıxarmağa imkan verməmiş, Şuşa şəhərinə və qəzasına gedən yolu bağlayaraq Aran zonası əhalisini daim gərginlikdə saxlamışdılar. Təsərrüfat işləri tamam pozulmuşdu.

Əlbəttə ki, erməni quldurları arxalarında birinci növbədə Ermənistanın rəhbərlərinin və quldur Andranikin nəfəsini duymasaydılar, belə qanlı qırğınlar törətməyə heç vaxt cəsarət etməzdilər. Bunu sübut edən faktlar isə istənilən qədərdir. Hələ 1918-ci il avqustun əvvəllərində Andranik öz başkəsənləri ilə qəflətən Zəngəzur və Qarabağ torpaqlarında görünmüş, dinc müsəlman əhaliyə davamlı divan tutmağa başlamışdı. Bununla əlaqədar Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il 15 avqust tarixli rəsmi məktubu ilə Ermənistan hökumətinə müraciət edərək qırğınlara son qoymağı, Andranikin quldur dəstəsini Azərbaycan ərazisindən geri çəkməyi tələb etmişdi. Ermənistan hökuməti həmin məktuba cavabında riyakarlıqla bildirmişdi ki, "general Andranik, həm də onun dəstəsi Ermənistan rəhbərliyinə, onun vəzifəli şəxslərinə tabe olmaqdan imtina etmişlər. Beləliklə, general Andranik və onun dəstəsinin Ermənistanın milli qoşunları və dövlət orqanları ilə heç bir əlaqəsi yoxdur və Ermənistan Respublikasının hökuməti onların məsuliyyətsiz hərəkətlərinə cavabdeh deyildir". Bu cavab həqiqətən də riyakarlıq nümunəsi idi.

### Hədəf Şuşa şəhəri idi

Qarabağda ermənilərin azərbaycanlılara vurduğu ən böyük ziyan Şuşa qəzasının ərazisi və ermənilərin həmişə əllərinə keçirmək üçün can atdıqları Şuşa şəhəri idi.

1917-ci ildə Rusiyada olan dövlət çevrilişindən sonra lazımi qədər silah əldə etmiş erməni quldurları azərbaycanlılara qarşı özlərini daha da həyasızcasına aparmağa başladılar. Azərbaycanlılarla mübarizədə daha çox üstünlük əldə etmək üçün "Daşnaksütyun" müsəlmanlar arasında sinfi mübarizəni qızışdırırdı. Nəticədə bir çox azərbaycanlı mülkədarın, o cümlədən Fərrux bəy Vəzirovun zəngin və nümunəvi mülkü dağıdıldı. Bu vəziyyətdən məharətlə istifadə edən ermənilər Levon Vartapetovu qəza komissarı seçdirdilər. O isə milis heyətinə yalnız erməniləri cəlb edirdi. Şuşa-Qaryagin və Şuşa-Əsgəran yollarını tamamilə nəzarət altına alan ermənilər azərbaycanlıları qarət edir, silahlarını əllərindən alır və keçidləri tamamilə azərbaycanlıların üzünə bağlayırdılar. "Daşnaksütyun"un rəhbərləri bu quldur dəstələrini getdikcə daha mütəşəkkil hərbi formaya salırdılar. Andranikin dəstələri Gorusa gəldikdən sonra onlar daha da fəallaşdılar. Quldurbaşı əvvəlcə burada bütün Qarabağ ermənilərinin ümumi hərbi mükəlləfiyyətini elan etdi. Əsgərlər erməni kəndliləri ilə birlikdə Zəngəzur qəzasında müsəlmanların yaşadıqları yerləri məhv etməyə, yandırıb dağıtmağa, əhalini vəhşicəsinə qırmağa başladılar. Sonra Andranik Qarabağın mərkəzi Şuşa şəhərini tutmağa təşəbbüs etdi. Lakin onun hücumları yerli müsəlman əhali tərəfindən dəf edildi. Hər dəfə qanlı döyüşlərdə Andranik böyük itki verərək geri çəkilməyə məcbur oldu.

Hər tərəfdən erməni əhatəsində olan Şuşanın vəziyyəti çox ağır idi. Əhalisinin böyük əksəriyyəti müsəlman-türk olan Şuşa və ətrafdakı bir neçə kənd ermənilər tərəfindən üzük qaşı kimi əhatəyə alınmışdı. Bura gələn yolların ermənilər tərəfindən kəsilməsi nəticəsində 8 ay, yəni türklər gələnə qədər Şuşa şəhəri və dağ zonasındakı azərbaycanlı kəndlərindəki əhalinin vəziyyəti həqiqətən faciəli idi.

Fövqəladə İstintaq Komissiyasının məruzəsində qeyd edilirdi ki, şəhər və ətraf kəndlərdəki erməni əhalisi Azərbaycanın hakimiyyətini tanımaq istəmir. Onlar çalışırlar ki, Qarabağın Verand, Dzax, Xaçın və Zəngəzur ərazilərini Azərbaycandan ayırıb Hayastana birləşdirsinlər. Sonra məruzədə Şuşa ərazisində ermənilərin törətdikləri cinayətlər 27 maddədə sadalanırdı. Şahidlərin ifadələrinə görə, 1918-ci ilin dekabrında ermənilər ikinci polis sahəsinə daxil olan Qoqo kəndinin azərbaycanlılar yaşayan 55 evdən ibarət xanimanlarını dağıdırlar. Mülkədar Cavanşirin malikanəsi də yandırılır, ailə üzvləri, xidmətçiləri qətlə yetirilir.

1918-ci ilin avqustunda ermənilər 240 ailədən ibarət Gülablı kəndini dağıdır, Xıdırlı kənd icmasına məxsus çoxlu mal-qaranı aparırlar. Bundan başqa, Mərzili kəndinin azərbaycanlı əhalisini də öz ata-baba ocaqlarını tərk etməyə məcbur edirlər. 1918-ci ilin martında quldur dəstələri Sokrat Məlik-Şahnazarovun başçılığı ilə Abdal kəndini dağıdır, həmin ilin avqustunda Qaradağlı, Xocavənd kəndlərini qarət edirlər. Onlar Xocalı kəndində də azərbaycanlı əhalini öz yerlərini tərk etməyə məcbur edirlər.

### Mənfurların riyakarlığı

Ermənilər Tuğ kəndinin azərbaycanlılara məxsus hissəsini də yerləyeksan edirlər. Hətta 1919-cu ilin mayına qədər həmin kəndin əhalisi əsir kimi saxlanılmış, onlardan ermənilərin hakimiyyətinə tabe olmaq tələb edilmişdir. 1918-ci ilin payızında ermənilər 33 evdən ibarət Salakətin kəndini viran qoyurlar. Bundan başqa, Molla Nəsrəddin yolunda Şuşadan Cəbrayıla un dalınca getmiş 12 azərbaycanlını qətlə yetirirlər. Təkli kəndi əhalisinin 700 başdan yuxarı qoyun sürüsü quldur dəstələrinə paylanır. 1919-cu il martın 9-da ermənilər Şuşa şəhərinə yaxın şose yolunda 4 azərbaycanlı əsgəri güllələyirlər.

Məlumatdan görünür ki, bu hadisələr zamanı, sadə hesablamalara görə, qəzanın Azərbaycan əhalisinin çəkdiyi zərər 100 milyon manatdan çox olmuşdu. Öldürülənlər üzərində isə ağlagəlməz vəhşiliklər edilmişdi.

Azərbaycan Respublikası hökuməti 1919-cu ilin yanvarında Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yaradır. Yanvarın 29-da doktor Xosrov bəy Sultanov oraya qubernator təyin edilir. Buna baxmayaraq, qəzalarda yaşayan ermənilər Azərbaycan hakimiyyət orqanlarına tabe olmurlar. Həyasızlıq o yerə çatır ki, əldəqayırma "Ararat respublikası"nın Xarici İşlər Nazirliyi öz hökuməti adından Azərbaycana nota verərək göstərilən müvəqqəti general-qubernatorluğun yaradılmasını "Ermənistanın ərazi hüquqlarına qəsd kimi qiymətləndirir".

Lakin general-qubernator X. Sultanov separatçılara qarşı qətiyyətlə mübarizə aparırdı. İyunun 5-də erməni milli şurasının qatı irticaçı üzvləri ingilis komandanlığı nümayəndəsinin müşayiəti ilə Şuşadan Tiflisə sürgün edilmişdi. Ertəsi gün isə Azərbaycan batalyonu Şuşanın ermənilər yaşayan hissəsindəki kazarmalarda yerləşdirilirdi. Burada keçirilən mitinqdə ermənilər Xalq Cümhuriyyəti hökumətini tanıdıqlarını bildirirlər. Bundan sonra baş nazir Nəsib bəy Yusifbəyli, Gəncə qubernatoru Xudadat bəy Rəfibəyli və hərbi nazir Səməd bəy Mehmandarov Şuşaya səfər etmişdilər.

Avqustun 15-də ermənilər Azərbaycan hökuməti ilə saziş imzalamış və ermənilər yaşayan ərazilərin Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etmişdilər.

Cümhuriyyət hökuməti Şuşada mühüm əhəmiyyətə malik olan sosial tədbirlər həyata keçirməyə çalışırdı. Hökumət 1919-cu il sentyabrın 27-də Şuşada müəllimlər qurultayının keçirilməsi üçün vəsait ayrılması haqqında qərar qəbul etmişdi. Noyabrın 20-də Şuşada hökumət xəstəxanasının açılması barədə qanun imzalanmışdı.

Bununla belə, sülhü qəbul etməyən erməni ideoloqları "Ararat respublikası" hökumətinin gizli tapşırıqlarını həyata keçirmək üçün yollar axtarır, yeni çıxışlara hazırlaşır və bunun üçün fürsət gözləyirdilər. Ermənilərin belə bir çıxışı 1920-ci il mart ayının 22-də Novruz bayramı günü baş verir. Tədqiqatçı alim Ataxan Paşayev "Açılmamış səhifələrin izi ilə" əsərində yazır ki, həmin gün Şuşa şəhəri, Şuşa qəzası və onunla qonşu olan digər qəzalarda eyni vaxtda ermənilər qiyam qaldırırlar. Mart ayının 23-də bütün günü şəhərdə atışma gedir, gün batana yaxın qiyamçılar Azərbaycan ordu hissələri qarşısında dayana bilməyərək şəhəri tərk etməyə məcbur olurlar. Ermənilər eyni vaxtda Xankəndiyə də hücumlar edirlər. Onların da hücumları dəf olunur. Yalnız Əsgəran qalasına hücum edən quldur dəstələri qeyri-bərabər döyüşdə Azərbaycan əsgərlərini oradan çıxarır, qalanı ələ keçirirlər. Bu hadisələr barədə daxili işlər naziri Mustafa bəy Vəkilov öz məruzəsində qeyd edirdi ki, ermənilər bu vuruşa başlamaq üçün böyük hazırlıq işləri görmüşlər. Ümumi bir xəbərdarlıq siqnalı da olmuşdur. Şuşa şəhərinin yaxınlığındakı Şuşa kəndində atılan top atəşi ilə verilən xəbərdarlıq üzrə Şuşa qəzası kəndləri ilə yanaşı, Qarabağın Cavanşir və Zəngəzur qəzalarında da ermənilər qiyam etmişdilər. Amma bu qiyam nə qədər böyük bir miqyasda hazırlansa da, onların hücumları dəf edilmişdi.

Lakin bu hadisələr sovet Rusiyasının işğalçı hərbi qüvvələri ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu yaxınlaşdırmışdı. 11-ci Qırmızı ordu hissələri 1920-ci il mayın 12-də Şuşaya daxil olsalar da, öz məqsədlərinə çata bilməmişdilər. İyunun 3-dən 4-nə keçən gecə Şuşa Azərbaycan Milli Ordusu tərəfindən azad edilmişdi. Lakin 11-ci ordu hissələri iyunun 15-də Şuşanı işğal etmiş və burada sovet hakimiyyəti bərpa olunmuşdu.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Erməni vəhşiliyinin şahidi

### Quba Soyqırımı Memorial Kompleksini indiyəcən bir milyondan çox insan ziyarət edib

Tarixi faktlar sübut edir ki, iki əsrə yaxın bir zaman kəsiyində ermənilər dəfələrlə azərbaycanlılara divan tutmuş, qətliam törətmiş, yaşayış məntəqələrini viran qoymuşlar. XX əsrin əvvəllərində dünyadakı qarışıq proseslərdən istifadə edən ermənilər daha da qəddarlaşmışlar. Həmin dövr ermənilərin törətdikləri qətliamlar nəticəsində on minlərlə soydaşımız həyatını itirmiş, yüzlərlə kənd dağıdılaraq yer üzündən silinmişdir. Şərqi Zəngəzur və Qarabağ da bu qəddarlığa 44 günlük Vətən müharibəsində qazandığımız zəfərə qədər şahidlik etmişdir.

Ümumiyyətlə, Azərbaycanda məskən salan digər xalqlardan fərqli olaraq ermənilər torpaqlarımızda "böyük Ermənistan" yaratmaq xülyası ilə çox qırğınlar törətmiş, milli sərvətlərimizə sahib çıxmağa can atmışlar. Bolşevik-daşnak dəstələrinin Bakı, Şamaxı, Quba, Kürdəmir, Salyan, Lənkəran qəzalarında etdikləri vəhşiliklər Azərbaycan tarixinin qanlı səhifələridir. Hamazapsın başçılıq etdiyi daşnaklar təkcə Quba qəzasının 167 kəndini yandırmış, 16 mindən çox azərbaycanlını qətlə yetirmişlər.

Həmin dövr Qubada yaradılan və birbaşa Hamazapsa tabe olan quldur dəstəsi gün ərzində yüzlərlə insanı ya güllələyir, ya da zindanlara atırdı. Bununla da kifayətlənməyərək insanları evlərindən çıxarır, əmlakını talan edirdilər. Etiraz edənləri isə qətlə yetirirdilər. Daşnaklar Qubada digərlərinə dərs olsun deyə, sakinləri ağaclardan asır, uzun müddət onlara heç kimin yaxınlaşmasına imkan vermirdilər. İki gündən bir kəndlərdən dini savadı olanları məscidlərə yığır, onların heysiyyəti ilə oynayır, sonra da güllələyirdilər. Qubada Səkinə xanım məscidinin qarşısında namaza gələnləri çöldə qarşılayır, sonra kişiləri yaxınlıqdan keçən mal-qaranın ayağına bağlayırdılar. Kim etiraz edirdisə, yerindəcə "komuna düşməni" kimi güllələyirdilər. Qubanın məscidlərində həmin dövr xeyli sayda tarixi əşyalar, yazılı abidələr vardı. Ermənilər məscidləri talan edərkən onların hamısını Ermənistana daşımışlar.

Deyirlər torpaq üstündə baş verənləri heç vaxt unutmur. Qoynunda illərlə gizli qalan gec də olsa açılır. Ermənilərin Qubada törətdikləri cinayət də şəhərdə yeni idman meydançası üçün ərazi hazırlanarkən bəşəriyyətə bəlli olub. Qudyalçayın sağ sahilində üst-üstə qalaqlanan insan sümükləri ilə dolu iki quyu aşkarlanıb. Böyük quyunun diametri 5, kiçik quyunun diametri 2,5 metrdir. Quyular arasında 2 metr məsafə var. Aşkar edilmiş insan cəsədlərinin əksəriyyəti uşaq və qadınlara aiddir. Skeletlərin bütöv halda tapılmaması insanların öldürüldükdən sonra şaqqalanaraq quyuya atıldığını göstərir. Odur ki, qurbanların sayı kəllə sümükləri ilə müəyyən olunub.

Sümüklərin tədqiqatı zamanı ölüm faktının nə vaxt baş verdiyi dəqiqləşdirilib. Qubada tapılan sümüklərin tərkibindəki nəmliyin miqdarı ölüm tarixinin ötən əsrin ikinci onilliyinə aid olduğunu üzə çıxarıb. Məzarlıqda azərbaycanlılarla birlikdə ləzgilər, yəhudilər, tatlar və digər millətlərin 400-dən artıq nümayəndəsi qətlə yetirilərək basdırılıb. Alimlər belə nəticəyə gəliblər ki, quyu və arxlarda basdırılan insan cəsədləri 1918-ci ildəki Quba qırğınının qurbanlarıdır.

Bu gün həmin ərazidə Quba Soyqrımı Memorial Kompleksi fəaliyyət göstərir. 2013-cü il sentyabrın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışında Prezident İlham Əliyev demişdir: *"Burada nümayiş etdirilən eksponatlar bizim tariximizi göstərir. Eyni zamanda, memorial kompleksdə yaradılmış ekspozisiya çox böyük məna daşıyır. Kompleksin girişində Quba qəzasının dinc vaxtları öz əksini tapır. Ailələr, vətəndaşlar dinc həyat sürürlər. Ondan sonra qanlı günlər, dinc əhaliyə qarşı törədilən vəhşilik əks olunur."*

Kompleksin bütün bölmələrində quraşdırılan audiobələdçi qurğuları vasitəsilə ingilis, rus və Azərbaycan dillərində ətraflı məlumat almaq mümkündür. Abidə-muzeyin ekspozisiyasında 1918-ci ilin mart-iyul aylarında Bakı quberniyasının 5 qəzasında - Bakı, Şamaxı, Quba, Göyçay və digər ərazilərdə müsəlman əhalinin soyqırımı tarixi öz əksini tapıb. Ekspozisiya 1918-ci il hadisələri ərəfəsində dinc Quba həyatını əks etdirən fotoşəkillərlə başlayır. Muzeydə 1918-ci ilin qanlı hadisələrini tədqiq etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərarı, komissiyanın sənədləri, habelə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini əks etdirən xəritə, Ümummilli Lider Heydər Əliyevin soyqırımı haqqında sərəncamı yer alıb.



Muzey kompleksdə məlumat mərkəzi, zəngin kitabxana, kompüterlərlə təmin olunmuş oxu zalı da fəaliyyət göstərir. Kompleksin ərazisində Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılıb. Həyətyanı sahədə isə alma bağı salınıb.

Muzeydə Azərbaycanın qəzalarının tarixi faciəsi ayrı-ayrı bölmələrdə zəngin foto, arxiv sənədləri, statistik məlumat və diaqramlarla verilib. Quba soyqrımını əks etdirən sənədli film zalda davamlı olaraq nümayiş etdirilir. Kadrlardan məlum olur ki, müxtəlif qəzalarda baş vermiş soyqırımlar zamanı kütləvi şəkildə xüsusi qəddarlıqla öldürülmüş insanların əksəriyyəti yandırılıb, dənizə, quyulara atılıb və bu səbəbdən onları dəfn etmək mümkün olmayıb.

Quba turizm şəhəridir. Hər il bura minlərlə xarici ölkə vətəndaşı səfər edir. Təxmini hesablamalara görə, kompleksi 60-dan çox ölkənin nümayəndəsi ziyarət edib. Açıldığı gündən isə 1 milyondan artıq insan Soyqırımı Memorial Kompleksində olub.

Bu il mart soyqırımından bizi 105 il ayırır. 2020-ci ilin noyabr zəfəri həm də bu soyqırımı qurbanlarının intiqamıdır. Qoy düşmənlər unutmasın ki, torpağımıza uzanan əllər bundan sonra da beləcə kəsiləcək. Buna zəmanət verən qətiyyətli Ali Baş Komandanımız, sarsılmaz ordumuz, qalib xalqımız var.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



# "Azərenerji" su qıtlığına qarşı qabaqlayıcı tədbirləri genişləndirir

## Dəniz və çaylarda suyun azalması enerji istehsalına da təsir edir











Son illər su anbarlarında, çaylarda, o cümlədən Xəzər dənizində su səviyyəsinin düşməsi "Azərenerji"nin balansında olan su-elektrik stansiyalarında enerji istehsalının azalmasına və sudan soyutma məqsədilə istifadə edilən istilik elektrik stansiyalarının fəaliyyətinə ciddi təsir edir.

Bu səbəbdən də su ehtiyatlarından planlı istifadə edilməsi, ölkə Prezidentinin müvafiq sərəncamı ilə yaradılmış su ehtiyatlarından səmərəli istifadə üzrə komissiyanın fəaliyyəti çərçivəsində koordinasiya olunur.

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, su qıtlığına görə fəaliyyətini dayandırmaq təhlükəsilə üzləşən ölkənin ən böyük elektrik stansiyalarında qabaqlayıcı tədbirlər görülərək kompleks işlər həyata keçirilir. Belə ki, Xəzər dənizində su səviyyəsinin kəskin düşməsinə görə ölkənin ikinci böyük elektrik stansiyası olan 800 meqavatlıq "Şimal" Elektrik Stansiyasında dənizin içərisinə doğru soyuq suyu 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluqda estakadanın və 2 yerdə su nasos stansiyalarının tikintisi aparılır. Qeyd edək ki, buna qədər "Azərenerji" tərəfindən "Sumqayıt" Elektrik Stansiyasında 750 metr uzunluğunda estakada və su nasos stansiyası tikilərək istismara verilib. Kür çayında suyun səviyyəsinin enməsinə görə ölkənin üçüncü böyük elektrik stansiyası olan "Cənub" Elektrik Stansiyasını soyutma suyu ilə təmin etmək üçün su aşıran qurğu tikilib. Şəmkir su anbarında su itkisinə səbəb olmaqla yanaşı, real təhlükə mənbəyinə çevrilən 160 metr uzunluğunda 3 tuneldən ibarət su tullayıcı qurğu tamamilə yenidən qurulub.

Qeyd edək ki, ölkədə elektrik enerjisinə tələbatın pik dövrləri yay və qış fəsillərinə təsadüf edir. Ona görə də sudan energetika məqsədləri üçün istifadənin suvarma və kommunal məqsədlər üçün istifadəyə uyğunlaşdırılması həm məhdud su ehtiyatlarına qeyri-suvarma dövründə qənaət etməyə, həm də su-elektrik stansiyalarında istehsalı suvarma dövründə artırmağa imkan verir.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# "Azərişıq" ASC qeyri-əhali abonentləri arasında elektrik enerjisinin talanması hallarını aşkarlayıb

"Azərişıq" ASC elektrik enerjisi itkilərinin azaldılması istiqamətində yenilənmə işlərini davam etdirir. Lakin təəssüf ki, görülən işlərə baxmayaraq, abonentlər arasında elektrik enerjisindən qanunsuz istifadə edənlərə yenə də rast gəlinir.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, paytaxtın Xəzər rayonunda "Ev Qur" adlı mağazaya baxış keçirilən zaman məlum olub ki, elektrik sayğacı kənar müdaxilə səbəbindən axan cərəyanı yarıbayarı az qeyd edir.

Xırdalan şəhərində sement zavodunda da kənar müdaxilənin olduğu aşkar edilib. Baxış zamanı elektrik sayğacının "A", "B", və "C" faza cərəyan sıxaclarına müdaxilə edildiyi məlum olub.

Paytaxt və ətraf ərazilərlə yanaşı, Salyan rayonunda da bəzi qeyri-əhali abonentlərinin elektrik enerjisini taladığı aşkarlanıb. Rayon ərazisində mağazalardan birinə baxış keçirilən zaman məlum olub ki, obyektə sayğac sxemindən kənar xətt daxil olur.

Analoji vəziyyətə avtoyuma və kafe fəaliyyəti göstərən digər bir obyektdə rast gəlinib. Burada da sayğaca kənar müdaxilə etməklə elektrik enerjisindən qanunsuz istifadə olunduğu müəyyən edilib.

Elektrik enerjisinin talandığı növbəti fakt balıqçılıq təsərrüfatında ortaya çıxıb. Abonent uzaq məsafəyə kənar xətt çəkməklə yanaşı, uzaqdan idarə olunan xüsusi qurğu da quraşdırıb.

Qeyd edilən faktlarla bağlı qanunamüvafiq tədbirlər görülüb, hüquq-mühafizə orqanlarına müraciət olunub və bu, davam etdiriləcək. Həmçinin bu cür qanunsuzluğa yol verən obyekt və müəssisələrin, şəxslərin adları kütləvi informasiya vasitələrində ictimaiyyətə təqdim olunacaq.

Abonentlər bilməlidirlər ki, atılan bu neqativ addımlar təkcə elektrik enerjisinin talanması ilə nəticələnmir. Digər abonentlərin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsinə maneələr yaradır, insanların həyat və sağlamlıqlarını ciddi təhlükə altına salır.

# "Şirvan Sığorta və Təkrar Sığorta Brokeri" MMC-nin 2022-ci il dekabrın 31-nə mühasibat balansı (rüblük və illik)

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | | |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | | |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştirak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | | |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | 62.604,87 | 60.865,26 |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | 2.791,65 | 3.278,05 |
| birbaşa sığorta üzrə | | |
| **təkrarsığorta əməliyyatları üzrə :** | | |
| - təkrarsığortaçı üzrə | | |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 1.791,65 | 2.278,05 |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | 1.000,00 | 1.000,00 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 0,00 | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 58.574,46 | 56.661,43 |
| kassa | | |
| hesablaşma hesabı | 58.574,46 | 56.661,43 |
| valyuta hesabı | | |
| depozit hesablar | | |
| sair pul vəsaitləri | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | 1.238,76 | 925,78 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | 1.238,76 | 925,78 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 0,00 | |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | 62.604,87 | 60.865,26 |
| **CƏMİ AKTİVLƏR** | 62.604,87 | 60.865,26 |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 1.000,00 | 1.000,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | 0,00 | 0,00 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 12.913,03 | 41.813,19 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 12.913,03 | 28.900,16 |
| Muhasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 12.913,03 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | 13.913,03 | 42.813,19 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | | |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları :** | | |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | |
| təkrarsığortaçı üzrə | | |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | | |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 48.691,84 | 18.052,07 |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | 48.417,14 | 17.777,37 |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | 7.235,86 |
| sosial sığorta və təminat üzrə | 600,00 | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 47.817,14 | 10.541,51 |
| **Sair qısamüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | 274,70 | 274,70 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 48.691,84 | 18.052,07 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | 48.691,84 | 18.052,07 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 62.604,87 | 60.865,26 |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

# "Şirvan Sığorta və Təkrar Sığorta Brokeri" MMC mənfəət və zərər haqqında hesabat (rüblük və illik)

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | 66.150,50 |
| **CƏMİ GƏLİRLƏR** | 66.150,50 |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 30.025,30 |
| **Sair xərclər** | |
| **CƏMİ XƏRCLƏR** | 30.025,30 |
| **Maliyyə mənfəəti (zərəri)** | 36.125,20 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 36.125,20 |
| **Mənfəət vergisi** | 7.225,04 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 28.900,16 |


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

539-49-20


# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin sabiq deputatı

**ƏRƏSTUN CAVADOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılova qardaşı

**BAĞIR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılova qardaşı

**BAĞIR MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə Baş nazirin sabiq müavini Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**VAMİQ ƏSƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Ağalar Vəliyev Abid Şərifova və ailəsinə əzizləri

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılova qardaşı

**BAĞIR MİKAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılova qardaşı

**BAĞIR MİKAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə qardaşı

**MUSTAFA ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan İnzibati Məhkəməsinin sədri Fehruz Abbasov və məhkəmənin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə qardaşı

**MUSTAFA ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Beyləqan Rayon Məhkəməsinin sədri Ramiz Nurullayev və məhkəmənin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə qardaşı

**MUSTAFA ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə qardaşı

**MUSTAFA ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Saatlı Rayon Məhkəməsinin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə qardaşı

**MUSTAFA ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Mühəndislik Universitetinin rektoru professor Havar Məmmədov Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin kollektivi Abid Şərifova oğlu

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru






www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5187
Sifariş 743

Qiyməti 40 qəpik